**MƏMMƏD ƏMİN RƏSULZADƏ**

# MƏKTUBLAR. ŞƏFİBƏYÇİLİK

Elmi redaktorlar: a.ü.e.d. Ə.E. Məmmədli
t.e.n. M.R. Oruclu

*Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar olaraq Moskvada fəaliyyət göstərən "Məmməd Əmin Rəsulzadə Məclisi"nin dəstəyilə nəşr olunur.*

**Məmməd Əmin Rəsulzadə.** Məktublar. Şəfibəyçilik / tərtib edən, ön sözün və izahların müəllifi t.e.d. Aydın Balayev. Bakı, KitabKlubu.org, 2017, 196 səh.

Oxuculara təqdim olunan bu topluda Azərbaycan Xalq Cümhuriyyətinin banisi olan M.Ə. Rəsulzadənin bir sıra məktubları, eləcə də onun 1934-cü ildə İstanbulda işıq üzü görmüş "Şəfibəyçilik" əsəri ilk dəfə olaraq latın qrafikası ilə Azərbaycan dilində nəşr edilir. Bu sənədlər həm M.Ə. Rəsulzadə irisinin, həm də Azərbaycan siyasi mühacirəti daxilində ötən əsrin 20-30-cu illərində baş verən proseslərin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

ISBN 978-9952-8335-3-0

© Aydın Balayev

# Ön söz

Azərbaycan siyasi mühacirətinin fəaliyyəti XX əsr tariximizin ən şanlı səhifələrindən birini təşkil edir. 1917-1920-ci illərdə regionda və Azərbaycanda baş vermiş keşməkeşli tarixi hadisələr yüzlərlə və minlərlə azərbaycanlını vətəni tərk edərək yad ölkələrə üz tutmağa məcbur etdi. Bu itkilər sayca olmasa da, keyfiyyətcə Azərbaycan türkləri üçün əvəzolunmaz idi. Çünki mühacirlərin böyük əksəriyyətini Azərbaycanın o zamankı intellektual və siyasi elitasının nümayəndələri təşkil edirdi.

Bu baxımdan qanunauyğun haldır ki, Azərbaycan siyasi müharicətinin tarixi – Vətənin inkişaf yolları və onun gələcəyi ətrafında aparılan qızğın mübahisələr və münaqişələr tarixidir. Siyasi mühacirlərin xalqımız qarşısındakı başlıca tarixi xidməti ondan ibarətdir ki, onlar nəzəri müzakirələrlə kifayətlənməyərək, Azərbaycanın istiqlalı ideyasını praktikada həyata keçirməyə çalışırdılar. Təsadüfi deyil ki, mühacirət tarixi – yüksək ideallar uğrunda ağlasığmaz fədakarlıqlar tarixi, Vətəndən uzaqlarda "bir qarnı ac, bir qarnı tox" ömür sürən nisbətən azsaylı bir zümrənin SSRİ-nin timsalında nəhəng bir dövlət maşınına qarşı qəhrəmancasına qeyri-bərabər mübarizəsi tarixidir. Bu, həmçinin Azərbaycanın istiqlalı naminə öz həyatlarını belə qurban verməyə hazır olan (və bir çox hallarda bunu reallıqda etmiş) bənzərsiz və müsəlman dünyasında çox nadir hallarda rast gəlinən insanların həyat və mübarizəsi tarixidir.

Həmin mübarizənin "səmərəsizliyini" iddia edən bəzi "ağzıgöyçəklərə" isə, siyasi mühacirət liderlərinin hər kiçik yazı və çıxışına Kreml rəhbərlərinin son dərəcə əsəbi və isterik reaksiyasını xatırlamaq kifayətdir. Bunun ən bariz nümunəsi M.Ə. Rəsulzadənin "Azərbaycan cümhuriyyəti" kitabçasının İstanbulda işıq üzü görməsinə "bütün dövrlərin və xalqların 1№-li insan cəlladı" olan İ. Stalinin şəxsi reaksiyasıdır. Belə ki, həmin kitabçanın nəşrindən dərhal sonra Stalin Azərbaycandakı oyuncaq rejimin rəhbərliyinə xüsusi məktubla müraciət

edərək, M.Ə. Rəsulzadəyə qarşı "əks-təbliğat kampaniyasının" başlanmasına göstəriş vermişdi. Həmin kampaniyada o zamankı Azərbaycan rəhbərliyinin demək olar ki, bütün üzvləri, o cümlədən M.D. Hüseynov, R. Axundov, Ə. Qarayev, M. Quliyev və b. iştirak edirdilər.

Bu nümunə, həmçinin o dövrdə sovet xüsusi xidmət orqanlarının mühacir təşkilatlara qarşı amansız mübarizəsi onu göstərir ki, bolşevik liderləri, bu günün bəzi kommunist tör-töküntülərindən fərqli olaraq, həmin qurumları "bir ovuc boş-boğazın yığıncağı" hesab etmirdilər. Siyasi mühacirət, xüsusilə ötən əsrin 20-30-cu illərində, beynəlxalq siyasətin birinci dərəcəli olmasa da, hər halda real amillərindən biri idi və onun fəaliyyətinin hərtərəfli tədqiqi Azərbaycan tarixşünaslığının qarşısında duran ən əsas vəzifələrdən biridir.

Doğrudur, uzun illərin sükutundan sonra son dövrlərdə Azərbaycan siyasi mühacirət tarixinin öyrənilməsində mühüm nailiyyətlər əldə olunmuş, bir sıra sanballı elmi əsərlər işıq üzü görmüş, xeyli sayda tarixi sənədlər nəşr edilmişdir.[1] Həmin əsərlər içərisində G.Mamulia ilə R.Abutalıbovun müəllifi olduğu "Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945)" kitabını xüsusilə qeyd etmək lazımdır. Bu kitabda Azərbaycan siyasi mühacirətinin 1920-1945-ci illərdəki fəaliyyəti hərtərəfli şəkildə təhlil və tədqiq edilmişdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, tədqiqat işində Fransa, Polşa, Gürcüstan, Rusiya və dünyanın digər ölkələrinin arxivlərində aşkarlanmış böyük həcmdə materiallardan istifadə edilmişdir. Həm də bu materialların tam əksəriyyəti elmi dövriyyəyə ilk dəfə olaraq daxil edilmişdir.

---

[1] Из наследия политической эмиграции Азербайджана в Польше / Сост. В. Гулиев. Баку, 2011; Из истории азербайджанской эмиграции. Сборник документов, произведений, писем / Сост. С.М. Исхаков. М., 2011; А.М. Топчибаши и М.Э. Расулзаде: Переписка. 1923-1926 гг. / Сост. С.М. Исхаков. М., 2012; *İbrahimli X.* Azərbaycan siyasi mühacirəti. Bakı, 2015; *Əhməd D.* Mühacirlərin dönüşü. Bakı, 2017.

Lakin Azərbaycan mühacirətinin tarixinin öyrənilməsində əldə olunmuş uğurlara baxmayaraq, bu sahədə hələ görüləsi xeyli iş var. Belə ki, Gürcüstan və Ermənistan mühacirətinin bütün arxivləri vahid bir mərkəzdə toplanıb qorunduğu halda, Azərbaycan siyasi mühacirətinin və onun liderlərinin fəaliyyətinə aid sənədlər müxtəlif ölkələrə və ünvanlara səpələnmişdir. Bu dağınıq sənədlərin bir yerə toplanıb sistematikləşdirilməsi, tədqiqi və nəşri tədqiqatçıların qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Bu baxımdan oxuculara təqdim olunan "M.Ə. Rəsulzadə. Məktublar" adlı sənədlər toplusunu həmin istiqamətdə atılmış kiçicik bit addım hesab etmək olar. Topluya daxil edilmiş sənədlərin xeyli hissəsini M.Ə. Rəsulzadənin Ceyhun Hacıbəyliyə ərəb əlifbası ilə Azərbaycan dilində yazdığı məktubları təşkil edir. Həmin məktublar 1988-ci ildə diplomat və mühacirət tarixinin görkəmli tədqiqatçısı Ramiz Abutalıbov tərəfindən Parisdə aşkarlanaraq, Azərbaycana gətirilmişdir. Hazırda bu məktublar Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin 648 saylı fondunda saxlanılır.

M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktublarının faksimilesi S. İsxakov tərəfindən 2010-cu ildə Moskvada nəşr olunmuşdur.[2] Lakin məktubların əlyazmasının ərəb qrafikasında olması, eləcə də ərəb və fars mənşəli sözlərlə zənginliyi onlardan istifadəni geniş oxucu kütləsi və tədqiqatçıların əksəriyyəti üçün qeyri-mümküm edirdi. Bu səbəbdən də, məktubların latın qrafikasına çevrilməsi zərurəti yaranmış və bu iş M. Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi Arif Ramazanov tərəfindən həyata keçirilmişdir. Beləliklə, M.Ə. Rəsulzadənin topluya daxil edilən məktubları ilk dəfə olaraq latın qrafikasında Azərbaycan oxucularına təqdim olunur.

[2] Расулзаде Мамед Эмин. Сборник произведений и писем / Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 238-357.

Topluda yer alan sənədlərin bir qismi isə (№ 28-31, 33) Qafqaz siyasi mühacirəti tarixinin tanınmış tədqiqatçılarından biri, hazırda Fransada fəaliyyət göstərən gürcü tarixçisi G. Mamulia tərəfindən böyük lütfkarlıqla nəşr üçün təqdim olunub. Məktubların bu qisminin transliterasiyası və onlardakı çətin sözlərin izahı Ədalət Tahirzadəyə məxsusdur. Sonuncu məktub (№ 49) isə dəyərli türk tədqiqatçısı Ömər Özcan tərəfindən təqdim olunmuşdur.

Toplunun ikinci hissəsinə M.Ə. Rəsulzadənin 1934-cü ildə İstanbulda işıq üzü görmüş və sonralar nə Türkiyədə, nə də Azərbaycanda nəşr olunmamış "Şəfibəyçilik" əsəri daxil edilmişdir. Bu əsər həmin dövrdə həm Azərbaycan siyasi mühacirəti, həm də "Müsavat" partiyası daxilində gedən prosesləri anlamaq baxımından çox qiymətli tarixi mənbədir.

Topluya daxil edilən sənədlərin mətni heç bir ixtisar və düzəlişlərə yol verilmədən tam həcmdə çap olunur. Məktub müəlliflərinin üslubu saxlanılmış, mətnlər yalnız Azərbaycan dilinin müasir orfoqrafiya (imla) və punktuasiya (durğu işarələri) normalarına uyğunlaşdırılmışdır.

Ümidvar olduğumuzu bildiririk ki, oxuculara təqdim olunan toplu M.Ə. Rəsulzadə irsinin və bütövlükdə Azərbaycan siyasi mühacirət tarixinin öyrənilməsində tədqiqatçılara yardımçı olacaq.

# MƏKTUBLAR

## №1

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova[1] məktubu*

16 avqust 1922-ci il
Kellomyaki[2]

Möhtərəm Əli Mərdan bəy əfəndi həzrətlərinə!

Finlandiyadan, karantindən yazıram. Sizin ünvanınızı bilmədiyimdən Helsinqforsdakı[3] dostlar tərəfindən xəbər aldığım Fuad Tuktarov[4] vasitəsi ilə məktubu sizə göndərirəm.

Avqustun 11-də qayıq ilə Petroqraddan buraya gəldim. Beş saat su üzərində qaldıq. İndi Kellomyaki karantinindəyəm. Ayın 24-də karantin müddəti bitir. İcazə kağızları hazır olduqdan sonra İstanbula gedəcəyəm. Fəqət İstanbuldakı dostların ünvanlarını bilmirəm. Lütfən, ünvanları mənə göndərin.

Bizim oradakı (İstanbuldakı – A.B.) nümayəndəliyimizin ünvanını da bilmək istərdim. Mustafa[5], Musa[6], Şəfi[7], Xəlil əmi

---

[1] Əli Mərdan bəy Topçubaşov (1865-1934) – görkəmli ictimai-siyasi və dövlət xadimi. Azərbaycan parlamentinin ilk sədri, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı. 1920-ci il aprel işğalından sonra Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizənin ön sıralarında olmuşdur. Azərbaycan siyasi mühacirətinin liderlərindən biri.

[2] Həmin dövrdə Finlandiya ərazisində qəsəbə (fin dilində Kellomäki adlanır).

[3] Finlandiya paytaxtı Helsinkinin İsveç dilində adı.

[4] Mahmud Fuad Tutktarov (1880-1938) – Kazan türklərinin görkəmli ictimai-siyasi xadimi, jurnalist, hüquqşünas. 1917-ci ildə I və II Ümumrusiya müsəlman qurultaylarının nümayəndəsi olub, həmin il Ümumrusiya Müəssislər Məclisinin üzvü seçilib. Paris sülh konfransında Sədri Maqsudi və Ayaz İshaki ilə birlikdə Kazan türklərini təmsil edib. Sonradan mühacirətdə qalıb və Türkiyəyə köçüb. Orada pedaqoji fəaliyyətlə məşğul olub, həmçinin müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq edib. Ankarada vəfat edib.

[5] Vəkilli (Vəkilov) Mustafa bəy (1896-1965) – Azərbaycan milli istiqlal mübarizəsinin fəal iştirakçılarından biri, "Müsavat" partiyasından Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü. 1919-cu ilin dekabrında "Müsavat"ın 2-ci qurultayında partiyanın Mərkəzi Komitəsinin üzvü seçilib. 1920-ci ilin fevralında daxili işlər naziri təyin edilib. Aprel işğalından (1920) sonra mühacirətə gedib, "Prometey" hərəkatının

də[8] oradadırlar. Onların ünvanını öyrənmək olarmı? İki sənəlik bir girdardan sonra Rusiya hüdudları xaricindəyəm. Hələlik karantində azadlıq havasını tam hiss edə bilməsəm də, tezliklə birgə mübarizə üçün dostlara qovuşacağıma ümid edirəm. Sizin cavabınızı və İstanbula səfərimi gerçəkləşdirmək üçün məsləhətlərinizi gözləyirəm.

Məndə qızıl pulla 300 rubl var. Bu məbləğ səfər üçün kifayətdirmi? Mənim Moskvadan buraya səfərim bir milyard russovet rubluna başa gəldi. Cavabınızı gözləyirəm, mənim ünvanım (qarışıq yazılıb).

Təbii ki, mən buraya pasportsuz və gizli gəldim. Pasport almaq üçün vətəndaşlıq məsələsi ortaya çıxdı. Buradakı Rus komitəsi[9] məni mütləq şəkildə rus təbəəsi kimi qeydə almaq istəyir. Mən isə onlara bununla razılaşmadığımı bildirdim. Bizimkilər hansı pasportla yaşayırlar? Bu məsələdə sizin məsləhətinizə ehtiyacım var. Mən Azərbaycan vətəndaşı kimi qeydə alınmağımda israr etdim. Görək, Helsinqforsda nə etmək mümkün olacaq.

---

rəhbərlərindən biri olub. 1927-1936-cı illərdə Azərbaycan Milli Mərkəzinin üzvü, 1927-1920-cu illərdə Varşavada Azərbaycan Milli Mərkəzinin nümayəndəsi olub.

[6] Musa Rəfiyev (1988-1938) – ictimai-siyasi-xadim. Zaqafqaziya Seyminin, daha sonra Azərbaycan Milli Şurasının və parlamentinin üzvü olub. Azərbaycan Xalq Cümhuriyyətinin bir neçə hökumət kabinəsində müxtəlif nazirliklərə rəhbərlik edib. Aprel işğalından (1920) sonra mühacirətə gedib.

[7] Şəfi bəy Rüstəmbəyli (1893-1953) – Azərbaycan istiqlal mücadiləsinin fəal iştirakçılarından biri, Azərbaycan parlamentinin üzvü. Aprel işğalından (1920) sonra mühacirət etmişdir.

[8] Xəlil bəy Xasməmmədov (1873-1945) – Azərbaycanda milli itiqlal mübarizəsinin öncüllərindən biri, "Müsavat" partiyasının üzvü. 1918-1920-ci illərdə Azərbaycan parlamentinin üzvü, eyni zamanda, bir sıra hökumət kabinələrində ədliyyə naziri, daxili işlər naziri və potfelsiz nazir olub. 1920-ci ildə mühacirət edib. Mühacirətdə M.Ə. Rəsulzadənin rəhbərlik etdiyi Azərbaycan Milli Mərkəzinə müxalifətdə olub. 1934-1939-cu illərdə sağ təmayüllü Qafqaz mühacirlərindən ibarət "Qafqaz" qrupunun üzvü olub.

[9] 1919-cu ilin yanvarında Helsinkidə ağqvardiyaçı mühacirlər tərəfindən yaradılmış "Rus siyasi komitəsi" nəzərdə tutulur.

Rus komitəsi sədrinin bildirdiyinə görə, İstanbula getmək üçün ingilis vizası tələb olunur. Helsinqforsdakı İngiltərə konsulluğu isə yalnız rus pasportum olduğu halda mənə viza verə bilər. Ola bilər ki, mən bir az da Helsinqforsda qalım. İndi mənə yazsanız, o zaman cavabınızı vaxtında ala bilərəm. Mən ən azı bir həftə də karantində qalacağam.

Bağı ərzi-sədaqətlə,

Məmməd Əmin Rəsulzadə

*А.М. Топчибаши. Парижский Архив 1919-1940. Книга вторая 1921-1923. / Составители Г. Мамулиа и Р. Абуталыбов. Введение, перевод и примечания Г. Мамулиа. М., 2016. С. 451-452. Məktubun rus dilində tərcüməsi.*

## № 2

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*

29 avqust 1922-ci il
Helsinqfors[10]

Pək möhtərəm əfəndim!

Fuad Tuktarovun dostlarından öyrəndim ki, o, karantindən yazdığım məktubu zati-alinizə təqdim edib. Cavabınızı gözləyirəm. Bununla belə, özümlə əlaqədar hadisələri təfərruatı ilə təsvir etmək istəyirəm.

Avqustun 25-də karantini tərk etdim və "Ziviki"[11] adlanan stansiyaya gəldim. Orada bir günlik Nijnidəki[12] qurultaylardan sizi çox yaxşı tanıyan Camaləddin babanın (Camaləddinovun) [13] qonağı oldum. Zati-alinizə salam və ehtiramları vardır. 27-də Helsinqforsa gəldim. Mən gəldiyim gün Sədri Maqsudov[14] əfəndi Berlinə yola düşmüşdü. Onunla görüşə bilməsək də, yazışdıq. Buranın müsəlmanları məni

---

[10] Helsinki.

[11] Teriyoki nəzərdə tutulur.

[12] Nijni Novqorodda keçirilmiş I (1905-ci il, avqust) və III (1906-cı il, avqust) Ümumrusiya müsəlmanları qurultayları nəzərdə tutulur.

[13] Yusupov (Yusuf) Camaləddin (1852-1930) – tanınmış tatar nəsillərindən birinin nümayəndəsi. Ticarət və xeyriyyəçiliklə məşğul olub, tatar icmasının həyatında fəal iştirakı ilə seçilib. Həmin nəslin nümayəndələri bu gün də Finlandiyada yaşayırlar.

[14] Maksudov (Maksudi) Sədri (1878-1957) – Kazan türklərinin görkəmli ictimai-siyasi xadimlərindən biri. !901-906-cı illərdə Paris universitetinin hüquq fakultəsində təhsil alıb. 1906-cı ildə Kazana qayıdaraq aktiv siyasi fəaliyyətə qoşulub və Ümumrusiya müsəlmanlarının 3-cü qurultayında "İttfaqi-müslimin" partiyasının Mərkəzi Komitəsinə üzv seçilib. Fevral inqilabından sonra Kazan türklərinin milli-azadlıq hərəkatının liderlərindən biri olub və Ümumrusiya Müəssislər Məclisinə üzv seçilib. 1918-ci il yanvarın 5-dən İç Rusiya və Sibir türklərinin Milli İdarəsinə rəhbərlik edib, Versal sülh konfransında onları təmsil edib. Kazan və Ufa quberniyalarının bolşeviklər tərəfindən işğalından sonra Finlandiyaya mühacirətə gedib. 20-ci illərin ortalarında Atatürkün dəvəti ilə Türkiyəyə köçərək milli dövlət quruculuğunda yaxından iştirak edib, üç çağırış Türkiyə parlamentinin deputatı olub.

mehribanlıqla qarşıladılar. Tanıdıqlarımdam Abdulla Battal[15] ilə imam Lütfi İshaqov[16] həzrətləri buradadırlar. Helsinqfors imamı Həkim əfəndi mənə lazım olan sənədləri və icazəni əldə etmək üçün çox böyük köməklik etdi. Finlandiya Xarici işlər nazirliyindən burada iki ay qalmağıma icazə verən razılıq sənədini aldı. Lakin Helsinqforsda yaşamaq üçün əlavə olaraq qubernatorun da icazəsi tələb olunur ki, bu da məndə yoxdur. Mənim yalnız şəhərə daxil olmaq icazəsi verən müvəqqəti sənədim vardır. İndi dostlar qubernatordan Helsinqforsda yaşamağıma icazə verən sənədin alınması üçün çalışırlar.

Sədri əfəndidən öyrəndim ki, xaricdə yaşayan azərbaycanlılara bizim Parisdə yerləşən nümayəndəlik[17] tərəfindən rəsmi pasport verilir. Sizdən çox xahiş edərdim ki, mümkün qədər tez belə bir pasportu mənə göndərəsiniz. Onunla Avropa ölkələrinə getmək üçün tələb olunan vizanı daha rahatlıqla ala bilərəm.

Finlandiya torpağına gəlməyimin tarixçəsi belədir. Bəlkə də bilirsiniz, Moskvada Məmmədəli Rəsulzadə[18] və Abbasqulu

---

[15] Abdulla Battal Taymas (1883-1969) – XX əsrin əvvəlində Kazan türklərinin milli-azadlıq hərəkatının liderlərindən biri. 1917-ci ilin sonunda İç Rusiya və Sibir türklərinin Milli Məclisinin üzvü seçilib. 1921-ci ildə bolşeviklərin təqiblərindən xilas olmaq üçün Finlandiyaya mühacirət edib.1925-ci ildə Türkiyəyə gəldikdən sonra Mətbuat İdarəsində və Xarici işlər nazirliyində çalışıb, tarix, dil və ədəbiyyat sahəsində araşdırmalar aparıb. Bu sahələrdə bir sıra fundamental elmi əsərlərin müəllifidir. M.Ə.Rəsulzadə ilə yaxın dostluq münasibətində olub.

[16] Lütfulla İshaqov (?-1925) – görkəmli tatar ictimai-dini xadimi. Misirdə dini təhsil alıb, 1904-1905-ci illərdə İrkutsk məscidinin imamı olub. 1906-cı ildən Peterburqda 4-cü müsəlman icmasının imamı funksiyasını yerinə yetirib. Ümumrusiya müsəlmanlar qurultaylarında fəal iştirak edib. 1922-ci ildə Finlandiyaya mühacirət edib. 1925-ci ildə Türkiyəyə səyahəti zamanı vəfat edib.

[17] Ə.M. Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti nəzərdə tutulur.

[18] Məmmədəli Rəsulzadə (1882-1982) – Azərbaycan milli istiqlal hərəkatının fəal üzvlərindən biri, Məmməd Əmin Rəsulzadənin əmisi oğlu. 1911-ci ildə “Müsavat” partiyasının yaradıcılarından biri olub. 1918-ci ilin

Kazımzadə[19] ilə birlikdəydik və üçlükdə qaçmaği planlaşdırırdıq. Çünki birimizin qaçması digərləri üçün təhlükə yarada bilərdi. Hələ üstəlik Kazımzadə dövlət xidmətində çalışırdı. Məmmədəli ilə Kazımzadəni bir bəhanə ilə Bakıya göndərdim. Özüm isə yay tətilində elmi işlərlə məşğul olmaq bəhanəsilə Petroqrada gəldim. Burada iki fin qaçaqmalçısı ilə razılığa gəldikdən sonra, yağışlı və qaranlıq bir gecədə yelkənli qayıq ilə Qırmızı boğazın (Krasnı qorkanın)[20] yanından ötüb keçərək Finlandiya sahillərinə yan aldıq. Sonrası məlumdur.

Finlandiya sərhəddini keçdiyim barədə məlumat aldıqdan dərhal sonra Məmmədəli ilə Abbasqulu İrana qaçmalı idilər.

Moskvadan Petroqrada, oradan isə Helsinqforsa səfərim təqribən səkkiz min fin markası və bir milyard sovet puluna başa gəldi. Paltarlarımın bir hissəsi Petroqradda qaldı. Özümlə heç nə götürə bilmədim. Əşyalarımı sonradan göndərəcəklərinə söz veriblər.

Parisdə bizdən kimlərin olduğunu bilmirəm. Bütün dostlara salamlarımı yetirin. Hümayəndə heyətimizin fəaliyyəti ilə çox maraqlanıram. Lütfən, sizin nəşrlərin hər birindən bir nüsxə göndərin.

Ailə üzvlərinizə və mühacir arxadaşlara ərzi-salam edirəm.

Əlinizi sıxıram.

Məmməd Əmin Rəsulzadə

*А.М. Топчибаши. Парижский Архив 1919-1940. Книга вторая 1921-1923. / Составители Г. Мамулиа и Р. Абуталыбов. Введение, перевод и примечания Г. Мамулиа. М., 2016. С. 453-455. Məktubun rus dilində tərcüməsi.*

---

dekabrında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə üzv seçilib. 1922-ci ilin yayında Bakıdan İrana, oradan isə İstanbula mühacirətə gedib.

[19] Abbasqulu Kazımzadə (1882-1947) - Azərbaycan milli hərəkatının fəallarından biri. 1911-ci ildə "Müsavat" partiyasının yaranmasında iştirak edib. 1922-ci ilin yayında Məmmədəli Rəsulzadə ilə birlikdə Bakıdan İrana, oradan isə İstanbula mühacirətə gedib.

[20] Kronştadtın dəniz tərəfdən Peterburqu müdafiə edən iki əsas istehkamından biri olan "Krasnaya qorka" (*Красная Горка*) nəzərdə tutulur.

## № 3

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə*[21] *məktubu*

7 sentyabr 1922-ci il
Helsinki

Əzizim Ceyhun!

Tarixin uzaq bir zamani-qədimində gözəl və pakizə paytaxtında hər növ natəmizliklərdən özümü həm maddi, həm də mənəvi cəhətdən təmizləyib, arxadaşlara qovuşmaq üçün lazım gələn vizaları gözləməkdə ikən, ayrı düşdüyüm vətəndaşlarla, arxadaşlarla bu yazı ilə də olsa görüşməyə tələsirəm.

Salam və ehtiramımı yetirdikdən sonra Sizdən məktublar gözləməkdə olduğumu bildirirəm. Bəlkə burada bir az daha qalası oldum. Çünki viza hələ alınmadı.

Zöhrə xanıma [22] məndən məxsusi salam. Çocuqların gözlərindən öpürəm. Mir Yaquba, [23] Əkbər ağa Şeyxülislamova[24] və sair arxadaşlara salamımı deyərsiniz.

---

[21] Ceyhun bəy Hacıbəyli (1891-1962) – Üzeyir bəy Hacıbəylinin kiçik qardaşı, siyasi xadim və jurnalist. AXC dövründə (1918-1920) milli hökumətin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin redaktorlarından biri kimi fəaliyyət göstərib. 1919-cu ilin yanvarında Paris sülh konfransında iştirak edəcək Azəırbaycan nümayəndə heyətinin tərkibinə müşavir qismində daxil edilib.Nümayəndə heyətilə Parisə gedən C. Hacıbəyli aprel işğalından (1920) sonra vətənə dönməyərək, mühacirətdə qalıb. Azərbaycan mühacirətinin ən fəal üzvlərindən biri olmaqla bərabər, Avropanın bir sıra tanınmış KİV-ləri ilə sıx əməkdaşlıq edib.

[22] C. Hacıbəylinin həyat yoldaşı Zöhrə xanım Hacıqasımova-Hacıbəyli nəzərdə tutulur.

[23] Miryaqub Mehdiyev (1891-1949) – Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olub, daha sonra isə Azərbaycan parlamentində “İttihad” partiyasını təmsil edib. 1918-1920-ci illərdə “İttihad” partiyası MK-sinin üzvü olub. Paris sülh konfransına yollanan Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil olan M. Mehdiyev aprel işğalından (1920) sonra vətənə dönməyərək, mühacirətdə qalıb. Mühacirətdə «Müsavat” partiyasına daxil olub.

[24] Əkbər ağa Şeyxülislamov (1891-1961) – ictimai-siyasi xadim, “Hümmət” (menşevik) partiyasının rəhbərlərindən biri. Həmin partiyanı Azərbaycan parlamentində təmsil edib. 1919-cu ilin yanvarında Paris sülh konfransında

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 241. Məktubun əslinin faksimilesi.*

---

işturak edəcək Azəirbaycan nümayəndə heyətinin tərkibinə daxil edilib. 1920-ci ildə AXC-nin süqutundan sonra mühacir həyatı yaşayıb.

## № 4

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

12 oktyabr 1922-ci il
Berlin

Əzizim Ceyhun!

10 oktyabr tarixli məktubunuzu aldım. Mən ayın 13-də işləri bitirəcəyəm. 14-də axşam şənbə günü Sizə doğru hərəkət edə biləcəyəm. Siz də səfərinizi bir-iki gün daha gecikdirsəniz sizinlə bərabər Parisə gedərik. Yola düşərkən əlbəttə ki, Sizə teleqram edərəm. Mahmud bəydən[25] soruşdum, mənə verilmək üçün sizdən kağız almamışdır, deyir. Almaniyada hamı belə bir məzəli əhvalata heyrət edir. Ağaqasımın salamı vardır. Zöhrə xanıma salam.

Dostluqla,

Məmməd Əmin

P.S. Parisə getmək üçün Əli Mərdan bəydən[26] viza istəmək üçün özünə müraciət eləmişdim. Bu günə qədər cavab yoxdur. Oraya gəldikdən sonra viza almaq mümkün olacaqmı?

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 246-247. Məktubun əslinin faksimilesi.*

---

[25] Çox güman ki, Azərbaycan Xalq Cümhuriyyətinin Batumda konsulu olmuş, Qafqazın ruslar tərəfindən işğalından sonra isə Avropaya mühacirət etmiş Mahmud bəy Əfəndiyev nəzərdə tutulur.

[26] Əli Mərdan bəy Topçubaşov nəzərdə tutulur.

## № 5
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

21 dekabr 1922-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

İstanbula gəlişimdən bir neçə gün sonra Refet Paşa[27] ilə görüşdüm. Məni son dərəcədə səmimi və mehribanlıqla qəbul etdi. Onunla bizim üçün çox mühüm məsələlərlə bağlı danışa bildim. Burada qəzet çıxartmaq mümkün olacaq. Ancaq təşkilat yaratmaq rəsmən mümkün olmayacaqdır. Məlum səbəbə görə.

Xüsusi olaraq Şəfi bəylə[28] görüşdüm. Sənin projeni (layihəni) ona dedim. Onu da icra etmək mümkün olacaq.

Burada bəzi qəzetəçilərlə də görüşdüm. Rusiya haqqında məndən məqalələr istədilər. Bu günlərdə Ankarada çıxan həftəlik bir qəzetə bolşevizm haqqında məqalələr yazmağa başlayacağam.

Konsulxanamız məsələsi acınacaqlı bir surətdə bağlanmışdır.[29]

Haşım bəy[30] parlament qrupunu kənarlaşdırdıqdan sonra bitərəf qrupu skandal ilə təyin etmişdir. Sözləri də bu imiş ki,

---

[27] Tümgeneral Refet Bele (1881-1963) - Osmanlı dövründə IV çağırış Meclisi Mebusanın (parlamentin) İzmirdən deputatı, Türkiyədə Cümhuriyyət dönəminin parlamentində (I çağırış) millət vəkili, daxili işlər və milli müdafiə naziri, 1922-ci ildə Ankara Hökümətinin İstanbul təmsilçisi olub.

[28] Şəfi bəy Rüstəmbəyli nəzərdə tutulur.

[29] Azərbaycan Xalq Cümhuriyyətinin İstanbuldakı diplomatik nümayəndəliyinə rəhbərlik uğrunda Y.V. Çəmənzəminli ilə X. Xasməmmədov və ona dəstək verən Ə.M. Topçubaşov arasında gedən uzunmüddətli qarşıdurmadan söhbət gedir. Bu mübarizə son nəticədə diplomatik nümayəndəliyin fəaliyyətinin iflic olmasına və birdəfəlik qapanmasına gətirib çıxarıb. Bu barədə daha ətraflı məlumat üçün bax: *Балаев А.* Мамед Эмин Расулзаде (1884-1955). Политический портрет. Баку, 2014. С. 222-224.

[30] Çox güman ki, Azərbaycan Xalq Cümhuriyyətinin İstanbuldakı nümayəndəliyinin əməkdaşlarından biri nəzərdə tutulur.

bu adamın pis olduğuna biz də qaneiz. Ancaq nə üçün komitə[31] bizə deməmədən hərəkət edir, bizsiz adam təyin eləyir?

Bu münasibətlə Haşım bəy "Tərcümana" bir müsahibə verərək İstanbul səfirliyindən Paris heyətinin ermənilər lehinə yapdığı demarşından bəhs eləmişdir.

Refet Paşa ilə görüşərkən mən Azərbaycan macərasından, o da Paris müahidəsindən[32] gileyləndik.

Ah! Əgər bu müahidə olmasaydı işimiz nə yaxşı olacaqdı.

Burada həyat şəraiti Avropadakı kimi rahat deyil. Rütubətdir. Oradan ucuz da deyil, fəqət baha da gəlməz.

Hamıya kağız yazmaq istəyirəm. Ancaq bu günlər vaxtım yoxdur. Onun üçün bu kağızın məzmununu yoldaşlara bildir. Daha ətraflı sonra yazaram. Sizə bəzi qəzet nüsxələri də göndərirəm. Mümkünsə, heyət üçün həmin qəzetə abunə olunuz. Konf-ransdan  çox mühüm hesabat verilir.

Uşaqların halı necədir? Gözlərindən öpürəm. Zöhrə xanıma salamlar.

Hələlik bu qədər. Əlini sıxıram.

Məmməd Əmin

Ünvanım: İstanbul, Cağaloğlu apartumanında Rəsulzadə Məmməd Əmin bəyə.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 242-245.Məktubun əslinin faksimilesi.*

---

[31] Aprel işğalından (1920) sonra İstanbulda mühacirlər tərəfindən yaradılmış Azərbaycan komitəsindən söhbət. 1924-cü ilin oktyabrınadək komitəyə Musa Rəfiyev, daha sonra M.Ə. Rəsulzadə başçılıq edib. 1924-cü ilin noyabrından "İstiqlal komitəsi" adlanıb.

[32] 1920-ci ilin avqustunda Paris yaxınlığındakı Sevr məntəqəsində Antanta ilə Osmanlı dövləti arasında imzalanmış eyniadlı müqavilə nəzərdə tutulur. Sevr müqaviləsi Osmanlı imperiyasının mövcudluğuna son qoymaqla kifayətlənməyərək, faktiki olaraq Türkiyənin müstəqilliyinin və dövlətçiliyinin ləğvinə yönəlmişdi. Mustafa Kamal Paşanın rəhbərlik erdiyi milli mücadilə hərəkatı nəticəsində müqavilənin şərtlərinin həyata keçirilməsinin qarşısı alındı və o, 1923-cü ildə Lozanna müqaviləsilə əvəzləndi.

## № 6
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

2 may 1923-cü il
İstanbul

Əzizim qardaşım!

Yəqin ki, mənim bivəfa çıxdığımı, etinasızlıq göstərdiyimi düşünür və əsəbiləşirsiniz. Ancaq elə deyil. İstədiyiniz kitabları imkan daxilində almış, bağlamış, göndərmişdim. Fəqət nədənsə posta (poçt) geri gətirdi. Nə yaxşı ki, sifarişlə göndərmişdim. Fəqət yanğında odda yandı. İndi öz əsərimin[33] bir nüsxəsini göndərdim. Heyəti-mürəxəsə [34] ünvanına getmişdir. Türk məsəllərinə aid kitabları da təkrar alıb göndərirəm. 27 aprel[35] gününü buradakı mətbuatda qeyd etdik. "Akşam"da[36] Falih Rifkı bəy[37] çox canlı bir məqalə nəşr elədi.

Zöhrə xanıma salam, uşaqların gözlərindən öpürəm. Bu günlər rahat otaq tapmaq ümidindəyəm. Kağız yazaram.

Məmməd Əmin

---

[33] 1923-cü ildə İstanbulda nəşr olunmuş «Azərbaycan cümhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti)" kitabı nəzərdə tutulur. Həmin kitabda M.Ə. Rəsulzadə 1918-1920-ci illərdə Azərbaycanda cərəyan edən ictimai-siyasi prosesləri işıqlandırır, Azərbaycan türklərinin Xalq Cümhuriyyətindən əvvəlki və sonrakı taleyini yığcam şəkildə əks etdirir.

[34] Paris sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyəti.

[35] Rusiya tərəfindən 1920-ci ildə Azərbaycanın işğalının ildönümü nəzərdə tutulur.

[36] 1918-ci ildə İstanbulda təsis olunmuş gündəlik qəzet. 1920-ci ilədək yalnız axşamlar çıxdığı üçün belə adlanıb. 1965-ci ilədək Atatürkün yaratdlğı Cümhuriyyət Xalq Partiyasının mövqeyindən çıxış edib. 2013-cü ildə ərdoğançılar tərəfindən satın alındıqdan sonra islamçıların əsas ruporlarından birinə çevrilib.

[37] Falih Rifki Atay (1894-1971) – Türkiyənin tanınmış qəzetəçilərindən biri, yazar, millət vəkili. Qəzetçilik fəaliyyətində Atatürkün ən sadiq tərəfdarlarından biri olub. 1923-1950-ci illərdə millət vəkili kimi aktiv siyasətlə məşğul olub.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 241. Məktubun əslinin faksimilesi.*

## № 7
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

15 iyun 1923-cü il
İstanbul

Əzizim Ceyhun bəy!

Mən Sizi Almaniyada bilirdim. Əli Yusif [38] hal-hazırda Parisdə olduğunuzu xəbər verdi. Sizə yazdığım məktuba cavab alamadım. Göndərdiyim kitabımı[39] bilmirəm aldınızmı? Kitab haqqında fikiriniz nədir? Onu burada yazdım. Lazım gələn materiallar əl altında yox idi. Necə alınıb, bilmirəm.

Mən Sizin göndərdiyiniz son ünvanlara kitablar yolladım. Geri gəldi. Nə üçün, anlamadım. Əvvəlki məktubumda yazdığım kimi kitablar yandı. Əgər məktubunu alıb, doğru ünvanını öyrənsəm, yenə alıb göndərərəm.

Sizə qəzetlər də göndərilir. Əcəba alırmısınızmı? Bugünlərdə "Yeni Kafkasya" adı ilə bir qəzet çıxarmaq niyyətindəyəm. İştirakınızı arzu edirəm. Hadisələr və məqalələrinizi gözləyirik.

Lakin qəzet maddi cəhətdən kasıb olduğundan müəllif haqqı verməkdə acizdir. Gələcəkdə maddi durumumuz güclənərsə müəllif haqqı da ödəniləcəkdir. Qəzetin adı da yeni düşünülmüş bir şey deyildir. Keçmişdən mövcud olan bir münasib addan istifadə edirik.

---

[38] Əli Yusif, Yusifzadə Ağəli Cəlal oğlu (1900-1926) – şair, Cümhuriyyət dövrü Azərbaycan poeziyasının ən istedadlı nümayəndələrindən biri. 1920-ci ilin yanvarında AXC hökuməti tərəfindən təhsil almaq üçün Parisə göndərilib. 1923-cü ildə Parisdə Siyasi Elmlər İnstitutunu əla qiymətlərlə bitirib vətənə döndükdən sonra rus işğal rejiminə qarşı müqavimət hərəkatının fəal iştirakçılarından biri olaraq 1924-cü ildə Sibirə sürgün edilib və orada qətlə yetirlib.

[39] 1923-cü ildə İstanbulda nəşr olunmuş «Azərbaycan cümhuriyyəti (keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti)" kitabı nəzərdə tutulur.

Zöhrə xanıma ərzi-salam. Uşaqların gözlərindən öpürəm. Necədirlər? Məişətiniz necə keçir? Sıxılmırsınız? Yenə əvvəlki evinizdəmisiniz?

Əcəba, Almaniyaya nə üçün köçmədiniz? Bəlkə baş verən gündəlik hadisələr Sizin fikirinizi dəyişdi? Yorğundurlarmı?

Heyət[40] nə edir? Məhərrəmov[41] yazılan kağızlara cavab verməyir. Yoxsa kağızlarımı almayır? Yoxsa oradamı deyildir?

Kitabımdan bugünlərdə "Revue du Monde Musulman"a[42] göndərəcəyəm. Misyo Yuraya məndən salam. Ona da göndərəcəyəm.

Vallahı parasızlıq məni çox düşündürür. Ailəliləri duşunurəm. Mən də ailəmin buraya köçürülməsi üçün çalışıram. Uşaqların tərbiyəsi məni düşündürür. Eşitdiyimə görə ingilis heyəti borcunu tələb etmək üzrə imiş. Gürcülərdən belə bir şey eşitdim. Səy edilirmi? İş nə yerdədir?

Mir Yaqubdan şikayət vardı ki, kağızlarına cavab gəlməyir. Halbuki, dostumuzu itirdik. İndi Almaniyadadırmı? Son məktubuma da cavab almadım. Əkbər ağa Almaniyada imiş. Bakıdan gələnlərdən öyrəndiyimə görə ailəniz, qardaşınız salamatdırlar. Əli Yusif sağ-salamat Azərbaycana keçdi. Əli Mərdan bəyin yazdığına görə, bu yaxınlarda xarici dövlətlərə bir tağım protesto notaları göndərilmişdir. Cavablar alınmışdır. Təssüf ki, nə notanı, nə də cavabını, nə kopya surətilə, nə digər bir şəkildə nəql etməyir. Əldə olsaydı, İstanbul qəzetlərindən bəzilərinə müraciət edib, nəşr etdirərdik. Bir əsəri-mövcudiyyət olardı.

Əbilovun[43] ölümü fəna olmadı. Hərif surəti-zahiri bolşevikıər üçün yaxşı mühafizə edirdi. Ondan sonrakılar xeyli

---

[40] Parisdəki Azərbaycan nümayəndə heyəti nəzərdə tutulur.

[41] Məhərrəmov Məmməd (1895-1982) – Azərbaycan istiqlal mübarizəsinin fəal iştirakçılarından biri, Azərbaycan parlamentinin üzvü. Paris sülh konfransına göndərilən Azərbaycan nümayındə heyətinin müşaviri. Aprel işğalından (1920) sonra Fransada qalmış və Azərbaycan siyasi mühacirətin fəaliyyətində iştirak etmişdir.

[42] 1907-1926-cı illərdə Parisdə nəşr olunan elmi jurnal.

zor durumdadır. Belə ki, içdən gəlməyən yersiz bir şeylə məşğul olduqlarını anlayırlar.

Hələlik bu qədər. Cavabını alınca istədiyiniz kitabları göndərəm və daha ətraflı yazaram.

Əllərinizi sıxıram.

Məmməd Əmin

Ünvanım:

İstanbul, Cağaloğlu, Nurosmaniyyə caddəsi, Bəha bəy apartumanı, №17/1.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 308-311. Məktubun əslinin faksimilesi.*

---

[43] Əbilov İbrahim (1882-1923) – Azərbaycan Parlamentinin deputatı, sosialistlər fraksiyasının üzvü. Aprel işğalından (1920) sonra bolşeviklər tərəfə keçərək, Azərbaycandakı oyuncaq rejimin Tütkiyədə səfiri təyin edilib.

## № 8
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

28 avqust 1923-cü il
İstanbul

Əzizim Ceyhun!

Sizə çoxdan məktub yazmadığımı etiraf edirəm. Ancaq səbəbi Sizin yeni ünvanınız barədə bir xəbər almaq intizarı idi. Eşitdim ki, Berlinə köçmüsünüz. Gözlədim ki, yeni ünvanınızı bildirəsiniz. Ancaq sona qədər gözləyə bilmədim. Məcmuə[44] çıxması münasibətilə bu məktubu yazıram. Ticarət məsələlərinə görə Şəfi bəy ilə görüşdüm. Dərhal onunla məktublaşarsan. Daha yaxşı anlaşarsınız. O, əlindən gəldiyi qədər Sizinlə müştərək iş görmək istəyir. Hətta Sizə məktub belə yazmış, lakin cavab almamışdır.

Məcmuədə görəcəyiniz İslam bəyin bilməm Sizə qohumluğu çatırmı? Məktubumda qardaşının təbirini oxumusansa, nəzərə al ki, heç bir sətiraltı məna ilə yazılmayıb. Fəqət Üzeyir bəy[45] nəzərə alınıb da yazılmışdır.

Paris yığıncağında Məhərrəmovun [46] çıxışı haqqındakı heyrətini də oxudum. Bilməm o adam nə aləmdə və nə haldadır. Onun özünə yazdığım məktuba hələlik cavab almamışam. Bilməm məktubumu almayıb, yoxsa bu da digər heyrətə səbəb "çıxışlardan"dır.

Əli Mərdan bəyin San-Kluda köçdüyünü məktublarından öyrəndim. Bakı represiyasına aid notasını gördüm. Bakıda həbs

---

[44] Azərbaycan siyasi mühacirətinin ilk mətbu orqanı olan "Yeni Kafkasya" nəzərdə tutulur. Məcmuənin birinci sayini sentyabrın (1923) ilk günlərində çap etmək planlaşdırılsa da, müəyyən maddi və texniki səbəblər üzündən bu iş ayın sonuna kimi yubanıb. "Yeni Kafkasya"nın ilk sayı sentyabrın 26-da işıq üzü gördü.

[45] Üzeyir bəy Hacıbəyli (1885-1948) – görkəmli Azərbaycan bəstəkarı, Ceyhun bəy Hacıbəylinin qardaşı.

[46] Məhərrəmov Məmməd nəzərdə tutulur.

edilmiş musavatçılar adından yayılan "Bəyannamə"yə[47] ölüm təhdidi ilə imza etdirilmiş saxta bir kağız parçası kimi baxmanızı zəruri hesab edirəm.

Əli Mərdan bəyə Bakıda çıxan gizli intibahnamələr göndərmişdim. Bilməm gördünüzmü?

Qardaşlarımızdan[48] daha aktiv bir yardım görə bilmək üçün hələ də intizarda olmaq gərəkdir.

Doktor Sultanov [49] Ankaradan yazdığı məktubunda çox bədbindir.

Avropa siyasətində nə var?

Məcmuənin ilk nüsxəsində nələr olduğunu görəcəksən. Görəcəksən ad və ünvanımızı istiarələr (metafora, məcaz - A.B.) altında gizlədirik. Buna ehtiyac var. Taktika belə tələb edir.

Məcmuədə gürcülərlə yanaşı dağıstanlılar da iştirak edirlər. Müavinətə ehtiyacımız vardır. Bu nömrəni başdan-ayağa özüm yazmış kimiyəm.

Sizdən müavinət gözləyirəm. Məqalənizi gözləyirəm. Çocuqların gözlərindən, Zöhrə xanımın əlindən öpürəm.

Hələlik bu qədər. Ərzi-salam və məhəbbət.

Məmməd Əmin

Ünvanım:

---

[47] "ÇK" tətəfindən həbs olunmuş bir neçə müsavatçının imzası ilə partiyanın buraxıldığını elan edən və azadlıqda qalan müsavatçıları sovet hökumətinin platformasını qəbul etməyə çağıran bəyannamə nəzərdə tutulur. Bəyannamə 1923-cü il avqustun əvvəlində Bakı qəzetlərində dərc olunmuşdu.

[48] Türkiyə tərəfi nəzərdə tutulur.

[49] Sultanov Xosrov bəy (1879-1943) – ictimai-siyasi və dövlət xadimi, istiqlal mücadiləsinin fəal iştirakçılarından biri. İxtisasca həkim olduğundan məktublarda çox vaxt sadəcə olaraq doktor adlandırılır. 1918-ci ildə "İttihad" partiyasına daxil olaraq, onun liderlərindən biri olmuşdur. Qarabağ və Zəngəzur ərazisində daşnak quldur dıstələrinə qarşı mübarizədə xüsusi xidmətləri olub. 1919-cu ilin fevralında Qarabağın general-qubernatoru təyin edilib. Aprel işğalından (1920) sonra mühacirətdə yaşayan Sultanov M.Ə. Rəsulzadənin rəhbərlik etdiyi Azərbaycan Milli Mərkəzinə müxalifətdə olub.

İstanbul, Cağaloğluda, Nurosmaniyyədə, Baha bəy apartomanında, № 17/1.

P.S. Sizi eşitdiyimə görə Berlində zənn etmiş, bu məktubu da Qasım vasitəsi ilə Sizə yetirmək üçün yazmış, zərfə qoymuş, bağlamışdım ki, Heydər Bammatov[50] gəldi. Ondan Sizin Fransada olduğunuzu öyrəndim. Ona görə də məktubu açıb, indi Əli Mərdan bəy vasitəsilə göndərirəm.

Sizin buraya köçməyiniz barəsində Heydər bəylə də söhbətləşdik. O, Sizə bu barədə məktub yazmışdı.

Ətraflı başqa bir vaxt.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 248-250. Məktubun əslinin faksimilesi.*

[50] Bammatov (Bammat) Heydər (1890-1965) – 1917-ci il Fevral inqilabından sonra böyük vüsət almış Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatının liderlərindən biri. 1921-ci ildə bütün Qafqazın ruslar tərəfindən işğalından sonra mühacirət edib.

## № 9

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

16 yanvar 1924-cü il
İstanbul

Əzizim Ceyhun!

Son dəfə olaraq yazdığınız məktubu aldım. Buraya gəlmək üçün qərar vermiş olduğunuzu öyrəndim. Bammatovdan məktub almadığınıza təəccübləndim. Sizdən məktubuna cavab gəlmədiyinə heyrət etmişdir.

Mirzədən[51] çocuqlarınızın xəstə olduğunu öyrənmişdim. Kağız yazmaq üzrə idim ki, məktubunuz gəldi. Şükürlər olsun Tanrıya ki, uşaqların xəstəliyi keçmişdir.

Buraya köçməniz haqqındakı qərarınız, xüsusi ilə uşaqların tərbiyəsi nöqteyi-nəzərindən çox əhəmiyyətlidir. Mən də ailəmi buraya gətirtmək istəyirəm. Baxalım mümkün olacaqmı?

Uşaqlarımın hamısı bu yaz ayında isitmə xəstəliyinə tutulmuşdular. Həyat yoldaşım da ürəyindən şikayət edirdi. İndi bir az özünü yaxşı hiss edir.

Sizinkilər əcnəbi də olsa bari mədəni bir tərbiyə görürlər. Bizimkilərə nə tərbiyəsi eləyirlər məlum....

"Yeni Kafkasya" haqqındakı mülahizələrinizə və qənaətinizə görə təşəkkür edirəm. Mücadiləmiz millidir və məcmuədə həlli bir ahənglə davam edir. Lakin bu "ahəngi" arzulayıb, eyni zamanda, "partizanlıq"[52] etmək və "intiriqa"lar qurmaq istə-

---

[51] Mirzə Əsədullayev (1875-1938) – sahibkar, dövlət xadimi, neft milyonçusu Şəmsi Əsədullayevin oğlu. 1918-ci ildə neft sənayeçiləri qurultayı tərəfindən Azərbaycan parlamentinə üzv seçilib, "Müsavat" və bitərəflər fraksiyasında təmsil olunub. 3-cü hökumət kabinəsində ticarət və sənaye naziri vəzifəsini icra edib (1918, dekabr – 1919, mart). 1920-ci ildə bolşeviklər tərəfindən həbs olunsa da, qısa müddətdən sonra azad edilib və ölkəni tərk edərək mühacirətə gedib. Qızı Ümmülbanu (Banin) Avropanın tanınmış yazıçılarından biri olub.

[52] Qeyri-mütəşəkkil, plansız, nizam-intizamsız fəaliyyət nəzərdə tutulur.

yənlər varsa, onlar səkkiz nüsxədən ibarət olub, dörd aydan bəri davam etdirdiyimiz bu milli mücahidəylə (çalışmalara – A.B.) əlaqədar olduqlarını əməli işdə göstərsəydilər daha yaxşı olardı. Məncə müsbət işə yaramayan intiriqanların mənfi hərəkətlərindən qorxmağa dəyməz. Milli mücadilələrin faydası günəş kimi əhatəli və ümumidir. Bu mücadilə daima əməlpərvər bir zümrə tərəfindən davam edilə bilər. Yoxsa mənfi hərəkətlərdən başqa bir şeyə iqtidarı çatmayan araqarışdıranların "ağız suyu" heç bir zaman tükənməz. Meydanda səkkiz nüsxə var. Ahəng və məqsəd sizin də təqdir etdiyiniz (təriflədiyiniz) vəchlə meydandadır.

Bilməm bu səkkiz nüsxədə məmnuniyyətsizliyə səbəb olacaq bir qüsur varmıdır?

Sizcə yoxdur. Başqalarına görə varsa, göstərsinlər. Məmnun olarıq. Ya izah və ya da islah edərik.

Xülasə özünüz dediyiniz kimi görüşərkən daha ətraflı anlaşarıq. Heyət üzvlərindən Sizdən başqa Əli Mərdan bəydən və Mir Yaqubdan ara-sıra məktublar alırdım. Mir Yaqub xəstələndikdən sonra xasiyyətini dəyişibmi?

Nə isə artıq məktub yazmayır. Sizin ondan xəbəriniz varmı?

Əli Mərdan bəydən də çoxdandır məktub almıram. Ankaraya göndərdikləri notanın surətini göndərəcəkdi, almadım. Onun özünə ayrıca məktub yazacağam. İndi yazmaq istəyirdim, işim çıxdı. Ona görə Sizə yazdığım bu məktubu burada bitirmək lazım gəldi. Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma çox-çox salam. Vəli bəy[53] buraya gəlmişdir. Onunla daha görüşə bilmədim.

Hələlik bu qədər, əziz qardaşım.

Pəri xanıma[54], Sara xanıma[55], bütün Topçubaşovlara salam.

---

[53] Çox güman ki, Vəli bəy Yadigar (1897-1971) nəzərdə tutulur.

[54] Pəri xanım Topçubaşova (1873-1947) - H. Zərdabinin böyük qızı, Əli Mərdan bəy Topçubaşovun həyat yoldaşı.
Əli Mərdan bəylə birlikdə Fransada mühacirətdə olmuş və 1947-ci ildə orada dünyasını dəyişmişdir. Paris yaxınlığındakı Sen-Klu məzarlığında, həyat yoldaşı Əli Mərdan bəy Topçubaşovun yanında dəfn olunub.

Abbasqulunun[56] salamı var.

Məmməd Əmin

P.S. Bu məktubla bərabər sizə "Əsrimizin Səyavuşu"ndan[57] bir nüsxə göndərirəm.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 252-254. Məktubun əslinin faksimilesi.*

---

[55] Əli Mərdan bəy Topçubaşovun böyük qızı Sara xanım nəzərdə tutulur.

[56] Abbasqulu Kazımzadə nəzərdə tutulur.

[57] M.Ə. Rəsulzadənin 1920-ci ilin yayında Lahıcda bolşeviklərdən gizləndiyi zaman qələmə aldığı əsər. İlk dəfə 1923-cü ildə İstanbulda nəşr olunub. Esse janrında yazılan əsərdə Azərbaycan milli hərəkatının tarixindən bəhs olunur.

## № 10

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

6 mart 1924-cü il
İstanbul

Əzizim!

Çox təəssüf etdim ki, cənabınızın yazdığı "Dişindir topda" adlı məqalə gec gəldi. O mövzuda yazı artıq çap olunmuşdu. "Yeni Kafkasya"nın 11-ci sayında, bəlkə də görmüsünüz. Həm də "Deyli teleqraf"dan[58] alınan məlumat "Maten"də[59] daha müvafiq bir şəkildə verilmişdi. Fəqət bu talesiklik uzaqdan göndərilən əksər məqalələrindir, Sizin deyildir. Bammatovun[60] Sizə buradakı ümumi vəziyyət haqqında söylədikləri qismən doğrudur. Fəqət Sizin məşhur həmşəhərli[61] ilə müştərək gənc arxadaşımız[62] haqqında dediklərinin mahiyyətindən xəbərdar olmayınca, dəqiq bir şey söyləyə bilmərəm.

Əhməd bəy[63] haqqında Ankaraya səfər etmiş başqalarından da bir çox şeylər eşitmişdim. Məsələlərimizlə bizim istədiyimiz

---

[58] The Daily Telegraph - əsası 1855-ci ildə qoyulmuş, Böyük Britaniyanın ən populyar və çoxtirajlı qəzetlərindən biri.

[59] Le Matin - 1884-1944-cü illərdə Fransada nəşr olunan gündəlik qəzet.

[60] Heydər Bammat nəzərdə tutulur.

[61] C. Hacıbəyli kimi əslən şuşalı olan Əhməd bəy Ağaoğlu (1869-1939) nəzərdə tutulur.

[62] Çox güman ki, Şəfi bəy Rüstəmbəylidən söhbət gedir.

[63] Əhməd bəy Ağaoğlu (1869-1939) – Azərbaycan və Türkiyənin görkəmli ictimai-siyasi xadimi, fikir adamı, publisist, türkçülük ideologoyasının banilərindən biri. Sorbonna universitetinin məzunu olan Ə. Ağaoğlu Avropada ali təhsil almış ilk azərbaycanlılardan biridir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişafında misilsiz xidmətləri olan Ağaoğlu həmin illərdə baş qaldıran erməni ekspansionizminə qarşı mübarizənin ön cərgələrində olub. Çarizmin təqiblərindən xilas olmaq üçün 1909-cu ildə Türkiyəyə köçərək, qısa zaman ərzində bu ölkənin tanınmış ictimai-siyasi simalarından birinə çevrilib, millət vəkili seçilib. Mustafa Kamal Paşa Atatürkün rəhbərlik etdiyi Milli İstiqlal hərəkatını ürəkdən dəstəkləyən Ağaoğlu 20-ci illərdə yüksək dövlət vəzifələrində çalışıb, Türkiyə parlamentinin deputatı olub.

qədər sıx əlaqədar deyil. O birisi[64] haqqında ehtimal ki, qardaşının buraya gəlməsi münasibətilə bir tağım mübaliğələrdə bulunurlar. Yalnız onu söyləyə bilərəm ki, gənc dostunuzun indiki fəaliyyəti yalnız məişətlətini təmin etmək uğrunda mübarizə aparan və boğazına qədər incikliyə qərq olmuş əksər mühacirlərin fəaliyyətindən fərqlənmir.

Söylənən sözlər haqqında keçmişdən bəri ehtiyatlı olanlardanam. Ümumiyyətlə, İstanbuldakı ziyalılarımızdan səs-səda gəlməməsi xüsusi əlamət deyildir. Yəni təkcə İstanbula xas deyildir. Avropadakılar daha səssizdirlər. Bir çoxlarından yazılan məktublara belə cavab almaq mümkün deyildir, o cümlədən Mir Yaqub və Məmməddən. [65]

Çıxardığımız məcmuəyə azərilərdən ziyadə Şimal türkləri maraq göstərdilər. Parisdən əməkdaşlığa hazır olan bir adam tapıldı, ikincisi də sən oldun.

Əzizim, Qərbə doğru getdikcə sükut, Şərqə doğru getdikcə həyat görürəm. Allah bərəkət hüduddakılara[66], İrandakılara və sonra da içəridəkilərə[67]!

“Siyahi ləşgər nəayəd bekar,

Yeki mərdi-cəngi beh əz səd həzar”.

Tərcüməsi:

“Qoşunun çoxluğundansa, bir igid əsgər yüz mindən qiymətlidir”.

Hal-hazırdakı mübarizə şəraitində say deyil, işə yarayan insanlar dəyərlidir.

Daha təbiri-elmisi ilə, kəmiyyət deyil, keyfiyyət əhəmiyyətlidir**.** Düşdüyümüz bu sıxıntı istiqlal çarpışması ilə əlaqəlidir.

Əvvəlki məktubunuzda bir tağım intiriqalardan bəhs eləmiş, lakin təfsilata keçməmişdiniz.

Uf! İntiriqaya bizimkilər qoçaqdırlar. Lakin madam ki, ortada “pul” yoxdur, zənn etməm ki, bununla (intriqalarla –

---

[64] Ehtimal ki, Şəfi bəy Rüstəmbəyli nəzərdə tutulur.
[65] Məmməd Məhərrəmov nəzərdə tutulur.
[66] Türkiyədəkilər nəzərdə tutrulur.
[67] Azərbaycandakılar nəzərdə tutulur.

A.B.) da məşğul olsunlar. Burada dağıstanlılardan eşitdim ki, Berlində bir qəzet çıxacaqmışlar. Bu qəzetdə bizimkilərin də iştirakı olacaqmış? Doğrudurmu?

Əzizim, ailəmi gətirəcəyimi soruşursan. İlk imkanda görəcəyim işlərdən birisi də budur.

Quzum, Fransanın indiki vəziyyətindən məqalələr yazsan çox yaxşı olar. Yazarkən ölkənin siyasi həyatındakı qüvvələrin təhlilinə diqqət etməyin vacibdir. Baxalım, Fransa siyasətində əsas rol oynayan qüvvələr hansılardır. Və bu qüvvələrin təsiri ilə Fransanın ana siyasəti nə şəkil ala bilir. Bu kimi məqalələrin buradakı mübariz arxadaşlar və oxucularımız üçün çox faydası vardır və buna möhtacdırlar.

Bilməm xaricdə türk inqilabının yeni həmləsi necə təsir bağışladı.[68] Mənə şəxsən bu çox yaxşı təsir elədi. Bu əsl inqilabdır. Çox cəsuranədir. Şərq artıq zarafatdan, əski ənənələrdən qurtularaq, tam müasir bir həyat yaşamaq istəyir. Hamımıza mübarək olsun!

Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-salam.

Abbasqulu bəyin[69] salamı var. Arxadaşlara və vətəndaşlara salamım var.

Məmməd Əmin.

Ünvanım: Çarşıqapı, Qəndilli sokağ, №5.[70]

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 259-262. Məktubun əslinin faksimilesi.*

---

[68] Mustafa Kamal Paşa Atatürkün rəhbərliyi altında xarici hərbi müdaxiləçilərə qarşı Milli İstiqlal Savaşının (1919-1922) qələbəsindən sonra Türkiyədə həyata keçirilən köklü islahatlar nəzərdə tutulur.

[69] Abbasqulu Kazımzadə nəzərdə tutulur.

[70] “Yeni Kafkasya” məcmuəsinin redaksiyası bu ünvanda yerləşirdi.

## № 11
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

11 aprel 1924-cü il
İstanbul

Əzizim Ceyhun bəy!

"Yeni Kafkasya"nın son nüsxəsindən Azərbaycanda yeni həbslərin icra edildiyini görəcəksiniz. Ətraflı olmaq üçün yazmalıyam ki, dostumuz Əli Yusifi də həbs eləmişdilər. Zavallını çox döyürmüşlər ki, ondan sirləri alsınlar. Ümumiyyətlə, "ÇK" çox vəhşiliklər etməkdədir. Məqsədləri zorla qurultay çağırıb firqəni buraxmaqdır.[71] Bir çoxları var ki, firqəyə rəsmən bağlı olmadıqları halda işkəncəyə məruz qalır və firqədən istefa verdiklərini bəyan edirlər. Bu surətlə istefa etdirilənlər sonra ən qatı firqəçi olub çıxırlar. Bu barədə Avropa mətbuatında yazmağa səy ediniz.

Əli Mərdan bəy əfəndi də protesto[72] göndərsə müvafiq olar. Yalnız protestoda adlar çəkilməsə daha yaxşıdır. Şair Cavad[73] zavallını şeirlərindən dolayı həbs etmişlər və özünə də əzab verirlər.

Sənin son məqaləni aldım. Lakin bu həftə məmləkətdən (Azərbaycandan – A.B.) gələn yazıları araşdırmaqla məşğul olduğumdan hazır olan yazıları mətbəəyə verdim. Tərcümə və təshihə (redaktəyə) vaxtım qalmadı.

Bir də əzizim, zənn edirəm ki, Avropa siyasətindən yazılan məqalələrdə oxucuların gündəlik qəzetlərdən ala bilmədikləri materiallar təqdim edilərsə, daha faydalı olar.

Sən mənə "Yeni Kafkasya"nı Fransada intişar etdirmək

---

[71] Həmin dövrdə Azərbaycandakı oyuncaq rejim "ÇK" vasitəsilə müsavatçılara təzyiq göstərərək, onları partiya qurulatayı çağırmağa məcbur etmək istəyirdi. Həmin qurultayda müsavatçılar sovet rejimini tanıdıqlarını bəyan etməli və partiyanın buraxılması haqqında qərar qəbul etməli idilər.

[72] Etiraz notası nəzərdə tutulur.

[73] Əhməd Cavad (1892-1937) – görkəmli Azərbaycan şairi, milli himnin sözlərinin müəllifi.

(yaymaq) üçün vasitələr göstərəcəkdin. Onu gözləyirəm. “Yeni Kafkasya”ya bugünə qədər gürcülər bir az yardım edirdilər. İndi isə tamamilə müavinətsiz (yardımsız) qalmışdır. Böhran halı keçirməkdədir. Buna görə abunə qeydinə kömək etsəniz yaxşı olar. Hal-hazırda illik abunə haqqı 1,5 dollardır.

Hələlik bu qədər. Zöhrə xanıma salam. Uşaqların gözlərindən öpürəm.

Məmməd Əmin

Ünvanım: Çarşıqapı, Qəndilli sokağ, №5.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 255-256. Məktubun əslinin faksimilesi.*

## № 12

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

17 aprel 1924-cü il
İstanbul

Əziz qardaşım!

Bir neçə məktubunuza birdən cavab verirəm. Vaxtlı-vaxtında cavab vermədiyimi hesaba qoyma. Çox məşğulam. Keçən həftə xəstə idim. Anginaya tutulmuşdum. Sıradakı nömrəni xəstə ikən hazırladım. O qədər yalnızam ki, hətta xəstə olmağa özümdə səlahiyyət belə görmürəm. Mövcud olan arxadaşların nə türkcəsi, nə də vaxtlı-vaxtında qəzeti istənilən məqalələr ilə doldura biləcək qəzetçilik təcrübələri bu iş üçün kafi deyildir.

Sizin məqalələriniz haqqında:

İki məqalənizin məzmunu qəzetimizin informasion bölməsində çıxmışdı.

Birinci məqaləniz əsasında baş məqaləmiz yazıldığı üçün onun dərci təkrara səbəb olacaqdı. Üçüncüsünü dərc elədik. Təbii ki, türkcəsini bura şivəsinə uyğunlaşdırmaq lazım gəlir ki, bu da əlavə zəhmət tələb edir. Siz orada bir madam (xanım) tərəfindən Azərbaycan haqqında məqalə yazıldığını yazmışdınız. Mümkünsə, o məqalə dərc olunan məcmuəni bizə göndərin.

Bir də eşitdiyimə görə "İkselsur"[74] qəzetində Azərbaycandakı həbslərlə bağlı bir xəbər varmiş. Doğrusa, ondan da bir nüsxəsini göndərin.

Fransa qəzetlərini maraqlandıracaq bir hadisə daha baş verməmişdir. Bolşeviklər məhbusların ətindən kabab etməmişlər. [75] Yalnız sulu və rütubətli zirzəmilərə salıb, gündə bir

---

[74] 1910-1940-cı illərdə Fransada nəşr olunan "Excelsior" qəzeti nəzərdə tutulur.

[75] Müəllif kinayə ilə Avropa siyasiləri və mətbuatının bolşevik əsarətində olan məhkum millətlərin vəziyyətinə biganəliyinə işarə edir.

neçə dəfə döyürmüşlər. Əgər Fransa həssasiyyəti üçün maraqlıdırsa məhbuslar aclığı on gün davam etdirmişlər. On gündə iyirmi məhbus qətiyyən yemək qəbul etməmişdir.

Nəhayət, "ÇK" onlarla insani şəkildə rəftar olunacağına dair söz vermişdir. Məhbuslardan cüzi bir hissəsi azad edilmiş, digər hissəsi isə sürgün olunacaqdır.

Zavallı Əli Yusif indi işkəncədə imiş.

Dostun Balabəy Qocayev [76] İstanbula gəlmişdir. Çox mümkün ki, Parisə gedəcək. Həyat yoldaşı Mirzənin (Əsədullayev – A.B.) qızı ilə bərabərdir. Əlbəttə, onunla görüşərsiniz. Mənimlə daha görüşməmişdir. Çox ehtiyatlıdır.

Murad Vəzirovu[77] da mən çoxdan görmürəm.

Mirzə ilə görüşürkən mühacirlərimizin əksərinə iş verəcəyini vəd eləmişdir. Onların işi, zənnimcə, maya tutmaq üzrədir.

Parisə gəlmədən əvvəl Balabəyə məktub yazmaq istəsən mənə göndər. Mən ona çatdıraram.

Qəzetimizin böhran halı davam edir. Bərəkət versin ki, mətbəədə bir az etibarımız vardır. Bir neçə nüsxə daha davam etdirə bilərik. O vaxta qədər inşaallah yardım gələr.

Oradakı vətəndaşların ünvanlarını bilsəydik, Sizin təklifinizi tətbiq edərdik. Bəlkə bizə ünvanları göndərəsiniz.

Hələlik bu qədər. Uğurlar arzulayıram. Zöhrə xanıma ərzi-salamım vardır. Uşaqların gözlərindən öpürəm.

Əvvəlcə söylədiyim səbəblərə görə Əli Mərdan bəyə məktub yazmadım.

Öz salam və hörmətlərimi təqdim edirəm.

---

[76] Mirzə Əsədullayevin kürəkəni, sonradan Avropanın tanınmış yazıçılarından biri omuş Ümmülbanu Əsədullayevanın (Baninin) həyat yoldaşı. Balabəy Qocayev aprel işğalından sonra bolşeviklər tərəfindən həbs edilmiş Mirzə Əsədullayevin azad olunmasında xüsusi rol oynayıb, bunun qarşılığında isə Ümmülbanu onunla ailə qurmağa razılıq verib. Lakin Türkiyəyə köçdükdən az sonra həyat yoldaşına zərrə qədər də olsa sevgi hissi duymayan Ümmülbanu ondan boşanıb və Fransaya gedib.

[77] Murad Vəzirov - Mirzə Əsədullayevin ikinci qızı Sürəyyanın həyat yoldaşı.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 267-269. Məktubun əslinin faksimilesi.*

## № 13
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

22 iyul 1924-cü il
İstanbul

Əzizim Ceyhun!

Çoxdandır Sizə məktub yazmadım. Qüsuruma baxmayacağınızı ümid edirəm. Əkbər ağa[78] vasitəsilə göndərdiyiniz bir miqdar dolları aldım. Hər kəs Sizin qədər vəzifəşünas olsaydı bəlkə də "Yeni Kafkasya" bu qədər şiddətli böhran keçirməzdi. Fəqət arxadaşım, mən Sizə qarşı bir az qüsurluyam. Fəqət bilməlisiniz ki, imkan çox məhduddur. Sizin buraya gəlmək fikirində olduğunuzu və bir iş aradığınızı da bilirəm. Fəqət nə çarə ki, buradakı arxadaşlar belə iş bulmaqdan acizdirlər. Mirzənin işi də hələ ki, baş tutmamışdır. Sonra Murad bəy Vəzirovla[79] görüşməyi məktubların birində yazmışdınız. Fəqət mən burada ikən onunla heç görüşməmiş kimiyəm. Siz ara-sıra məktub yazın. Mənim müntəzəm cavab yazmadığıma məna verməyin. Mühüm gördüyünüz məsələ və hadisələri "Yeni Kafkasya"ya yetirməyi bizdən əsirgəməyin. Göndərdiyiniz məqalələrdən bir qisminin dərc olunmaması Sizi pərişan etdi, etməsin!

Fransızca qəzet və ya məcmuələrdə Azərbaycana aid bir şey olarsa bizə göndərin. Avropa mətbuatında Azərbaycana aid yazıların dərc olunması daxildəkilərə[80] xüsusilə yaxşı təsir edir.

Məmləkətdən gələn xəbərləri "Yeni Kafkasya"da oxuyursunuz. Son günlərdə on bir dəyərli gənci bir çox işkəncələrdən sonra Rusiyaya sürgün ediblər. Onların arasında Əli Yusif[81] də

---

[78] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.

[79] Mirzə Əsədullayevin ikinci qızı Sürəyyanın həyat yoldaşı.

[80] Azərbaycandakılar nəzərdə tutulur.

[81] Əli Yusif, Yusifzadə Ağəli Cəlal oğlu (1900-1926) – şair, Cümhuriyyət dövrü Azərbaycan poeziyasının ən istedadlı nümayəndələrindən biri. 1920-ci ilin yanvarında AXC hökuməti tərəfindən təhsil almaq üçün Parisə göndərilib. 1923-cü ildə Parisdə Siyasi Elmlər İnstitutunu əla qiymətlərlə

vardır.

Bolşeviklərin öz aralarında millətçilər [82] peyda olmuşlar. Onlara qarşı da şiddətli tədbirlər görülür. Təfsilatını görəcəksiniz. Bizi də burada rahat qoymaq istəmirlər. Bolşevik mətbuatı daima "Yeni Kafkasya" ilə münaqişə edir. İstər redaksiya heyətinə, istərsə də mənə qarşı bir çox nəşriyyat və fəsadlarda bulunurlar. Hətta "Əkinçi" qəzetinin[83] əlavəsi olaraq "O, kimdir?" ünvanı ilə bir mənzumə belə nəşr eləmişlər. Onlar öz aləmlərində bizi "diskrite" etmək (nüfuzdan salmaq – A.B.) istəyirlər. Halbuki bizi reklam etdiklərinin fərqində deyillər. Bakı qəzetləri bizim İstanbuldan uzaqlaşdırılmağımızı tələb edir.

Milli bolşeviklərdən biri deyirmiş ki, bu nəşriyyat olmasaydı, Moskva milliləşdirmə məsələsini bəlkə də heç müzakirə mövzusu etməyəcəkdi.

Berlindəki gənclərimiz məsələ ilə və məcmuə ilə çox əlaqədar olurlar. Halbuki Paris yatır. Nə səs var, nə səda. Sizdən rica edirəm, oradakı tələbələrimizin və digər vətəndaşlarımızın ünvanlarını mənə göndərin. Mən Sizin təklifinizlə onlara məcmuə göndərim.

Bakıdan gələn vardı. Sizinkilər salamatdırlar. Qasım

---

bitirib vətənə döndükdən sonra rus işğal rejiminə qarşı müqavimət hərəkatının fəal iştirakçılarından biri olaraq 1924-cü ildə Sibirə sürgün edilib və orada qətlə yetirlib.

[82] 1924-cü ildə Azərbaycan bolşevikləri arasında geniş yayılmış "milli təmayülçülər" (nasional-uklonist) cərəyanı nəzərdə tutulur. Ən tanınmış nümayəndələri Ə. Xanbudaqov, M. Qasımov, H. Cəbiyev və b. olan "milli təmayülçülər" milli kadrların hazırlanmasına xüsusi diqqət yetirilməsini və onların partiya-dövlət aparatında daha geniş təmsil olunmasını, eləcə də milli dilin və mədəniyyətin inkişafına dövlət qayğısının artırılmasını, beynəlmiləlçilik pərdəsi altında aparılan ruslaşdırma siyasətinin dayandırılmasını və s. tələb edirdilər.

[83] 1923-cü ilin iyul ayından Bakıda nəşr olunan «Kəndçi qəzetəsi" nəzərdə tutulur.

Qasımov[84] oradadırmı?

Mir Yaqub necədir? Başqaları nə haldadır? Uşaqlar nə edirlər? Cicik[85] böyümüş, o birinə "Bəbi" demək caizmidir?

Gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-ehtiram edirəm.

Hələlik ərzi-salam. Məktubunuzu gözləyirəm.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 257-258. Məktubun əslinin faksimilesi.*

---

[84] Azərbaycanlı mühacirlərdən Qasımov Qasım Hacı Mahmud oğlu (1889-1956) nəzərdə tutulur.

[85] Djeyçik (Ceyhun) Hacıbəyli (1919-1940) – Ceyhun bəy Hacıbəylinin öz adını daşıyan oğlu. Təyyarəçi olan Djeyçik II dünya müharibəsində həlak olub.

## № 14

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

14 avqust 1924-cü il
İstanbul

Əzizim Ceyhun!

5 avqust tarixli məktubunuzu aldım. "Yeni Kafkasya" üçün bir gəlir mənbəyi tapmaq təşəbbüsündə olduğunuzu öyrəndim. Siması bağlı olan bu mənbənin nə kimi bir mənbə olduğu, əlbəttə, mənə qaranlıq qaldı. Bu mənbə sırf "Yeni Kafkasya"yamı məxsus təsəvvür olunur, yoxsa ümumiyyətlə "bir gəlir mənbəyin"dən bəhs olunur? Burası məni maraqlandırdı.

Nota və müzakirələrlə məşğul olduğunuzu Əli Mərdan bəyin buradakı arxadaşlarından birisinə yazdığı məktubdan da öyrənmişdim. Fəqət nota və müştərək təşəbbüslər haqqında daha dəqiq və aydın məlumat almaq istərdik. Notanı kimə verirsiniz? Müştərək təşəbbüs nə mövzudur? Ermənilərlə nə kimi müştərək çalışmalar edilir? Yeni bir məsələ qurulmamışmı?

"Qardaşlar"ımızın [86] son zamanlar Qafqaz məsələləri ilə daha ziyadə (çox) əlaqədar olduqları görülür. Bunun sübutu olaraq nəşriyyatımıza çox simpati göstərirlər. Bu simpatilərini yarımrəsmi surətdə belə hiss etdirirlər. Bəlkə daha çox qəti əlaqə görünməsi də yaxın zamanlarda mümkün olar. Fəqət bu əlaqənin maddi və xüsusilə maliyyə yardımlarıyla nəticələcəyini ağlıma sıxışdırmıram.

Burada ingilislərin Qafqaz haqqında bir tağım təsəvvürlər və təşəbbüslər bəslədiyi haqqında rəvayətlər davam edir. Ruslar Qafqazı ingilislərə verəcəklərmiş, özü də alacaqları borcun rəhni (girovu) olaraq verəcəklərmiş. [87] Bu xüsusda gürcülər

---

[86] Türkiyə rəsmiləri nəzərdə tutulur.

[87] 20-ci illərdə bolşeviklər iqtisadiyyatı bərpa etmək üçün ciddi maliiyə problemləri ilə üzləşmişdilər. Xarici kapitalı ölkəyə cəlb etmək məqsədilə sovet hökuməti təbii sərvətlərin çıxarılması ilə məşğul olan ayrı-ayrı müəssisələri xarici şirkətlərə konsessiyaya verməyə cəhd edirdi. 1924-cü il aprelin 14-dən avqustun 12-dək Londonda keçirilən ingilis-sovet

alış-veriş edirmişlər. İngilislərə Qafqazda yalnız "biz varıq" deyirmişlər. Bu hadisələrin şübhəsiz araşdırmaya ehtiyacı vardır. Nə dərəcədə doğrudur, nədən əmələ gəlmişdir?

İngilis və ya Fransa məclislərindəki (siyasi dairələrindəki – A.B.) "Qafqaz təsəvvürləri" haqqında düzgün məlumat əldə edə bildinizmi?

Əvvəla bilmək imkanınız varmıdır? Məmləkət ilə (Azərbaycan – A.B.) münasibətlərimiz çox müntəzəm olmasa da, daimidir. Hər on beş gündə bir məktub, ayda – iki ayda bir xüsusi posta (poçt) və qəzetləri daima alıram. Məhbusların bir hissəsi Sibirə sürgün olunmuşdur.[88] Bilirsiniz, türkçü kommunistlərə də şiddətli surətdə təqiblər vardır.[89] Kommunist qəzetləri bizimlə münaqişə edən məqalələrlə doludur.

M.Davud[90] bütün Qafqaz qəzetlərində "Müsavat" ilə menşeviklərin xəyanətini "isbat"layır, bu xüsusda "sənəd"lər nəşr etdirir. Bolşeviklər bizim xəyanətimizi isbat edir, buna qarşı bircə sənəd də nəşr etməzlər, deyir. Öz nəşr etdiklərinə isə, bax budur sənədlər deyirlər. Fəqət nəşr elədikləri "sənəd"lər gülünc şeylərdir.

Əksinə, xalq arasında bizim üçün ən yaxşı propaqandanı özləri icra etmiş olurlar.

---

konfransında da Qafqazın bir sıra dağ-mədən sənayesi müəssisələrinin, o cümlədən Bakı neft mədənlərinin ingilis şirkətlərinə konsessiyaya verilməsi məsələsi müzakirə olunmuşdu. Lakin bu müzakirələr nəticəsiz qalmışdı. Çox güman ki, M.Ə. Rəsulzadə məktubunda həmin müzakirələrə işarə edir.

[88] Bakıda gizli fəaliyyət göstərən və həmin ərəfədə "ÇK" tərəfindən həbs olunun müsavatçılardan söhbət gedir.

[89] Azərbaycan bolşevikləri arasındakı "milli təmayülçülər" qrupu nəzərdə tutulur. Həmin dövrdə partiya-dövlət aparatının milliləşdirilməsini, Azərbaycan dilinə dövlət qayğısının artırılmasını tələb edən "milli təmayülçülər"
əleyhinə kampaniya geniş vüsət almışdı.

[90] Mirzə Davud Hüseynov (1894-1938) – 1920-ci ilin aprelində Azərbaycanın ruslar tərəfindən işğalında xüsusi rol oynamış yerli kommunistlərin nümayəndəsi. Bu "xidmətinin" "mükafatı" olaraq 1920-30-cu illərdə Azərbaycan, Tacikistan və Moskvada yüksək vəzifələrə layiq görülüb.

Bolşevik qəzetləri Jordaniyanın[91] da bir məktubunu nəşr eləmişdilər. Həmin məktubda Jordaniya gürcüləri bütün Qafqazda üsyana qalxmağa dəvət edirmiş və bu dəvətində üsyanın əvvəlcə Azərbaycan və Dağıstandan başlanması lüzumunu açıq söyləyirmiş. Fəqət azərbaycanlıları vaxtı ilə dönüklük etməkdə də töhmətləndirirmiş.

Gürcülərin söyləməsinə görə, həqiqətən də belə bir məktub yazılıbmış. Fəqət bolşeviklər həmin məktubları "insaf"larına (özlərinə sərf edən formada – A.B.) uyğun şəkildə dəyişib nəşr eləmişlər.

Göndərdiyin ünvanlar haqqında düşünürəm. Bəlkə hər birinə nümunə üçün bir nüsxə göndərdim. Xüsusilə iranlılara qəzetimizi "navyazat" (zorla məcbur etmiş –A.B.) eləmiş kimi görünmək istəmirəm.

Sən mənə yazdığın ünvanlar içərisində Vəzirov Miryusifin[92] ünvanını göndərməmisən. Mümkünsə onu mənə yaz. Çünki ona yazılası şeylər vardır.

Bizim arxadaşlardan bir neçəsi hal-hazırda burada işsiz bir vəziyyətdədirlər. İş axtarırlar. Lakin tapa bilmirlər. Burada iş tapmaq qədər çətin bir şey yoxdur. Siz dil biımənizə görə bəlkə də bir iş taparsınız. Bacarsan, buradakı Fransa müəssisələrində

---

[91] Jordaniya Noy (1868-1953) – gürcü sosial-demokratlarının lideri, 1918-1921-ci illərdə Gürcüstanın baş naziri. 1921-ci ilin martında Gürcüstanın ruslar tərəfindən işğalından sonra Fransaya mühacirət edib. Gürcü siyasi mühacirətinin lideri və 1939-cu ilədək Gürcüstan sosial-demokratik partiyasının Xarici Bürosunun rəhbəri olub.

[92] Yusif Vəzir Çəmənzəminli, Vəzirov Yusif Mustafa oğlu (1887-1943) – yazıçı, ictimai-siyasi xadim, "Müsavat" partiyasının üzvü. Azərbaycan Xalq Cümhuriyyətinin Kiyevdə səfiri olub (1919). Daha sonra vətənə qayıdaraq milli dövlət quruculuğunda fəal iştirak edib. 1919-cu ilin sonunda Azərbaycanın Türkiyədəki səfiri təyin edilib və 1920-ci ilin sonuna kimi bu vəzifəni icra edib. Sonradan Parisdə ali təhsil alan qardaşının yanına gedib. Qardaşının vaxtsız ölümündən sonra 1926-cı ildə Vətənə dönən Y.V. Çəmənzəminli daim basqılar altına yaşayıb və 30-cu illərin axırlarında pepressiyalardan qurtulmaq üçün Özbəkistana köçüb. Lakin bu onu xilas etməyib və 1940-cı ildə Özbəkistanda həbs edilərək Bakıya gətilib. Burada məhkəmənin qərarı ilə Rusiyaya sürgün edilib və orada da vəfat edib.

çalışmaq üçün oracada (Parisdə - A.B.) bir şey doğrult, sonra gəl.

Burada musiqi aləmində bir iş tapmaq mümkün olub-olmayacağı da dözməklə əlaqəlidir. Hər halda bura bizim üçün ikinci vətən olduğu, yaxud olması doğrudur. Fəqət Şərq ölkələri füqərası öz övladlarına vətənlik vəzifəsini gözəl ifa edəmirlər. Əsl faciəmiz də bundadır.

Tələbələrimizi belə ümidsiz bir halda təsvir etdiyinizə çox məyus oldum.

Berlindəkilər belə deyildilər. Onlarla sıx rabitə və yazışmalarım vardır. İçərilərində çox fədakar və çalışqanları vardır. Bunu onların özlərindən deyil, türk çalışqanlarından eşitdiyimə görə fəxr edirəm.

Bilməm nədənsə, ümumiyyətlə, parislilər məyusdurlar. Tələbələr haqqındakı fikirini digər bir parisli arxadaş da yazmışdı. Bununla belə, onlardan qarabağlı bir doktor (həkim) vardı. Adı yadımdan çıxıb. Onun adını və ünvanını tapıb göndərsən məmnun olaram.

İstədiyin nömrələrdən[93] sənə üç nüsxə göndərirəm. Bundan sonra da hər nömrədən üç nüsxə göndərəcəyik. Beş nüsxə də Əli Mərdan bəyə göndəririk. Daha çox lazımsa, yazın, göndərim.

İstanbulda son günlər bahalıq hiss olunur. Çörək qıtlığı vardır. Neçə gündür ki, çörəyin növü və keyfiyyəti də korlanmışdır.

Deyirlər ki, Ağabala Quliyev[94] şəhəri çörəklə təmin etməyi öhdəsinə götürmüşdür.

---

[93] "Yeni Kafkasya" məcmuəsinin nömrələri nəzərdə tutulur.

[94] Ağabala Hacıqulu oğlu Quliyev (1865 - ?) - dəyirmanlar kralı kimi tanınan azərbaycanınlı milyomçu və mesenat. 1905-ci ildə təşkil olunmuş Müsəlman Xeyriyyə cəmiyyətinin ilk müəssislərindən biri olub. Lakin 1905-ci il rus inqilabının gedişində onun görüşlərində kəskin və izah-olunmaz dəyişiklik baş verib. Həmin dövrdə o, rus qaragüruhçularına qoşulub. 1918-ci ildə Azərbaycanın müstəqilliyi elan edildikdən sonra da o, bu görüşlərindən əl çəkməyib və həmin ilin noyabrında "vahid və bölünməz

Həmçinin söz gəzir ki, Həsən Mustafayev[95] Ankaradan "neft razvedkası" üçün imtiyaz almışdır. Dostumuz Əhməd bəy[96] bu kimi imtiyazçılara xidmət üçün canla-başla hazır ikən, "siyasi" məsələlərə çox da meylli deyildir. Sırası gəlmədiyi (zamanı yetişmədiyi – A.B.) qənaətindədir. Bu söz aramızda qalsın.

Zöhrə xanıma ərzi-salam. Uşaqların gözlərindən öpürəm. Əllərini sıxıram.

Məmməd Əmin.

Ünvanım: Çarşıqapı, Qəndilli sokağ, №5.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 283-286. Məktubun əslinin faksimilesi.*

---

Rusiya" şüarı altında çıxış edən rus şovinistlərini dəstəkləyib. Xalq Cümhuriyyətinə düşmən münasibətinə görə saxlanılaraq, bir neçə ay həbsxanada qalıb. 1920-ci ilin martında A. Quliyev İrana gedib və aprel işğalından sonra ailəsini də yanına aparıb. Ailəsi ilə birlikdə Türkiyəyə getsə də, bir müddət sonra yenidən Təbrizə qayıdıb və burada da vəfat edib.

[95] Həsən Mustafayev – XX əsrin əvvəlində Azərbaycanın tanınmış neft sənayeçilərindən biri. Aprel işğalından (1920) sonra neft sahibkarlarının əksəriyyəti kimi vətəni tərk etməli olub.

[96] Həmin dövrdə Türkiyədə yüksək dövlət vəzifəsində çalışan və Böyük Millət Məclisinin (parlamentin) deputatı olan Əhməd bəy Ağaoğlu nəzərdə tutulur.

## № 15

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

9 noyabr 1924-cü il
İstanbul

Əzizim Ceyhun bəy!

Məktubunuza vaxtında cavab verə bilmədim. Əlbəttə qüsura baxmazsınız. Məşğuliyyətim çoxdur. Bu məşğuliyyət üzərinə bir də müalicə üçün icra elədiyim və təəssüflər olsun ki, sona qədər davam etdirmədiyim səyahətim gəldi. Prusiyaya getmişdim. Məktubunuzda digərlərinin Ankarada qəbulları haqqında bir fikir vardır.[97] Fəqət Ankarada qəbul olunmuş digərlərindən xəbərim yoxdur. Əgər məqsəd doktorun[98] dəfələrlə icra edilmiş səyahətisə, bunun heç bir əhəmiyyəti yoxdur. Və elə səyahəti hər kəs hər gün icra edə bilər. Və nəticədə onun kimi kamali-müvəffəqiyyətlə geri dönə bilər. Ankarada başqa qəbul olunanlardan xəbərim yoxdur. Fəqət məsələ tamamilə Sizin yenə çıxarmaq haqqınız olduğu nəticə şəkilində də deyildir. Bununla belə, Türkiyənin bizim məsələlərlə indiki halda aktiv bir surətdə məşğul olacağını düşünmək lazım olduğundan artığına ümid bəsləmək demək olardı. Dostumuz Əhməd bəy Ağayevin

---

[97] Burada 1924-cü ilin oktyabrında Ankarada Polşa və Türkiyə nümayəndələrinin Qafqazdan olan siyasi mühacirlərlə apardıqları danışıqlardan söhbət gedir. Bunlardan məqsəd Qafqaz siyasi müharicətinin vahid koordinasiya mərkəzini yaratmaq olub. İlkin mərhələdə Polşa və Türkiyə rəsmiləri Qafqaz siyasi mühacirətinin sağ qanadının nümayəndələrilə əməkdaşlıq etməyə üstünlük veriblər. Bu səbəbdən də, Azərbaycan mühacirlərini həmin danışıqlarda türk rəsmi dairələrilə sıx əlaqələri olan Xosrov bəy Sultanov təmsil edib. Müzakirələr Qafqaz Konfederatlarının Birləşmiş Komitəsinin yaradılması ilə yekunlaşsa da, bu qurum özünü doğrultmayıb və onun fəaliyyəti Qafqaz, o cümlədən Azərbaycan siyasi mühacirəti daxilində ziddiyyətlərin daha da kəskinləşməsinə gətirib çıxarıb. Şəxsi ambisiyaları aşıb-daşan X. Sultanovun bu ziddiyyətlərin dərinləşməsində xüsusi rolu olub. Bunu görə də, Polşa nümayəndələri tədricən onunla əlaqələri kəsərək, siyasi mühacirətin M.Ə. Rəsulzadənin rəhbərlik etdiyi qanadı ilə əməkdaşlığa üstünlük veriblər.

[98] Xosrov bəy Sultanov nəzərdə tutulur.

“Hakimiyyəti-milliyyə”də [99] yazdığı son məqalələrdə sıx-sıx qeyd etdikləri baş verərsə təbii ki, işimiz irəliləyər. Bununla belə söyləməliyəm ki, son zamanlar əlaqə başqa olmuşdur. “Türk ocaqları” [100] “Yeni Kafkasya”nı öz şöbələri üçün abunə etmişlər (Belə şöbələr Türkiyədə 130-a qədərdir).

Qafqaz üsyanı [101] gürcülərin təfsilatı anlaşmayan tələsgəniyi üzündən nəticəsiz qaldı. Hərəkatın böyük şəhərlərə keçməsini bolşeviklər bir provakasion (təxribat) sayəsində dəf edə bildilər.

Məsələn, məndə olan Bakı qəzetinin 30 avqust (1924-cü il – A.B.) tarixli sayında Tiflis kommunist təşkilatlarının menşeviklər tərəfindən icra olunacaq üsyan haqqında çıxardıqları qərarnamələrdən bəhs olunur. Demək, hadisədən artıq bir həftə əvvəl bolşeviklər üsyanın olacağını bilirdilər. O halda necə olur ki, üsyan yenə baş verir və yatırılır? Burası çox təəccüblüdür.

Üsyan Azərbaycana qətiyyən sirayət etməmişdir. Dağıstanda da hadisələr baş verməmişdir. Gürcülərin özləri üçün də bu hadisələr gözlənilməz imiş.

---

[99] Hakimiyyeti Milliye – Mustafa Kamal Paşanın başçılıq etdiyi Qurtuluş Savaşının başlanğıcında, 1920-ci ilin yanvarında Ankarada əsası qoyulmuş qəzet. Faktiki olaraq milli mücadilə hərəkatının rəsmi mətbuat orqanı funksiyasını yerinə yetirib. 1921-ci ildə Malta sürgünündən qayıtdıqdan sonra Əhməd bəy Ağaoğlu bu qəzetlə sıx əməkdaşlıq edib. 1934-cü ildə qəzet “Ulus” adlandırılıb.

[100] Türk Ocaqları – türkçülük ideologiyasının təbliği və yayılması məqsədilə yaradılmış cəmiyyət. “Türk Dərnəyi” (1908) və “Türk Yurdu” cəmiyyətlərinin (1911) davamı olaraq meydana gələn cəmiyyət rəsmi olaraq 1912-ci ilin martında fəaliyyətə başlayıb. Əhməd bəy Ağaoğlu onun təsisçilərindən biri olub. Türk Ocaqları 20-ci illərdə müasir Türkiyə dövlətinin təşəkkülündə fəal iştirak ediblər.

[101] Gürcüstanda 1924-cü ilin avqust-sentyabr aylarında baş vermiş və Qafqazda rus işğalına qarşı çevrilmiş ən böyük üsyan nəzərdə tutulur. Gürcülərin gözləntilərinə rəğmən, nə Azərbaycan, nə də Dağıstan bu üsyana dəstək vermədi. Digər tərəfdən, ruslar üsyanın hazırlanması barədə qabaqcadan məlumatlı olduqlarından qabaqlayıcı tədbirlər gördülər və onun Gürsüstandakı miqyasını da maksimum dərəcədə lokallaşdıra bildilər.

Bununla belə, Qazaxda, Zaqatalada, Borçalıda, Lənkəranda bəzi üsyançı hərəkətlər baş vermişdir. Bu hərəkətləri edənlər əskidən qalan üsyançılardır. Dağlarda fəaliyyət göstərirlərmiş. Bakıda yanğın zühuru doğrudur. Həbs olunanlar var.

"Yeni Kafkasya" yeni sənəsinə girdi. İlk nömrəsini yəqin ki, almışsınız. Parisdən başqa hər kəs məcmuənin yeni buraxılışları ilə əlaqədar oldu. Bu baxımdan Berlin çox fəal və irəlidir, orada bir gənclər təbəqəsi vardır. Yaxşı çalışırlar. Nədən bu Parisdə olamayır? Bilmirəm.

Keçmişdə tələbələrimizdən Siz şikayət edirdiniz. Qasım[102] da şikayət edirdi. Əcəba, bu hadisələr onlara təsir edirmi?

Əzizim, bu qədər hadisələr oldu. Millətlər Liqası, ingilis deputatları, sosialist qurultayları tərəfindən Qafqaz müzakirələri keçirildi. Fransada yaxşı münaqişələr oldu. Bunlara aid "Yeni Qafqasya"ya xülasələr və xəbərlər göndərə bilərsinizmi? Əmin olunuz ki, bu kimi xəbərlər qətiyyən köhnəlməz və məcmuədə yer tapardı. Bəzi məqalələrin məlum səbəblərə görə dərc olunmaması Sizin istəyinizi qırmamalıdır. Ehtimal ki, bugünlərdə çox məşğul olduğundan bunları araşdırmadınız. Hər halda əgər şəxsən bu xülasələri yerinə yetirmək imkanında deyilsinizsə, heç olmasa bu barədə materialları xam halda, yəni qəzet və məcmuələrin kəsiklərini göndərmək surətilə bizə yardımınızı əsirgəməyiniz.

Bilirsiniz ki, məcmuəmiz iddiamıza dəstək olan yeganə müəssisəmiz və ideyalarımızı yaymaq üçün yeganə vasitəmizdir. Əlimərdan bəy də dərc olunmayan bir-iki məqaləsinə görə bizdən küsmüşdür.

Məcmuə haqqında xüsusi olaraq bir gəlir mənbəyi axtarmalı idiniz. O fikiriniz nə oldu?

Necəsiniz, uşaqlar nə haldadır? Zöhrə xanımın əhvalı necədir? Hamısına məndən salam. Daha çox şeylər yazacaqdım.

[102] Azərbaycanlı mühacirlərdən Qasımov Qasım Hacı Mahmud oğlu (1889-1956) nəzərdə tutulur.

Tələsik bir yana getmək lazım gəldi. Hələlik bununla kifayətlənirəm.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 270-271. Məktubun əslinin faksimilesi.*

## № 16

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[103]

24 noyabr 1924-cü il
İstanbul

Əzizim Ceyhun bəy!

Son məktubunuzu aldım. Sonuncu hadisələr ilə çox məşğul olduğunuzu, dörd [104], üç [105] və ikilərlə [106] iclaslar keçirdiyinizi yazırsınız. Təəssüflər olsun ki, ölkədən (Azərbaycandan – A.B.) qəti bir məlumat olmadığından hərəkətinizdə tərəddüd etdiyinizi bildirirsiniz.

Quzum, biz burada məmləkətdə (Azərbaycanda – A.B.) bir hərəkət olacagını gözləmirik. Çünki belə bir hərəkətin uğursuz olacağını əvvəlcədən gördüyümüzdən, onu mümkün hesab etməmişdik. Zənn edirəm ki, sizin də orada bir hərəkət gözləyəcək tərzdə direktivləriniz və ya tövsiyələriniz olmamışdır. O halda nəzərdə tutulası iş görəcəyiniz şəkildən başqası ola bilməzdi. Şükürlər olsun ki, Azərbaycanda hadisələr olmadığından lazımsız qurbanlar da verilməmişdir. Məncə, Qafqaz hərəkəti heç bir zaman səmərəli olmayacaq. Rusiyadakı yeni ixtilalları (üsyanları) və ya dünyada baş verəcək daha mühüm hadisələri gözləmək məcburiyyətindəyik.

Siz məktublarınızı sıx-sıx göndərdiyiniz kimi, mən də sıx-

---

[103] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[104] 1921-ci ildə Parisdə dörd Qafqaz respublikası – Azərbaycan, Gürcüstan, Şimali Qafqaz və Ermənistanın diplomatik missiyalarının nümayəndələrindən yaradılmış Dördlər Şurası nəzərdə tutulur.

[105] Ermənistan nümayəndələri bir çox məsələlərdə xüsusi mövqe tutaraq, faktiki Dördlər Şurasının fəaliyyətini iflic etdiklərindən Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mühacirlərinin liderləri daha yığcam format – Üçlər Şurasını yaratmalı olmuşdular. Bu qurumun yaradılmasından məqsəd Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin xarici siyasət fəaliyyətini koordinasiya etmək idi.

[106] Azərbaycan və Gürcüstan mühacir liderlərinin müzakirələr apardıqları ikili format nəzərdə tutulur.

sıx yazmayıram. Çünki ümumi yazılardan başqa, bir də "Yeni Kafkasya"nı çıxarmaq lazımdır. Oradakıların da, buradakıların da yazı baxımından çox az yardımları olur.

Əzizim, dörd məlum, üç də məlum. İki nədir? Bunu izah edərmisiz?

Daha sonra, son zamanda Əli Mərdan bəyə üç məktub yazdım. Heç birinə cavab almadım. Halbuki çox mühüm idilər və cavablarını almalı idim. Cavabın bu qədər gecikməsi məni əndişəyə salır.

Əzizim, gürcülərin məcmuəyə [107] maddi yardımları toxunmayır. Burada maddi yardım etdikləri zaman ehtimal ki, xeyri də yox idi. Buradakılar elə söyləyirlər.

"Yeni Kafkasya"nın ikinci sənəyə daxil olmasını təbrik etdiyinizə görə təşəkkür edirəm. Onu heç olmazsa həftədə 2-3 dəfə də çıxarmaq üçün sərmayə (vəsait) tapmaq təşəbbüsünüz bir nəticə versəydi, İstanbula gələrdiniz, bərabər çalışardıq. Fəqət üzü qara olsun imkanın!

Ailəmi buraya gətirtmək istəyirdim. Bir-iki dəfə təşəbbüs eləmişlər. Fəqət hələlik buna müvəffəq olamamışlar. Zavallılar orada çox darıxırlar. Mən də burada narahatam. Sizin uşaqların narahat olduqlarına çox acıdım. Yəqin ki, indi keçmişdir. Gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-ehtiram edirəm.

Gürcüstan üsyanından [108] sonra Qafqazda şiddətli təziqlər vardır. Bununla belə Bakı ilə təması (əlaqəni) yenə bərpa edə bildik. Son dərəcə ehtiyatla olsa da, fəaliyyət davam edir. Bir çox həbslər baş vermişdir. Əvvəlcə həbs olunanları Arxangelska göndərmişdilər. Onlarla əlaqə yaratmaq üçün təşəbbüs elədim.

İsmət paşa [109] kabinəsi süqut elədi. Yerinə Fəthi bəy [110]

---

[107] "Yeni Kafkasya" nəzərdə tutulur.

[108] Gürcüstanda 1924-cü ilin avqust-sentyabr aylarında rus işğalçılarına qarşı yönəlmiş üsyan nəzərdə tutulur.

[109] 1924-cü il noyabrın 20-də istefa vermiş İsmet İnönünün (1884-1973) başçılıq etdiyi Türkiyənin hökumət kabineti nəzərdə tutulur.

gəldi. Fəthi bəyin bizim məsələdə daha fəal olacağı çox da məlum deyildir.

Hələlik bu qədər. Ərzi-salam.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 265-266. Məktubun əslinin faksimilesi.*

---

[110] Ali Fethi Okyar (1880-1943) – Türkiyə Cümhuriyyətinin qurucularından biri, Atatürkün yaxın silahdaşı. 1924-cü ilin noyabrından 1925-ci lin martınadək Türkiyənin baş naziri olub. Sonradan 1930-cu ildə Əhməd bəy Ağaoğlu ilə bərabər Sərbəst Cümhuriyyət Firqəsinin qurucularından və liderlərindən biri olub.

**№ 17**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[111]

1 fevral 1925-ci il
İstanbul

Əzizim Ceyhun!

19 yanvar tarixli məktubunuzu aldım. Halınızın sığışıq (pərişan) olduğuna çox mütəəssir oldum. Sizə maddi cəhətdən yardım etmək imkanından məhrum olmağım təəssüfümü ikiqat artırır.

Ah! Bir bu böhrandan çıxsaydıq, nə yaxşı olardı. Avropada bolşeviklərə qarşı olan hazırlıqların qismən də şərqlilər əleyhinə olduğu qənaətindəsiniz. Bununla belə, bolşeviklərin daxilən təhmilli olduqları haqqındakı fikrinizdə haqlı deyilsiniz. Bolşevikləri həqiqətən də çox sıxışdıran avropalıların, onlardan bir tağım istədiklərini aldıqdan sonra daha irəli gedəcəklərinə inananlardan deyiləm. Müdaxiləyi-əsgəriyyə (hərbi müdaxilə) ehtimalı yoxdur. Təsdiqlərdən [112] sonra bu ehtimal ortadan qalxmışdır. Ehtimal ki, hərifləri[113] Amerika da təsdiq edəcək. Fəqət bu təsdiqlər bolşeviklərə pul verməyəcəkdir. İkinci İnternasionaldan [114] ayrı qaldıqca və hüquqi bir hala

---

[111] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[112] 1924-cü ildə aparıcı Avropa ölkələrinin əksəriyyəti, o cümlədən Böyük Britanıya, İtaliya, Fransa, İsveç və Avstriya tərəfindən bolşevik rejiminin tanınması nəzərdə tutulur. Bunun da nəticəsəndə SSRİ ətrafındakı diplomatik blokada faktiki olaraq aradan qaldırmış oldu.

[113] Bolşeviklər nəzərdə tutulur və sovet rejiminin ABŞ tərəfindən də tanınmasının mümkünlüyünə işarə edilir.

[114] İkinci İnternasional, Sosialist İnternasionalı və ya Fəhlə İnternasionalı – 1889-cu ildə müxtəlif ölkələrin sosialist fəhlə partiyaları tərəfindən təsis olunmuş beynəlxalq birlik. İkinci İnternasionala münasibətdə düşmən mövqe tutan və ona qarşı aramsız mübarizə aparan bolşeviklər 1919-cü ildə

düşmədikcə sərmayə (kapital) o diyari-vəhşətə[115] (qorxunc ölkəyə) girməz. Bu da olacaqmıdır? Baxalım. Trotskini[116] aradan qaldırdılar. Bəzilərinə bu sağ təmayülü ələ alma kimi görünür. Halbuki, məncə elə deyildir. Trotskinin sağlığı çox şübhəlidir. Əksinə o, köylüyə (kəndliyə) qarşı çox iltifatsız (diqqətsiz – A.B.) idi. Fəqət kəndlərdə kəndlini razı sala biləcəkmi? Zənn etməm. Rusiyadan gələnlər kommunizmin məhkum, zavallı olduğu qənaitindədirlər. Ömürləri bir-iki sənə olmalıdır. Fəqət Qərb kapitalizminin Şərqə qarşı yeni bir təcavüzə başlaması hərifləri Şərqdə bir az daha qüvvətləndirə bilər.

Qafqaz İttifaqı barədə də mülahizələriniz vardır. Bu ittifaqa buradakı gürcülərdən daha çox dağıstanlılar və bizimkilərin bir qismi əhəmiyyət verirlər. Bir də nasional-demokratlar[117] buna çox əhəmiyyət verən kimi görünürlər. Avropadakı sonuncu siyasi təşəbbüslər yalnız türklərin çox ürəylərincədir.

Əzizim, ölkəmizin xilasını Avropa kombinasyonlarından ziyadə və diplomatiya manevrlərindən artıq bolşeviklərin çökməsindən, daxili qüvvələrdən gözləməliyik. Mübarizə uzun sürə

---

bu məqsədlər üçün Üçüncü İnternasionalı (Kommunist İnternasionalını) yaratmışdılar.

[115] SSRİ nəzərdə tutulur.

[116] Trotski Lev Davidoviç (1879-1940) – sovet siyasi xadimi, inqilabçı, bolşevizm daxilində xüsusi trotskiçilik cərəyanının ideoloqu, Qızıl ordunun yaradıcısı və ilk rəhbəri. Qızıl orduya rəhbərliyi həyata keçirən ən ali orqana – Hərbi İnqilab Şurasına yarandığı gündən (1918-ci ilin 6 sentyabrından) başçılıq edib. Həmin vəzifədə faktiki olaraq hərbi nazir funksiyasını yerinə yetirib. 1923-cü ildən bolşeviklər partiyası daxilində sol müxalifətə rəhbərlik edən Trotski Stalinin mövqelərinin möhkəmlənməsi və cəmiyyətdə bürokratiyanın rolunun artmasına qarşı mübarizə aparıb. Həmin fəaliyyətinə görə 1925-ci ilin yanvarında Hərbi İnqilab Şurasının sədri vəzifəsindən kənarlaşdırılıb. M.Ə. Rəsulzadə məktubda məhz bu hadisəyə işarə edir, lakin səhv olaraq Trotskini sağçı adlandırır.

[117] 1918-1921-ci illərdə Gürcüstan Respublikasının siyasi həyatında və daha sonra isə mühacirətdə mühüm rol oynamış Gürcüstan Milli-Demokratlar Partiyasının üzvləri nəzərdə tutulur. Sağ təmayüllü gürcü milli-demokratları bir qayda olaraq menşeviklərə qarşı daimi müxalifətdə olublar.

bilər. Əməlpərvər, fədakar gənclər mütəşəkkil idealist bir zümrədir ki, məmləkətin mübariz qismini ruhda saxlaya bilər. Bunun isə gəlişi gözəl "İttifaq"larla hasil olacağına çox da ümidli deyiləm.

Məsələn, dünən bizimlə çalışan birisi "ittihad" (ittifaq – A.B.) yaratmaq məqsədi ilə bizdən ayrılır. Bir gün sonra isə digər "ittihad"çılarla birlikdə bizə "nota" göndərir. O biri gün də Bakıdan gəlmiş bolşevik emissarı Əfəndiyevlə görüşüb, Bakıya getmək üçün anket doldurur. Beləməri ilə "ittihad" edib də, nə qazanacağıq?!...

Burada ittihad deyil, iftiraq (ayrılma – A.B.) lazımdır.

Xosrov bəy[118] Ankaraya getmişdi. Gedərkən, adəti üzrə, bütün işləri düzəldəcəyini vəd etmişdi. Fəqət dünən geri qayıtdı. Doktor[119] həmin işi düzəltmək üçün icazə istəmiş və bunu özünə verəcəklər vədini almışdır. Daha sonra, İran hökuməti tərəfindən Türkiyəyə buraxılmayan qardaşının buraya gətirilməsi üçün təşəbbüs eləmiş, lakin ona, siyasət üçün zəruri deyil, ağız açma cavabını vermişlər. [120] Əzizim, iş bu yerdədir.

Sən burada bəlkə də iş taparsan. Fəqət çox çətinliklə. İstanbulda iqtisadi böhran böyükdür. Burada təhsilli və bacarıqlı insanlardan belə işsiz qalanlar çoxdur. Xüsusi təşəbbüslərin ilə bankda və yaxud digər bir şirkət və ya müəssisədə fransızca bildiyin üçün qulluq tapa bilərsən. Əgər bacarsan, fransızların buradakı şirkətlərdən birisinə tövsiyə (tapşırıq) ilə gəlsən, daha yaxşı olar.

Əli Mərdan bəyi də düşünürəm. Ona yardım tapa biləcəyimiz ümidindəyəm. Baxaq, görək nə edirik. Bugünlərdə bəzi şəxslərlə görüşümüz olacaq. Məsələ bir forma məsələsidir. Nə formada yardım edə bilərlər.

---

[118] Xosrov bəy Sultanov nəzərdə tutulur.

[119] Xosrov bəy Sultanov.

[120] Xosrov Sultanovun qardaşı İskəndər Sultanov nəzərdə tutulur. Aprel işğalından (1920) sonra İrana keçən İskəndər Sultanov orada silahlı dəstə yaradaraq, sovet Azərbaycanının sərhədyanı ərazilərinə mütəmadi olaraq hücumlar təşkil edirdi.

Məsələn, Xəlil bəyə[121] bələdiyyədə bir məmur vəzifəsi verilib. Ayda 70 lirəyə qədər bir gəliri var. Bunu Əhməd bəy[122] düzəltmişdi. Onun heç olmasa həyat yoldaşı türkdür. Yazıları onunla birlikdə bir təhər yoluna qoyur.

Əli Mərdan bəy nə bacara bilər? Bizə bir istiqraz təmin edə bilərlər. Fəqət buna hələ razılıq vermirlər.

"Arşın mal alan"ın qonararı haqqındakı təsəvvürün bilməm ki, həqiqi qiyməti nədir? Türkiyədə zənn edirəm ki, müəlliflik hüququ haqqında qanun yoxdur. Əcnəbi əsərləri müəlliflər istədikləri kimi tərcümə və nəşr edirlər.

Teatr əsərləri haqqında işin isə nə yerdə olduğunu bilməyirəm. Hər halda bunu bilən birisindən öyrənib, yazaram. Bu məsələnin bütün təfərrüatını öyrənəcəyəm ki, bundan mühüm bir şey hasil olsun. Aldığım xəbərə görə, ailəmin də bu yaxında gəlmək imkanı hasil olacaq. Məsələ müşkül bir şəkil alır. İstər-istəməz bu işə girməliyəm. Baxalım, nə edə bilərik.

Berlindəki gənc arxadaşlar sürgünə gedən mücahidlərimizə yardım kampaniyasına başlamışlar. Bu da bir reklam vasitəsidir. Bilməm nədən Parisdəki gənclər Berlindəkilər qədər təşəbbüs göstərmirlər?

"Yeni Kafkasya"nın Almaniyada bir çox abunəçiləri var ki, bu da Parisdə bir-iki adama xasdır. Ən qəribəsi isə budur ki, Berlindən Parisə gedənlər də sevinirlər.

Zöhrə xanıma salam. Uşaqların gözlərindən öpürəm. Arxadaşların salamı var. Dostluq salamı.

Məmməd Əmin

P.S.Əli Mərdan bəydən çoxdandır məktub və yazılar gəlməyir. Ona məndən salam söyləyin.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 281-282. Məktubun əslinin faksimilesi.*

---

121 Xəlil bəy Xasməmmədov nəzərdə tutulur.

122 Əhməd bəy Ağaoğlu nəzərdə tutulur.

## № 18

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[123]

19 iyul 1925-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

Səndən çoxdandır xəbərim yoxdur. Diplomatik tonla deyil, səmimiyyətlə yazılan məktub həmişə səninki olur. Sən də çox gec-gec yazırsan. Doğrudur, mənim də qüsurlarım az olmayır. Vaxtında yazammıram. Fəqət sən məni üzürlü bilməlisən. Bilirsən ki, "Yeni Kafkasya" bütün ağırlığı ilə təkcə mənim öhdəmdədir. Bundan əlavə də çoxlu mükatibələrim (məktublaşmalarım – A.B.) vardır. Bununla qətiyyən işsizliyinizə işarət etmək istəmirəm. İstərdim sənin özündən eşidəm.

"Arşin mal alan"ın Fransa səhnəsindəki müvəffəqiyyəti necə oldu?

İbrahim bəyin [124] həyat yoldaşı müvəffəqiyyətdən bəhs edirdi. Baxmayaraq ki, gəlir baxımından çox da yaxşı olmamışdır. Ziyan etmisiniz. Buna çox acıdım. Fəqət Əli Mərdan bəyin yazısından anladım ki, tamaşanı ikinci dəfə göstərmək fikriniz varmış. Ehtimal ki, bu dəfə nəticəsi yaxşı olar.

Əzizim, orada işlərinizin nə halda olduğunu ümumi surətdə bilirəm. Fəqət xüsusi surətdə bilməyirəm. Buraya gəlmək istəyirdiniz. Əli Mərdan bəy də gəlmək istəyirdi. Eşitdiyimə görə Əli Mərdan bəy gəlmək üçün müraciət etmiş, lakin razılıq cavabı almamışdır. Bu xüsusda Əli Mərdan bəy məktublarında mənə heç bir şey yazmayır.

Öz xüsusi əhvalınız haqqında yazmaqla bərabər, Sizdən çox rica edirəm, bir az da məni oradakı siyasi əhval-ruhiyyə

---

[123] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[124] Ehtimal ki, Şimali Qafqaz xalqları milli-azadlıq hərəkatının liderlərindən olmuş İbrahim Heydərov (1879-1949) nəzərdə tutulur.

haqqında məlumatlandırasız. Qafqazlılar orada nə edirlər? Gürcülər, ermənilər, dağıstanlılar nə edir? Nə dərəcəyə qədər çalışa bilirlər?

Hal-hazırda Avropada bolşeviklərə qarşı ümumi bir cərəyan vardır. Bu cərəyan yalnız bolşeviklərə qarşımıdir? Yoxsa onlarla bərabər bu hərəkətlər Şərqə qarşı da yönəlmişdir?

İngilis mühafizəkarlarının [125] "Komintern"ə [126] qarşı siyasətləri nə dərəcədədir?

Bu barədə Qafqaz heyəti-mürəxxəsələrinə (nümayəndə heyətlərinə - A.B.) bir şey xüsusi olaraq məlumdurmu?

Bu kombinasyonlardan real olaraq bir şey gözləyirlərmi? Gözləyirlərsə, nə gözləyir, nə dərəcədə gözləyir, nə kimi vəziyyət almaq istəyirlər?

Daşnaklarla gürcülər arasında bir tağım müzakirələr varmış. Bunlar haqqında heç məlumat əldə edə bildinizmi?

Nə təxmin edirsiniz? Gürcü menşeviklərinin ruslara meyl edəcəklərinə inanırsınızmı? Onlarda belə bir cərəyan vardırmı? Varsa, nə dərəcədədir?

Sonra menşeviklərlə nasional-demokratların[127] ixtilafları nə yerdədir? Nasional-demokratlar ciddi bir qüvvə təşkil edirlərmi?

Buradan Sizə Qafqaz konfedrasion komitəsi [128] adına bir bəyannamə və qərarnamə göndərilmişdir. Bu nədən ibarətdir? Əsasları nədir? Tələbləri nədir?

---

[125] İngiltərə mühafizəkarlar partiyası nəzərdə tutulur.

[126] Kommunist İnternasiomalı (1919-1943) nəzərdə tutulur. Bəzən Üçüncü İnternasional da adlandırılır. Dünyanın müxtəlif ölkələrinin Kommunist partiyalarının birliyi olan Komintern ilk növbədə sosial-demokrat partiyalarının cəmləşdiyi İkinci İnternasionala qarşı mübarizə məqsədilə yaradılıb.

[127] Gürcü menşevikləri ilə milli-demokratları arasındakı siyasi rəqabət nəzərdə tutulur.

[128] Qafqaz Konfederatlarının Birləşmiş Komitəsi nəzərdə tutulur. Daha ətraflı məlumat üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). Bakı, 2015. S. 193-206.

Burada bunlar doktor Xosrov bəy, Cabagiyev[129] və bir də Vaçnadzedən[130] ibarət imişlər. Fəqət Qafqaz konfedasiyası fikirini bunlar yenimi çıxarmışlar, əvvəl yox idimi? İttifaqları şəxsimidir, firqəmidir, yoxsa millimidir? Bəlli deyildir. Cabagiyevin mənə söyləməsinə görə, "Личная уния"[131] siyasi birləşmə imiş.

Aldığımız məlumata görə, mayın 19-da Bakıda müsəlman ziyalıları arasında çoxlu həbslər icra edilmişdir. Gəncədə də həbslər həyata keçirilibmiş. Məhbuslardan adları bəlli olanlar bunlardır:

Nərimanbəyov[132], Heybətqulu Məmmədbəyov[133], Şirəli Şirəliyev, Yusifəli Əliyev, Rüstəm xan Xoyski[134], Hüseyn bəy

---

[129] Cabagiyev (Cabagi) Vassan Girey (1892-1961) – Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatının liderlərindən biri. Milliyətcə inquşdur. 1918-ci ilin avqustunda Vladikavkazın kazaklardan azad olunması əməliyyatına rəhbərlik edib. 1919-cu ilin martında Şimali Qafqaz parlamentinin sədri seçilib. 1920-1922-ci illərdə Parisdəki Şimali Qafqaz diplomatik nümayəndəliyinin üzvü. 1924-1926-ci illərdə Qafqaz Konfederatlarının Birləşmiş Komitəsinin rəhbərlərindən biri.

[130] Vaçnadze David (1884-1962) – gürcü milli-demokratlarının liderlərindən biri. 1917-ci ildə Gürcüstan milli-demokratlar partiyasının yaradıcılarından biri olub. 1919-1921-ci illərdə Gürcüstan Müəssislər Məclisinin üzvü. 1921-1923-cü illərdə Gürcüstanda bolşeviklərə qarşı müqavimət hərəkatının rəhbərlərindən biri. 1923-cü ildə mühacirətə gedib. 1924-1926-ci illərdə Qafqaz Konfederatlarının Birləşmiş Komitəsinin yaradıcılarından və rəhbərlərindən biri olub. 1927-1937-ci illədrə A. Asatianinin milli-demokratlar qrupunun üzvü olub. 1936-cı ildə "Erməni-gürcü unionu"nun təşəbbüskarlarından biri.

[131] "Şəxsi uniya". Qafqaz Konfederatlarının Birləşmiş Komitəsini "şəxsi uniya" adlandıran M.Ə. Rəsulzadə həmin qurumun arxasında heç bir nüfuzlu siyasi təşkilatın dayanmadığını, onun X. Sultanov, V.G. Cabagiyev və D. Vaçnadzenin "şəxsi ittifaq"ından başqa bir şey olmadığını vurğulamaq istəyir.

[132] Nərimnabəyov Nəriman bəy (1884-1938) – Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri, ictimai-siyasi və dövlət xadimi, 1917-ci ildən "Müsavat" partiyasının üzvü. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalını elan etmiş Milli Şuranın üzvlərindən biri. Azərbaycan parlamentinin üzvü olan N. Nərimanbəyov, 4-cü hökumət kabinəsində dövlət

Ağayev, Səməd bəy Mehmandarov[135], Əlabbas Müznib[136] və sairləri.

Gömrük silkələmələrindən başqa, bir çox sovet məmurlarını ki, aylardan bəri mühakimə edirdilər, edama məhkum eləmişlər. Onlardan yalnız yəhudiləri Moskva əfv elədiyi halda, iki müsəlman, biri Bəhram Bəhramov, digər birisi də ki, adı indi xatirimdə deyildir, edam edilmişlər.

Kənd təsərrüfatı nazirliyi Azərbaycan mühacirlərindən əkinçiliklə məşğul olmaq istəyənlərə Nuri paşanın[137] vasitəsilə

---

müfəttişi vəzifəsini yerinə yetirib. Aprel işğalından (1920) sonra vətəndə qalaraq, hüquq məsləhətçisi və vəkil kimi fəaliyyət göstərib. Daim təqiblərə məruz qalan N. Nərimanbəyov 1937-ci ildə repressiya olunub.

[133] Məmmədbəyov Heybətqulu (1888-1937) – ictimai-siyasi xadim, AXC parlamentinin üzvü. 1917-ci ildə "İttihad" partiyasının təşkilində yaxından iştirak edib. N. Yusifbəylinin 2-ci hökumət kabinəsində dövlət nəzarəti naziri olub. Aprel işğalından (1920) sonra sistematik təqiblərə məruz qalıb, dəfələrlə həbs edilib.

[134] Xoyski Rüstəm xan (1888-1948) – Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakşılarından biri, Fətəli xan Xoyskinin kiçik qardaşı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə F. Xoyskinin 1-ci və 2-ci hökumət kabinələrində işlər idarəsinin müdiri, daha sonra isə himayədarlıq naziri vəzifələrində çalışıb. Aprel işğalından (1920) sonra Azərbaycanda müxtəlif vəzifələrdə çalışıb. Sonradan Moskavaya köçərək, elə orada da vəfat edib.

[135] Mehmandarov Səməd bəy (1856-1931) - Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, görkəmli hərbi xadim, artilleriya generalı.

[136] Müznib Əlabbas (1883-1938) – şair, publisist, tərcüməçi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli istiqlal ideyalarını fəal təbliğ edən ziyalılardan biri olub. Aprel işğalından (1920) sonra mətbuat və təhsil sahələrində çalışıb, ədəbiyyatşünaslıq sahəsində araşdırmalar aparıb. 1937-ci ildə milli ruhlu əsərlərinə, ilk növbədə, Osmanlı qoşunlarının Bakıya gəlməsini alqışlayan şeirinə görə 8 il həbs cəzası alıb və Sibirə sürgün edilib. Vladivostokdakı həbs düşərgəsində vəfat edib.

[137] Nuru Paşa, Nuri Killigil (1881-1949) – 1918-ci il sentyabrın 15-də Bakını rus-erməni işğalçılarından azad etmiş Qafqaz İslam Ordusunun komandanı, Osmanlı ordusunun general-leytenantı. Mudros barişığının (1918) şərtlərinə görə Azərbaycanı tərk etməli olsa da, onunla əlaqələri kəsməmişdir. 1920-ci ilin iyununda Qarabağda bolşeviklər əleyhinə üsyanın rəhbərlərindən biri olub. Aprel işğalından (1920) sonra Türkiyədə

iki min düyüm torpaq sahəsi və 15 min lirə miqdarında bir vəsait verməyi vəd etmişdir. Fəqət əkinçiliklə məşğul olacaq Azərbaycan mühacirlərini tapmaq bir problemdir. Bunları tapdıqdan sonra isə, nizam-intizama gətirib, müştərək olaraq çalışdıra bilmək də digər müşkül bir məsələdir.

Uşaqlar nə edir, Zöhrə xanım nə haldadır? Bizimkilər hal-hazırda Bakıdadırlar. Ümmülbənin[138] gəlmək üçün müraciət eləmiş, icazə istəmiş, verməmişlər. Daha artıq gözləmək lazım gəldiyini bildirmişlər. Buna görə də durumları çox çətin olmuşdur. Baxalım nə olur.

Hər halda onları gətirtmək üçün ən ciddi vasitələrə əl atıram.

Abbasqulunun[139] salamı vardır. O, burada kiçicik bir dəftər-kitab dükanı açıb, bu vasitə ilə başını bir təhər dolandırırdı. Bələdiyyənin qərarı ilə onun yerləşdiyi sıranı indi sökürlər. O, bir il çalışıb müştəri toplayıb, bu payızda qazanacaqmış. O da baş tutmadı. İndi başqa dükan axtarır.

"Yeni Kafkasya" iki aydan sonra iki ilini tamam edir. Üçüncü ilə keçdikdə xaricdəki bütün azərbaycanlılara nümunə üçün hər birinə bir və ya iki nüsxəsini göndərəcəyəm və onlara abunə olmalarını təklif edəcəyəm. Onun üçün, mümkünsə, zəhmət olmasa Fransadakı vətəndaşlarımızın ünvanlarını öyrənib, mənə göndərərsiniz. Vətəndaşlarımızdan əlavə, başqalarının da abunə olacaqlarına ümid yeri varsa, onların adlarını göndərsəniz çox məmnun olaram.

Bir də əzizim, ara-sıra bizi maraqlandıran mövzular barədə yazı göndərsən məmnun olarıq. Burada görüləcək nə işin varsa çəkinmədən yaz. Mümkün olduğu qədər faydalı olmasına səy edəcəyimi vəd edirəm.

Hələlik bu qədər. Hörmət və ehtiramla. Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-salam.

---

məskunlaşmış Azərbaycan siyasi mühacirlərinə imkanı daxilində daim dəstək vermişdir.

[138] Ümmülbanu – M.Ə. Rəsulzadənin həyat yoldaşı, eyni zamanda, əmisi qızı.

[139] Abbasqulu Kazımzadə nəzərdə tutulur.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 276-279. Məktubun əslinin faksimilesi.*

**№ 19**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[140]

5 oktyabr 1925-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

Heydər bəy [141] vasitəsilə göndərdiyiniz məktubu aldım. Cavabsızlıqdan şikayət edirsiz. Haqlısınız. İçindəki Nuri paşaya [142] aid zərfi də paşa burada olmadığı üçün bir az gecikmə ilə özünə göndərmişəm. Hər halda məktubunuzu bundan azı beş həftə əvvəl almışdır. Heydər bəyə də söylədim. Gec cavab yazmağım qətiyyən təsəvvür edə biləcəyiniz kimi laqeydlik əlaməti deyildir. Etinasızlıq isə heç söhbət mövzusu da ola bilməz. Bunun səbəbi aradakı xəstəliklərim və məşğulluğumdur. Digər tərəfdən, neçə dəfə Sizə məktub yazmaq istədim, lakin "boş olmasın" deyə müsbət bir şey yaza bilmək ümidi ilə təxirə saldım. Təəssüflər olsun ki, indi də bu kağızı qələmə alarkən "boş" yazmaq məcburiyyətindən mütəəssirəm.

İstanbulda və ya Türkiyənin sair nöqtələrində iş tapmaq üçün əvvəla türk vətəndaşı olmaq əsas şərtdir. Sonra bura türkcəsini bilmək də vacibdir. Ərəb əlifbası ilə yazmaq bacarığının da təsiri vardır. Siz İstanbulda şöbələri mövcud olan əcnəbi, məsələn fransız müəssisələrində bəlkə iş tapardınız. Bu xüsusda oradakı tanışlarınız vasitəsilə bir təşəbbüs edə bilməzsinizmi?

---

[140] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[141] Heydər Bammatov (Bammat) nəzərdə tutulur.

[142] Qafqaz İslam Ordusunun komandanı olmuş Nuru Paşa nəzərdə tutulur.

İstanbul xaricində, məsələn Şərqi Anadolu vilayətlərində iş tapmaq daha asandır. Fəqət bu da Sizə uyğun gəlməz. Sizin üçün iş mütləq İstanbulda tapılmalıdır. Bu barədə Əhməd bəy[143] burada ikən söhbət olmuşdu. Yaxşı olar ki, Siz ona müraciət edəydiniz. Onun indi Anadolu ajansında[144] mühüm rolu vardır. Bəlkə də müdiridir. Bəlkə orada Sizə müvafiq bir iş tapar. Sonra qəzetlərdə oxuduğumuza görə, Ələşrəf Sultanovun[145] mühüm və müstəsna işi varmış. Bu doğrusa, zənn edirəm ki, orada da bir iş alına bilər.

Sizin göndərdiyiniz ünvanlara yeni ilin başından qəzetlər göndərdik. Abunələrin içinə bir məktub da əlavə edilmişdir. Bu məktub abunə pulunu göndərməyə bir işarədir. Gözləyəcəyik. Cavab gəlmədiyi təqdirdə, kəsəcəyik.

Qafqazlıların vəziyyəti haqqında sizin yazdığınız təfsilatdan çox istifadə etdim. Bu xüsusda Sizə bir az məlumat vermək istərdim. Burada təşəkkül edən Qafqaziya konfedrasion komitəsi[146] ilə aramızdakı ixtilafın xülasəsi birdir. Biz təklif edirik ki, konfederasion komitəsi gürcü, Azərbaycan və Dağıstan nümayəndələrindən ibarət olmalı və hər məmləkətdən orada iki nümayəndə olmalıdır. Bu nümayəndələrin şəxsində o məmləkətlərdəki iki başlıca cərəyan təmsil edilməlidir. Bunun qarşılığında şəxsi birlik prinsipi aradan qaldırılmalıdır. Bu surətlə yaranmış problem aradan qalxır. İndi mövcud olanı tamamilə ləğv edərək, yenidən, yeni prinsiplə işə başlamaqdan başqa çarəmiz qalmamışdır.

---

[143] Əhməd bəy Ağaoğlu nəzərdə tutulur.

[144] Anadolu informasiya agentliyi nəzərdə tutulur. 1920-ci ildə Atatürkün sərəncamı ilə yaradılmış agentliyin qurulmasında Əhməd bəy Ağaoğlunun müstəsna xidmətləri olmuş, müəyyən müddət ərzində o, hətta bu quruma rəhbərlik etmişdir.

[145] Ələşrəf Sultanov – Ə.M. Topçubaşovun kürəkəni, onun qızı Sara xanımın həyat yoldaşı.

[146] Qafqaz Konfederatlarının Birləşmiş Komitəsi.

Əli Mərdan bəyə bu qədər aydın bir şey yazmışıq. O isə bizə birləşmənin faydaları haqqında "nəsihətlər" yazır. Şəkilsiz nəsihətləri deyil, məntiqi təklifləri dinləmək lazımdır. Bizim tərtib etdiyimiz təşkilat milli təmsilçilik, fedarasion və konfederasion əsaslar üzərində qurulur. Başlıca cərəyanların təşkilatda nümayəndəliyi bu əsaslar daxilində təmin olunur.

Xosrov bəy İrana yola düşmüşdür. Trabzondan təbil və zurna çala-çala yola salınmışdır. Avropa da, Türkiyə də onunla imiş. Başqaları yalnız kağız qaralamaqla məşğul olmuşlar. Və sairə. [147]

Arxadaşların salamı var. Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-salam.

Əzizim, məktub yazınız.

Hələlik bu qədər. Hörmətlərlə,

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост.,*

---

[147] Qafqaz Konfederatları Komitəsində Azərbaycan siyasi mühacirətini təmsil edən Xosrov bəy Sultanovun İran Azərbaycanına geniş reklam olunan səfəri nəzərdə tutulur. M.Ə. Rəsulzadənin sovet rejiminə qarşı apardığı ideya-siyasi və informasiya mübarizəsini "boş şey" və "kağız qaralamaq" adlandıran X. Sultanov bolşeviklərə qarşı daha radikal metodlarla mübarizənin, o cümlədən silahlı mübarizənın tərəfdarı idi. Azərbaycanın daxilində bolşeviklərə qarşı mübarizə aparan qüvvələrlə əlaqə yaratmaq və İran Azərbaycanında məskunlaşmış mühacirlərdən silahlı dəstələr formalaşdırmaq məqsədilə X. Sultanov bu bölgəyə səfər etmişdi. 1925-ci ilin oktyabrında böyük təmtəraqla Trabzondan yola salınan X. Sultanov noyabr-dekabr aylarında Xoy, Təbriz və Tehranda olmuşdu. Lakin, M.Ə. Rəsulzadənin qabaqcadan söylədiyi kimi, X. Sultanovun bütün bu layihələri kağız üzərində qalmışdı. Çünki onun planları haqqında vaxtında məlumat alan bolşeviklər, İran hökumətinə təzyiq göstərərək, onların qarşısını ala bilmişdilər. X. Sultanovun İran səfəri və həmin dövrdə onunla M.Ə. Rəsulzadə arasındakı prinsipial fikir ayrılıqları haqqında daha ətraflı məlumat almaq üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). Bakı, 2015. S. 193-206.

*предисл. и примеч. С. Исхаков. М., 2010. С. 273-274. Məktubun əslinin faksimilesi.*

**№ 20**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[148]

8 dekabr 1926-cı il
İstanbul

Əzizim Ceyhun bəy!

Mustafa bəyə[149] yazdığınız məktubdan Sizin "Prometey"[150] ilə əlaqədar olmadığınızı öyrənmiş və heyrət etmişdim. Sonra, başqalarından aldığım məktublardan, Sizin də redaksiya heyətinə bizim təmsilçimiz kimi daxil olduğunuzu öyrəndim. Məmnun oldum.

"Prometey"in[151] ilk nüsxəsi gəldi. Başlanğıc üçün pis deyil. Fəqət, zənn edirəm ki, daha dolğun və maraqlı olması mümkündü. Kiçik məsələ olsa da, bizim məqalənin sonlara doğru sığışdırılmasını (jurnalın son səhifələrində nəşr olunmasını – A.B.) Sizin də bəyənməyəcəyinizə əminəm.

Azərbaycan bölməsinin mühüm və dolğun olmasını müştərək olaraq təmin etməliyik. Sizə bu posta ilə (poçt ilə - A.B.) "Azərbaycan" qəzetini göndərirəm. Bu məcmuə ara-sıra nəşr ediləcəkdir. Bu barədə "Prometey"də bir yazı dərc etmənizi

---

148 Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

149 Mustafa bəy Vəkilli (Vəkilov) nəzərdə tutulur.

150 Müasir Polşa dövlətinin qurucusu Y. Pilsudskinin təşəbbüsü ilə yaradılmış və özündə SSRİ-dən olan siyasi mühacirlərin geniş spektrini birləşdirən "Prometey" hərəkatı nəzərdə tutulur. 1926-cı ildə yaradılmış, əsas məqsədi bolşevik rejiminə qarşı mübarizə və SSRİ-nin məhkum xalqlarının istiqlalının bərpası olan bu təşkilatda ermənilər və ruslar istisna olmaqla SSRİ-dən olan bütün digər sol və mərkəzçi siyasi mühacir təşkilatlarının – Azərbaycan, Ukrayna, Gürcüstan, Şimali Qafqaz, Türküstan, Moldova, İdil-Ural, Krım, Belarus nümayəndələri təmsil olunmuşdu. M.Ə. Rəsulzadə hərəkatın yaradıcıları və rəhbərlərindən biri idi.

151 1926-cı ilin noyabrında ilk sayı çapdan çıxmış «Prometey" hərəkatının eyniadlı jurnalı nəzərdə tutulur.

təmənna edirəm. Məcmuə Parisdə nəşr olunur. Oradan bizə göndərilir. İlk nüsxəsi bir yanlışlıq ucbatından postada ilişmiş, bizə gec gəlib çatmışdır. Bu səbəbdən tarixi köhnədir. Fəqət Siz buna əhəmiyyət verməyin. Zatən mündərəcatı aktual olmadığından bunun çox o qədər əhəmiyyəti də yoxdur.

Menşeviklərin İnternasionalda [152] və Avropada dostları vardır. Biz bundan məhrumuq. Halbuki firqənin[153] beynəlmiləl sahədə Avropadakı ictimai rəyə müraciət etmək ehtiyacı məlumdur. Həmin ehtiyacı bu şəkildə təmin etməyi düşündük. "Azərbaycan" və sonra "Prometey"dəki məqaləmin tərcümələri necədir? Bu xüsusda da rəyinizi öyrənmək istərəm. Bunu burada milliyyətcə macar olan bir müsəlman tərcümə edir. Zənnimcə tərcümələr yaxşıdır. Madam ki, "Prometey" məcmuəsi qafqazlıların inhisarında deyil və ukraynalılar da buraya daxil olmuşlar, o halda türküstanlıların da redaksiya heyətinə qəbul edilmələri zəruridir. Bu bizim faydamıza olardı.

Eşitdiyimə görə qardaşınız Üzeyir bəy [154] Parisə gəlmək fikirində imiş. Bu haqda məlumatınız vardırmı?

Bu günlərdə Qafqazdan məlumat alınmışdır. Bakıda, Tiflisdə şiddətli həbslər və təqiblər varmış. Gürcülərə gələn məlumata görə, Gürcüstanda bir çox edamlar da olmuşdur. İçəridən (Azərbaycandan – A.B.) aldığımız məlumata görə, bizim firqə arxadaşları hal-hazırda fəaliyyətdədirlər. Gizli nəşriyyatlarından nümunələr göndərmişdilər. Gizli qəzet belə çıxarırlar. İki nüsxəsini bizə göndərmişdilər. Yalnız Azərbaycanda deyil, Gürcüstan türkləri arasında da təşkilat və fəaliyyət vardır. Qəzetdən əlavə bir çox bəyannamələr və vərəqələr də nəşr eləmişlər.

"Yeni Kafkasya"nın ayın əvvəlində çıxacaq nüsxəsi yubandı. 15-də dubl (qoşa – A.B.) nömrə çıxaracağıq.

---

[152] İkinci İnternasional nəzərdə tutulur.
[153] "Müsavat" partiyası nəzərdə tutulur.
[154] Üzeyir bəy Hacıbəyli nəzərdə tutulur.

Əli Mərdan bəyə mənim keçənlərdə nəşr elədiyim "Rusiyada siyasi vəziyyət"[155] adlı risaləmdən (kitabçamdan – A.B.) bir neçə nüsxə göndərmişdim. Yəqin Siz də görmüsünüz. Hər halda bu posta ilə Sizə bir nüsxə də göndərirəm.

Bu barədə "Prometey"də biblioqrafik bir yazı nəşr etsəniz, yaxşı olar.

Evimizdən məktub almışdım. Uşaqlar salamatdırlar. Məktəbə davam edirlər. Sizinkilər necədirlər? Zöhrə xanıma ərzi-ehtiram edir, uşaqların gözlərindən öpürəm.

Hələlik bu qədər. Əllərinizi sıxıram.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 288-289. Məktubun əslinin faksimilesi.*

---

155 M.Ə. Rəsulzadənin 1925-ci ildə İstanbulda nəşr etdirdiyi "Rusiyada siyasi vəziyyət" adlı kitabçası nəzərdə tutulur.

## № 21

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[156]

12 yanvar 1927-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

27 dekabr tarixli cavab məktubunuzu aldım. "Prometey"də[157] iştirak etmədiyinizi yazırsınız. Buna təəssüf etdim. İştirak etməmənizin nəticəsi göz önündədir. "Prometey"in ikinci nömrəsi Azərbaycansız çıxmışdır.[158]

Əfəndim, bu jurnal bizim planımıza görə İstanbulda çıxmalı idi. İcazəsini almaq mənim üçün su içmək kimi asan bir şey idi. Bir ay müddətində bütün işləri başa çatdıra bilərdim. Fəqət doktor Xosrov bəy[159] qəzetin üstündə mənim sahibi-imtiyaz və müdir olmamı münasib bilmədi. Onun etirazından sonra digərləri də, yəni gürcülər də həqiqətən bu qəzetin ("Prometey"in – A.B.) rəhbərliyinin "Yeni Kafkasya"nın redaksiya heyəti ilə qarışa biləcəyini bildirdilər.

Nəhayət, qəzeti Parisə keçirdilər. Parisdə isə məcmuə imzaları, məqalələri və bütün şan-şöhrəti ilə gürcülərinin ruhunu almış oldu. O dərəcədə ki, Azərbaycan hissəsi belə görünməz oldu.

Xosrov bəyin də bir atım barıtı varmış, atdı və sonra məlum oldu ki, o, yazıçı deyildir. "Kim olursa olsun, təki Rəsulzadənin adı olmasın" zehniyyəti, son nəticədə, məcmuənin Azərbaycan redaktoru olmadan da nəşrinə razılıq verdi. Bu xüsusdakı anormallığı mən qəbul edirəm. Eyni hərəkət "Yeni Kafkasya"nın fəaliyyətində də özünü büruzə verir. Bütün Qafqaz və Türküstan davasına rəvac verməsinə rəğmən,

---

[156] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[157] "Prometey" jurnalı nəzərdə tutulur.

[158] "Prometey" jurnalın ikinci sayının Azərbaycana aid materiallar olmadan çıxdığına işarə olunur.

[159] Xosrov bəy Sultanov nəzərdə tutulur.

vəsaitsizlik ucbatından bu məcmuənin iki nömrəsini bir araya gətirib çap etmək məcburiyyətində qalırıq.

Fəqət əzizim, Siz küskünlüyünüzə səbəb olan və ətraflı bilmədiyimiz şeylər barədə açıq yazmayırsınız. İştirak etməməyinizin səbəbləri haqqında bizi daha artıq məlumatlandıra bilərsinizmi?

Mən də işlərin anormal olduğundan şikayətçiyəm. Rəhbərlik etdiyim iş nöqteyi-nəzərindən zərəçəkənəm də.

Təfərrüata girişmədən ümumi surətdə söyləməliyəm ki, bizdə "taktika"nı məqsəd üçün deyil, "məqsəd"i taktika üçün istifadə edirlər. Adətən, məqsədi taktika, taktikanı isə məqsəd yerində istifadə edirlər.

"Azərbaycan" haqqında fikirlərinizi açıqca söylədiyinizə görə minnətdarlığımı bildirirəm.

Əzizim, məqsəd Avropa ictimai fikrini həm Azərbaycan, həm də firqə ("Müsavat" partiyası – A.B.) haqqında məlumatlandırmaqdır. Gürcülərin İnternasional təşkilatı və sair vasitələri var ki, onunla Avropada öz siyasi təşəkküllərini və firqələrini tanıtdırırlar. Biz bu vasitələrdən məhrumuq. Heç olmazsa mətbuatla öz varlığımızı bildirməliyik.

"Müsavat" bu həqiqəti təkrar, daima təkrar edir. Hər kəs buna öz nöqteyi-nəzərindən bir məna verir. Əlaqəli olanları dərhal məlumatdırmaq vəzifəmizdir. Haqlısınız, ilk nömrələr ancaq firqəyə ("Müsavat"a – A.B.) həsr edilmişdi. Bu nömrənin sonundakı "Elan" ilə də etiraf edilmiş və gələcək nömrələrdə Azərbaycan haqqında ətraflı məlumat veriləcəyi vəd olunmuşdur.

Təşkilati məsələlərə gəlincə, orada (Parisdə - A.B.) nəşr etmək üçün bir "qarant" (zamin – A.B.) göstərmək lazımdır və bu "qarant" fransız təbəəsi olmalıdır. Buna isə bizim maddi imkanımız yoxdur. Bu çətinlik ona görədir ki, orada xaricdən sifariş kimi basılır. Sonra buradan paylanılır.

İlk nömrənin çox yubanması təcrübəsizlik ucbatından baş vermiş bir xəta nəticəsində təsadüfən əmələ gəlmiş bir qəzadır.

Sonrakı nüsxələri gecikdirmədən göndərəcəyimizə ümid edirik. Hər ay olmasa da, hər iki ayda bir dəfə nəşr etmək fikirindəyik.

Tərcümədəki kəlmə xətasına aid mülahizənizi tədqiq etdim. “Efemer” kəlməsinə malik olan cümlənin türkcəsi eyni ilə belədir: “1918-ci ildə istiqlalını elan edən bu cümhuriyyət yaşadığı çox qısa bir müddətdə demokratiyanın ən müqəddəs əsaslarını tətbiq etməklə, Şərqdə ilk dəfə olaraq əsrə məxsus bir hökumət təsis etmişdir”. Burada “efemer” kəlməsi rusca ifadə elədiyi mənada işlənməyib. “Efemer” kəlməsinin fransızca “qısa müddət mövcud olmaq” mənasına gəlib-gəlmədiyini bilmirəm.

Hər halda bu xüsusda üzrlü bildiyim tərcüməçimizin diqqətini həmin xətaya cəlb edəcəyəm. Bu xüsusdakı məlumatınıza görə təşəkkür edirəm.

İstanbula gəlmək arzusunda olduğunuzu bildirirsiniz. Sizin üçün İstanbula gəlmək çox yaxşı olardı. Xüsusi ilə uşaqların burada türkcə öyrənmələri çox faydalı olardı. Mən Sizə əvvəlcə də yazmışdım, yenə təkrar edirəm. Əgər fransız şirkətlərinin İstanbuldakı hər-hansı bir müəssisəsinə bir yer və ezamiyyət təmini ilə gələ bilsəniz, burada çətinlik çəkməzsiniz. Yoxsa, türk müəssisələrində iş tapmaq çətindir.

Siz fransızca bildiyinizdən bəlkə daha yaxşı iş taparsınız, fəqət o təqdirdə belə türk müəssisəsindəki xidmət ən çoxu yüz lirə təmin edər ki, bununla da ailə dolandırmaq müşküldür.

İstanbula gələcək olsanız, ümumi cəhətdən də yaxşı olar. Bir-birimizə yardım edər, müştərək çalışarıq. Fəqət dediyim kimi imkanınız varsa, şirkətlərdə bir iş axtarın.

Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-ehtiram edirəm.

P.S. Bakı qəzetlərində Üzeyir bəyin musiqi haqqında çox mühüm bir məqaləsini oxudum. Məqalədə “operanı” aşağılayan Nəriman adlı birisinə atılmış daşları gördüm. Bir çoxları bəlkə də bunu anlamamışlar.

Onun Parisə gələcəyi xəbərini almışdım. Əcəba doğrumudur?

“Revue du Monde”un Azərbaycana həsr etdiyi nüsxəsini gördüm. Bizdən də yaxşı məqalələr və yazılar verilmişdir. Orada Azərbaycan teatrı haqqında bir məqalə vardır. [160] Sizmi yazdınız? Başqasında o məlumat və təfsilat olmaz.

Mirqasım da maşaallah orada yaxşı çalışırmış. Əcəba növşəhərli kimdir? Bu nüsxə haqqında “Yeni Kafkasya”da məlumat verəcəyəm. Materiallar çox olduğundan bu nömrəyə yerləşmədi. Mir Yaqub bir kitab yazmışdır. Yəqin ki, Sizə göndərmişdir. Onun Azərbaycana aid qismi haqqında mülahizənizi öyrənmək istərdim. Yazda da “Azərbaycan” haqqında bir kitabı çıxacaq.

Zavallı Rəşid bəy![161] Bu gəncə çox acıdım. Əli Mərdan bəy çox mütəəssir olacaqdır. Allah səbr versin!

Hələlik bu qədər. Hörmətlərimin qəbulunu rica edirəm, əzizim.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 301-304. Məktubun əslinin faksimilesi.*

[160] C. Hacıbəylinin 1926-cı ildə “Revue du Monde musulman” jurnalının 3-cü sayında nəşr etdirdiyi “Azərbaycan teatrı” məqaləsi nəzərdə tutulur.

[161] Əli Mərdan bəy Topçubaşovun vaxtsız vəfat etmiş ortancıl oğlu Rəşid bəy Topçubaşov (1900-1926) nəzərdə tutulur.

## № 22
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[162]

2 fevral 1927-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

27 yanvar tarixli məktubunuzu aldım. Yazışmanı arzu edirsiniz. Bütün şərtlərinizə cavabım ancaq müsbətdir.

Hay-hay! Əzizim, bizi oradakı hadisələr barədə məlumatlandırmaqdan məhrum etməsəniz, çox məmnun olaram.

Məktubunuzda bizimlə şəxsən əlaqədar olurlar, deyirsiniz, buna kədərlənirsiniz. Haqqınız vardır. Fəqət məktubunuz aydın deyildir. Eyhamlarınızda lazımi dərəcədə aşkarlıq yoxdur. "Musavat" nümayəndəsinin nə şəkildə əleyhinizə olduğunu anlamadım. Doğrusunu söyləmək lazım gələrsə, biz "Üçlər"[163] heyətinin tərkibinin genişlənməsinə getməyə hazır idik. Sizin də orada üzv olduğunuzu mən indi öyrənirəm. Daha sonra, şəxsən Sizin əleyhinizə musavatçıların bəyanat verdikləri haqda məlumatlı deyiləm. Məsələ müşavirlik xüsusunda isə, bunda da əleyhinizə bir söz söylənmiş deyildir. İkinci bir şəxsin namizədliyi irəli sürülmüş, bizim də ona münasibətimiz bildirilmişdir. Namizədlər olsa, bunlar münaqişə etsə, lehinə və ya əleyhinə bir söz söylənilmiş olsaydı, o zaman haqqınız vardı, giley edər, şikayət edər, məzəmmət də edərdiniz. [164]

---

[162] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[163] Parisdə üç Qafqaz respublikası – Azərbaycan, Gürcüstan və Şimali Qafqazın diplomatik missiyalarının nümayəndələrindən yaradılmış Üçlər Şurası nəzərdə tutulur.

[164] Həmin dövrdə Azərbaycan siyasi mühacirəti daxilində yenidən kəskişləşən ziddiyyətlərdən söhbət gedir. Belə ki, 1926-cı il iyulun 15-də İstanbulda Qafqaz İstiqlal Komitəsi yaradıldı. Bu qurum bütün Qafqaz mühacirətinin rəhbər orqanı kimi nəzərdə tutulmuşdu. Lakin Ə.M. Topçubaşov özünün rəhbərlik etdiyi Azərbaycan diplomatik nümayəndə heyətini "yeganə legitim təşkilat" hesab etdiyindən, Qafqaz İstiqlal

Sizin “Üçlər”də əmələn və şəxsən iştirakınızdan buradakıların xəbəri olsaydı, o zaman yenə məsələ başqalaşardı. “Kütahnəzər” [165] dediyiniz şeyin nə olduğu mənim üçün qaranlıq qaldığından, hələlik müsavatçılıq adından buna müdaxilə etmək imkanında deyiləm.

“Prometey”də[166] çalışmaqdan imtina etməyiniz nə üçündür?

“Prometey” komitənin[167] deyilmidir? Parisindir demək, nə deməkdir?

Əmin olunuz ki, bizə bu xüsuslarda təfsilat gəlməmişdir. Fəqət bəzi xüsusi şayiələrdən anlayıram ki, orada təşkilat məsələsi yenidən gündəliyə salınmış və bir tağım yeni kombinasyonlar vücuda gəlmişdir. Siz də məsələdən yalnız kinayə və işarələrlə bəhs etdiyinizdən təbii ki, aydın bir fikir bildirmək imkanında deyiləm. Bəlkə bu məsələləri bir az da aydınlaşdırmaq lütfündə bulunasınız.

“Haqqınızda edilən ədalətsizliklərin qarşısını almaq üçün nə etmək olar”? Heç olmazsa bunu izah ediniz.

“Azərbaycan” üçün qrant tapmaq məsələsinə gəlincə, bu qrant neçə növ olur? Bu işi şərəflə yerinə yetirəcək bir fransız varmı? Sonra, bu rəsmi bir firqə orqanı olduğundan, onu hər kəsin adı ilə əlaqədar etmək imkanı varmıdır? Bu qrant məcmuədə gedən materialların məzmununa təsir etməzmi?

---

Komitəsinin nəzarəti altında fəaliyyət göstərməkdən imtina etdi. Çünki Qafqaz İstiqlal Komitəsində M.Ə. Rəsulzadə və müsavatçılar üstünlük təşkil edirdi. Ə.M. Topçubaşovun həmin hərəkətini müsavatçılar Azərbaycan siyasi mühacirətini parçalamaq cəhdi kimi dəyərləndirərək, ona qarşı kampaniyaya başladılar. Çox güman ki, həmin qarşıdurma gedişində Azərbaycan nümayəndə heyətinin üzvü olan C. Hacıbəyli də müsavatçıların hücumlarına tuş gəlmişdi və bununla əlaqədar məktubda M.Ə. Rəsulzadəyə öz gileyini ifadə edirdi.

[165] qafil, əfəl, uzağı görməyən, gələcəyi düşünməyən.

[166] «Prometey” jurnalı nəzərdə tutulur.

[167] 1926-cı il iyulun 15-də İstanbulda yaradılmış Qafqaz siyasi mühacirətinin əsas koordinasiya mərkəzi – Qafqaz İstiqlal Komitəsi nəzərdə tutulur.

“Efemer” kəlməsi haqqındakı izahınıza görə təşəkkür edirəm. Tərcüməçi ilə görüşdük. O hər halda bir tərcüməçidir. Nədənsə, belə səhlənkarlıq etmiş!

Abbasqulu ağa [168] haqqında göndərdiyiniz əsəri aldım. Təşəkkür edirəm.

Mümkünsə mətbuat haqqında yazdığınızı da göndərəsiniz.

Bir də əzizim, bir fransız xanımın “Atəş burnunda” adı ilə yazdığı silsilədən mümkünsə mənə bir kolleksion tapıb da göndəriniz. Hədiyyəsini nə isə göndərrəm.

Sonra fransızca bir məcmuə, zənnimcə “İslam məcmuəsi”ndə[169], “Arşin mal alan” haqqında bir məqalə vardı. Rəsmləri də vardı. Ondan bir nüsxə mənə göndəriniz.

Azərbaycana aid fotolar və mənzərələr varsa da göndəriniz.

Bəlkə Üzeyir bəyin də Sizdə fotosu vardır. Azərbaycan haqqında yeni bir məqalə yazıram. Ona lazım olacaqdır. İmkanınız varsa tez göndəriniz.

Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma ərzi-salam edirəm.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 306-307. Məktubun əslinin faksimilesi.*

---

[168] Burada söhbət C. Hacıbəylinin “XIX əsrin əvvəlləri Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov” məqaləsindən gedir. Həmin məqalə ilk dəfə olaraq fransız oxucularını Azərbaycan tarixşünaslığının banisi hesab olunan Abbasqulu ağa Bakıxanovun (1794-1847) yaradıcılığı ilə tanış edirdi. Məqalə “Jurnal Aziatik”in 1928-ci il iyul-sentyabr nömrəsində nəşr olunub.

[169] “Revue Du Monde Musulman” jurnalı nəzərdə tutulur.

**№ 23**

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[170]

25 mart 1927-ci il
İstanbul

Pək möhtərəm Əlimərdan bəy,

Xosrov bəy[171] bundan səkkiz gün əvvəl İstanbula gəldi. Göndərdiyiniz əmanəti (beş min frankı) bu gün mənə təslim etdi. Özünə də söylədim: "Müsavat" Firqəsi bu pulu almaqdan imtina edir. Onun fikrincə, alaraq bölüşdürdüyünüz məlum pullar[172] bütünlüklə İstanbulda yaradılmış Milli Mərkəz[173] kassasına verilməlidir. Bunun üçün Xosrov bəydən aldığım göndərilən beş min frankı da Milli Mərkəz kassasına verdim. Milli Mərkəz isə bu pulları digər qisimlərin hesabatı və miqdarı müəyyən edilincəyədək depozito olaraq mühafizə edəcəkdir.

İmkandan istifadə edib, hörmətlərimi yetirirəm, əfəndim.

Məmməd Əmin Rəsulzadə.

---

[170] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb və Ədalət Tahirzadə tərəfindən tərcümə olunub.

[171] Xosrov bəy Sultanov nəzərdə tutulur.

[172] Burada söhbət 1926-cı il noyabrın 18-də Parisdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.M. Topçubaşovla "Royal Datç Şell" şirkətinin qeyri-rəsmi nümayəndəsi Raymon Damman arasında bağlanan opsion müqaviləsinin şərtlərinə görə Azərbaycan tərəfinin aldığı pullardan gedir. Müqavilənin şərtlərinə görə, Azərbaycan tərəfi Bakıdakı 25 desyatin neftli torpağa 48 illik konsessiya hüququnu Dammana güzəştə getmişdi. Azərbaycan tərəfinə 100 min frank məbləğində ilk ödəniş 1927-ci ilin fevralında edilmişdi. Məktubda M.Ə. Rəsulzadə həmin məbləğin bütövlükdə Azərbaycan Milli Mərkəzinə təhvil verilməsini tələb edir. Bu barədə daha ətraflı məlumat üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). Bakı, 2015. S. 222-228.

[173] İstanbulda 1927-ci ilin başlanğıcında siyasi mühacirətin rəhbər orqanı kimi yaradılmış Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

## № 24

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[174]

12 aprel 1927-ci il
İstanbul

Pək möhtərəm əfəndim,

29 mart tarixli təziyətnamənizi [175] aldım. Hərarətli cümlələrlə bəyan etdiyiniz duyğular dərd görmüş bit atanın[176] ağzından çıxdığı üçün atasını itirmiş bir oğulu[177] həm mütəəssir edir, həm də ona təsəlli verir. Nə edək, dözməliyik. Silsilədə bu həlqələr də varmış. Mərhumun ölüm ayağında, son nəfəsindəki duyğuları haqqındakı təsəvvürləriniz çox doğrudur. Könül arzu edərdi ki, bu qədər fəlakətdən sonra zavallı ixtiyarlarımız[178] heç olmasa bir neçə gün də olsa məmləkətin qurtuluşunu görməklə məmnun olaydılar. Fəqət qədərin [179] quruluşunda məntiq nə gəzir? O, ixtiyarlara deyil, həyata hər cür haqları olan gənclərə belə qıyır. O, kürdür.[180] Bununla belə, böyük ədalətin mövcudluğunu düşünmürük. Bu ədalətdən gözləyirik ki, şəxsimizdən [181] aldığını könlümüzə qaytarmaqla əvəzini versin.

Duyğularınıza və dualarınıza görə çox-çox təşəkkür edirəm.

---

[174] G. Mamuliyanın təqdim etdiyi bu məktub Əli Mərdan bəyə onun təziyə məktubuna cavab olaraq yazılıb. Atasının 1926-cı ilin lap sonundakı ölüm xəbəri Məmməd Əmin bəyə 1927-ci ilin martında çatdığına görə (bax: "Yeni Kafkasya", 18 mart 1927, Yıl 4, Sayı: 11-12, s.19) silahdaşları bu üzdən təziyə məktublarını belə gec göndərmişdilər. Transliterasiya və ərəb-fars mənşəli sözlərin izahı Ədalət Tahirzadəyə məxsusdur.

[175] Başsağlığı məktubunuzu.

[176] Oğlu Rəşid bəyi itirmiş Əli Mərdan bəyi nəzərdə tutur.

[177] Məmməd Əmin bəy özünü nəzərdə tutur.

[178] Qocalarımız.

[179] Fələk, tale, bəxt.

[180] Coşqundur, qəzəblidir.

[181] Bizdən.

Xüluskarınız [182] Məmməd Əmin Rəsulzadə.

**№ 25**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[183]

12 aprel 1927-ci il
İstanbul

Əzizim Ceyhun bəy!

30 mart tarixli başsağlığı məktubunuzu aldım.[184] Ata baxmayaraq ki, yaşlı idi, lakin hicran içində bu dünyadan köçməsi məni çox təəssüfləndirdi.

Zavallı son anında da bu hicrandan bəhs edə-edə gözünü dünyaya qapamışdır.

Söylədiyiniz kimi, yeganə təsəllimiz, onun[185] çox da rahatlıq və dinclik tapmadığı Vətəni düşməndən xilas etmək istiqamətində fəaliyyətlə məşğul olmaqdır.

Cənabi-həqq ölənlərinizə rəhmət eləyə. Çox təşəkkür edirəm, əzizim.

Dostunuz Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 291. Məktubun əslinin faksimilesi.*

---

[182] Sizə səmimi münasibət bəsləyən.

[183] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[184] C. Hacıbəylinin Məmməd Əmin bəyə sonuncunun atasının vəfatı ilə əlaqədar yazdığı təziyə məktubundan söhbət gedir.

[185] M.Ə. Rəsulzadə burada atasını nəzərdə tutur.

## № 26

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*[186]

8 may 1927-ci il
İstanbul

Əzizim Ceyhun!

20 aprel tarixli məktubunuzu aldım. Çox hiddətlisiniz. Aşırı hiddət haqqında Azərbaycanımızın gözəl bir zərbi-məsəlini Sizə xatırlatmaq istərəm.[187] Sonra avropalılarda da məşhur bir söz də var – "Hiddət ədalət əlaməti hesab edilə bilməz".

Yazdığınızdan anlayıram ki, Mustafa bəy[188] aldığı direktiv əsasında hərəkət eləmişdir.

Əzizim, məsələ yalnız "üç cüt, bir tək" hesab etdiyiniz "mühacirət" məsələsi deyildir. Siz də bir kərə qəbul etməlisiniz ki, düşmənin də nəzarəti altında olan mübariz bir qüvvənin əsil təmsilçilərini hesaba almadan, Azərbaycan naminə və hesabına hərəkət etmək doğru deyildir və olmaz.

"Milli Mərkəz"[189] təşkilində nəzər-diqqətə alınacaq ilk cəhət budur. Bu cəhət "İstanbul"[190] təşəkkülündə tamamilə nəzər-diqqətə alınmaqla yanaşı, digər qüvvələrə də təmsilçilik və iştirak haqqı verilmişdir. Sonra "deliqasion"[191] da kənarda qalmamış, ən möhtərəm mövqe ona verilmişdir.

---

[186] Məktub "Yeni Kafkasya" ədəbi, ictimai və siyasi-milliyyətpərvər məcmuəsinin rəsmi blankında yazılıb.

[187] "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" zərbi-məsəlindən söhbət gedir.

[188] Mustafa bəy Vəkilli (Vəkilov) nəzərdə tutulur.

[189] 1927-ci ildə İstanbulda yaradılmış Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

[190] Azərbaycan Milli Mərkəzi.

[191] Ə.M. Topçubaşovun rəhbərlik etdiyi Parisdəki Azərbaycan nümayəndə heyəti nəzərdə tutulur.

İstədiyiniz nədir? Anlamadım. Heyətdən[192] bəhs edirsiniz. Halbuki, heyətin həqiqi üzvləri tutduğunuz işlərdən xəbərsizdir. Heyətdən bir-iki kişi qala, ya qalmaya, onların da nə dərəcəyə qədər səlahiyyət sahibi olduqları sual altındadır.

Təsəvvür etdiyiniz "hədələrə" qarşı "əks-hədələr" görürəm. Bizi "qara səhifəyə düşəcək yeni faktları açıqlayacağınızla" qorxudursunuz. Fəqət "yövmül-hesab"da (qiyamət günündə) əməllərinin hesabını verməkdə çətinlik çəkəcək "kollektiv"in hər halda "İstanbul"[193] olmayacağı qənaətindəyəm. "Gürcülərə alət olmaq" haqqındakı mülahizənizə heyrət etməmək mümkün deyildir. Burada artıq hər növ obyektivliyi itirirsiniz. "Yüz milyonluq rusluğa qarşı mücadilədə" edən bir zümrənin təbii mücadilə arxadaşına lüzumsuz yerə meydan oxuması bir "vətənpərvərlik"dirsə də, hər halda çox şübhəli bir vətənpərvərlikdir.

Bəli, əzizim. Məni acı yazmaq zərurətinə sövq etdiniz. İşi çətinə salmayın. Mərkəzin təşəkkülü bir həqiqi işdir. Bu işi qəbul etdikdən sonra təfərrüat haqqında hər zaman görüşmək olur. Sizdən çox rica edirəm, şəxsi reaksiya və təəssüratınızı şişirtməyin! İşin olacağına baxın. Bu olacaqsa, Milli Mərkəzə girməmək qeyri-mümkündür.

Göndərdiyiniz fransızca qəzeti də aldım. "Üç ulduzlu" məqalə yaxşıdır. Fəqət Bağırovun[194] nitqinə aid xülasədə "Musavat" adının "kamali-diqqət[195] və etina[196] ilə" keçdiyi nəzərdən qaçmır.

---

[192] Parisdəki Azərbaycan nümayəndə heyəti nəzərdə tutulur.

[193] Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

[194] Mir Cəfər Bağırov (1896-1956) nəzərdə tutulur. M.C. Bağırov sovet Azərbaycanında müxtəlif rəhbər vəzifələrdə çalışmış, 1933-1953-cü illərdə Azərbaycan Kommunist Partiyası MK-nın 1-ci katibi işləmişdir. 30-cu illərin sonlarında milli ziyalı kadrların kütləvi məhvi ilə nəticələnən Azərbaycandakı "böyük terror" onun rəhbərliyi altında həyata keçirildiyindən İsveç tədqiqatçısı S. Kornell onu "Azərbaycanın Stalini", rus tarixçisi D. Furman isə "Azərbaycanın Beriyası" adlandırır.

[195] Xüsusi diqqət.

[196] Artıq dərəcədə əhəmiyyət vermə, səy göstərmə.

Validənin xəstəliyindən çox acıdım. Allah şəfa və fərəh versin!

Hələlik bu qədər. Ehtiramlarımı qəbul elə. Zöhrə xanıma ərzi-salam edir, uşaqların da gözlərindən öpürəm, əzizim.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 293-294. Məktubun əslinin faksimilesi.*

## № 27
*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

10 avqust 1928-ci il
[Almaniya]

Əzizim Ceyhun bəy!

7 avqust tarixli məktubunu aldım. Timurçinin [197] səhhətindəki kədərinizə səbəb olan cəhət məni mütəəssir etdi. Bununla belə, bəlkə də Siz daha artıq əlaqədar olduğunuzdan çox fikir edirsiniz. Məlum ki, müalicənin təsiri dərhal hiss olunmur. İnşaallah, tədricən yaxşı olar. Sağlamlıq arzulayıram.

Nəzərdə tutduğunuz məsələyə gəlincə[198], doğrusu Parisdən gedərkən görüşmədiyimizə görə, ələlxüsus sonradan baş qaldıran problemlər səbəbindən, xüsusilə acıdım. Əkbər ağa[199] ilə bərabər "Derpen" qəhvəsində Sizi saat 11-ə qədər gözlədik. Təəssüf ki, gəlmədiniz. Anlaşmadan doğan bütün məsələlərin avqustun sonuna kimi təslimi haqqında Əkbər ağa və

---

[197] Ceyhun Hacıbəylinin kiçik oğlu Timuçin Hacıbəyli (1921-1993) nəzərdə tutulur.

[198] Çox güman ki, burada C. Hacıbəylinin 1928-ci ilin yayında AMM-nin yenidən qurulması prosesindən kənarda qalması ilə bağlı narazılığı nəzərdə tutulur. Yenidənqurma zərurəti Azərbaycan Milli Mərkəzi (AMM) ilə Ə.M. Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti arasındakı ziddiyyətlərdən irəli gəlirdi. Ə.M. Topçubaşov AMM-də "Müsavat" partiyasının heç nə ilə əsaslandırılmayan üstünlüyünü əsas gətirərək, bu qurumun tərkibinin dəyişdirilməsini tələb edirdi. Bu yolla Ə.M. Topçubaşov AMM-ni öz nəzarəti altına almaq üçün həmin qurumdakı müsavatçıların sayını maksimum azaltmağa çalışırdı. Buna baxmayaraq, M.Ə. Rəsulzadə milli mücadilənin maraqları naminə yenə ona güzəştə getdi və AMM-nin paritet əsasda "Müsavat" və nümayəndə heyəti üzvlərindən təşkil olunmasına razılıq verdi. AMM-nin 1928-ci ilin iyununda formalaşmış yeni tərkibinə hər iki tərəfdən dörd nümayəndə daxil oldu. AMM-nə nümayəndə heyəti adından daxil olan üzvlərin arasında C. Hacıbəyli yox idi. Həm bu amil, həm də C. Hacıbəylinin danışıqlar prosesindən kənarda qalması təbii ki, qıcıq gətirən bir səbəb idi.

[199] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.

Əlimərdan bəylə[200] görüşünüzün təfsilatından və nəticəsindən mənim xəbərim yoxdur. Məsələ ilk dəfə müzakirə edilərkən Əlimərdan bəy ilə Əkbər ağa bu xüsusda israr etsəydilər, bəlkə də məsələlərin həllini bütövlükdə avqustun sonuna qoymaq mümkün olardı. Fəqət buna çox da lüzum görmədilər. Bununla belə, Sizə məlumat vermək üçün məsələləri o gün həll etmədən, qəzet müzakirələri və təsəvvürlərini Sizə bildirdilər. Siz, məncə, yazılı surətdə bəyan edə bilərdiniz. Fəqət sizdən gələn məktubdan sonra, məsələ yaxşı sonluqla bitdi.

Doğrusu, belə bir vəziyyət hasil olmuşdu. Heyət qərar vermiş məsələlərin həlli üçün gün təyin eləmiş və hal-hazırda həmin günün təxirə salınması üçün qanuni bir səbəb yoxdur.

Bununla belə, müzakirənin gedişində məsələlərin bir qisminin təxirə salınması üçün qanuni səbəblərin olduğu müəyyənləşdi və onlarla hesablaşmaq zərurəti yarandı. Bu da nizamnamə əsaslarında göstərilmiş Milli Mərkəzə qəbul qaydalarının tətbiq olunmasına aid idi. Qərara alındı ki, bu nizamnamə anlaşma əsasında Milli Mərkəz tərəfindən qəbul edilməyincə, həmin qaydalarının tətbiqinə başlanmasın. Bu səbəbdən, seçki, budcənin tənzimlənməsi, komissiyaların formalaşdırılması və büronun yaradılması məsələlərinin həlli avqustun sonuna qaldı. Milli Mərkəzə iki üzv seçilməsi haqqında heyətin qərarını təxirə salmaq üçün gətirilən dəlillər arxadaşlara tutarlı görünmədiyindən, həmin qərar icra edildi. Bu məsələdə mənim rəy vermədiyimi və bunun səbəbini də, əlbəttə, bilirsiniz.

Məsələ bundan ibarətdir. Məncə burada Sizə göz yumulması qətiyyən müzakirə mövzusu olmamışdır. Əhvalatın cərəyanı anlatdığım kimi olmuşdur.

Avqustun 25-də, inşaallah, Siz də gələrsiz, qalan məsələləri birlikdə həll edərik.

Məxfi və məhrəmanə ricanıza gəldikdə isə, bu ricanı yerinə yetirməkdən aciz bir vəziyyətdə olduğumu təəssüf və xəcalətlə söyləmək məcburiyyətindəyəm.

[200] Əli Mərdan bəy Topçubaşov nəzərdə tutulur.

İstanbuldan avqust maaşımızı hələ almamışıq. Ehtiyac o dərəcəyə gəlmiş ki, səkkiz il ərzində bacardıqları halda, indi hamı İstanbula teleqraf vuraraq, para (pul) istəmişdilər.

Qızımdan məktub aldım. Vəziyyətlərini çox pis bir surətdə təsvir eləyir, pul istəyir. Bütün varımı ki, zatən məhdud bir şey idi, oraya (Bakıya – A.B.) göndərmək məcburiyyətində qaldım. Müalicəmin sonuna on gün qalmışdır. Bu on gün ərzində pul gəlməzsə, müalicə xərclərini ödəmək üçün nə edəcəyimi düşünürəm.

Quzum, vəziyyət bu mərkəzdədir. Buna görə bütün arzuma əks olaraq yerinə yetirmək ricanı zəruri gördüyümdən acizəm. Yaxın bir imkanım olarsa, əlimdən gələni əsirgəməyəcəyimə ümidvar ola bilərsən, əzizim. Uşaqların gözlərindən öpür, Zöhrə xanıma ərzi-hörmət edirəm.

Müvəffəqiyyət təmənnası ilə.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 296-299. Məktubun əslinin faksimilesi.*

## № 28

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[201]

20 noyabr 1928-ci il
İstanbul

Pək möhtərəm Əli Mərdan bəy!

"Müsavat" firqəsinin idarə heyətində baş vermiş bir dəyişiklikdən sonra MM-də[202] firqəni təmsil edənlərdən bəziləri müxalifətə keçmiş ve MM-i tərk etmək məcburiyyətinə düşmüşlər.[203] Bu dəyişiklik, ilk növbədə, nümayəndə heyətilə anlaşma maddəsinden irəli gəlir.[204] Bu münasibətlə bəzi intriqalar davam edir. Ehtimal ki, bu intriqa oraya da təsir etmişdir. Bu kimi intriqalara əhəmiyyət verməmənizi rica ilə və MM-in 26 iyun anlaşmasına[205] sadiq qalaraq, öz fəaliyyətimdə

---

[201] Məktub G. Mamulianın şəxsi arxivindən götürülüb.

[202] Azərbaycan Milli Mərkəzi (AMM) nəzərdə tutulur.

[203] Burada söhbər "Müsavat" partiyasının rəhbər orqanı - Xarici Bürosunun iki üzvünün – X. Xasməmmədovla Ş. Rüstəmbəylinin partiyadan ayrılaraq yeni təşkilat yaratmaq cəhdindən gedir. Hər iki şəxs Azərbaycan Milli Mərkəzində "Müsavat"ı təmsil etdiklərindən bu böhran avtomatik olaraq AMM-ə keçmişdi. Partiyanı parçalamaq cəhdlərinə görə X. Xasməmmədov və Ş. Rüstəmbəyli "Müsavat" sıralarından xaric olunmuş və onların Milli Mərkəzdən geri çağrılmaları haqqında qərar qəbul edilmişdi. Bu barədə daha ətraflı məlumat üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). S. 256-258.

[204] Burada "Müsavat"la Parisdəki Azərbaycan nümayəndə heyəti arasında 1928-ci ilin iyununda əldə olunmuş anlaşma nəzərdə tutulur. Həmin anlaşmaya əsasən Azərbaycan Milli Mərkəzi paritet əsaslarla (hər birindən 4 nümayəndə olmaqla) "Müsavat" və nümayəndə heyəti üzvlərindən təşkil olunmalı idi. Lakin sonradan X. Xasməmmədovla Ş. Rüstəmbəyli "Müsavat" sıralarını tərk etdiklərindən, avtomatik olaraq AMM-də təmsilçilik hüquqlarını itirmişdilər.

[205] Söhbət "Müsavat" partiyası ilə Parisdəki Azərbaycan nümayəndə heyəti arasında 1928-ci il iyunun 26-da əldə olunmuş anlaşmadan gedir. Həmin anlaşmaya əsasən, Azərbaycan Milli Mərkəzinin tərkibinə hər iki tərəfdən dörd nümayəndə daxil olmalı idi.

davam etdiyimə əmin olmalısınız. Təfsilatı yaxınlarda Parisə gələcək Mustafa bəydən[206] öyrənərsiniz.

Böyük ehtiramla,

Məmməd Əmin Rəsulzadə

[206] Mustafa bəy Vəkilli (Vəkilov) nəzərdə tutulur.

## № 29

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[207]

4 dekabr 1928-ci il
İstanbul

Pək möhtərəm Əli Mərdan bəy!

27 noyabr tarixli müştərək məktubunuzu aldım. M.Y. Mehdiyevlə [208] Əkbər ağanın [209] buraya [210] gəlmələri çox təbiidir. Zatən mənim MM-ə qəbul etdirdiyim ve bir nüsxəsini də sizə göndərdiyim tezlerde (tezislərdə - A.B.) butun aranın iştirakı ilə bir konğra toplanmasını tez etmiştim.

Arxadaşlar haman vizalarını tedarük etməktə olsunlar ve bu xüsusda mənə də məlumat versinlər ki, vizanın tez alınmasına yardım edə bilim.

Yol xərclərinin göndəriləcəyi də təbiidir. Bundan əvvəlki məktubumda heyətə yardım məqsədilə 6000 frank göndəriləcəyini də xəbər vermişdim; fəqət hal-hazırda Əbdül Əli bəy[211] burada olmadığından, hələlik həmin yardımın göndərilməsi mümkün deyildir.

Hər halda arxadaşlar vizanı tedarük etsinler, ondan sonrası yaxşı olacaq.

Böyük ehtiramla,

MM-nin Baş katibi M.Ə. Rəsulzadə

P.S. Məktubunuzda qeyd etdiyiniz 12 noyabr tarixli məktubunuz mənə gəlib çatmamışdır. Məmməd Əmin

---

[207] Məktub G. Mamulianın şəxsi arxivindəndir.
[208] Mir Yaqub Mehdiyev nəzərdə tutulur.
[209] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.
[210] İstanbul nəzərdə tutulur.
[211] Əbdül Əli bəy Əmircanov (1870-1948) – 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyini elan etmiş Milli Şuranın üzvü, AXC parlamentində millət vəkili. AXC-nin 2-ci hökumət kabinəsində əvvəl maliyyə naziri, sonra isə dövlət müfəttişi vəzifələrini tutmuşdur. Aprel işğalından (1920) sonra İstanbula mühacirət etmiş, Azərbaycan Milli Mərkəzinin üzvü olmuşdur.

## № 30

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[212]

9 dekabr 1928-ci il
İstanbul

Pək möhtərəm Əli Mərdan bəy!

4 dekabr tarixli müştərək məktubunuzu aldım; əvvəlki cavab məktubumda da qeyd etdiyim kimi, 12 noyabr tarixində göndərdiyiniz məktub barədə MM [213] katibliyində, ümumiyyətlə, məlumat yoxdur.

Əkbər ağa[214] ilə Mir Yaqub[215] bəylərin buraya gəlmələri üçün zəruri olan yol xərclərinin göndərilməsi Əbdül Əli bəyin[216] səyahətdən qayıtması ilə bağlıdır.

Təşkil olunduğu zaman Milli Mərkəzin müəyyən şəxslər arasında bir birləşmədən ibarət kimi qəbul edilməsinin yanlış bir mövqe olduğunu vurğulamaq məcburiyyətindəyəm. Bu birləşmə "Müsavat" firqəsindən dörd, bitərəfərlərdən bir, sosialist qrupu ilə digərlərinin hərəsindən bir nümayəndə, eləcə də nümayəndə heyətinin rəisi daxil olmaqla vücuda gəlmişdir. Bu səbəbdən də, MM-də "Müsavat" firqəsini təmsil edən nümayəndəni firqənin dəyişmək hüququ olduğunu qəbul etmək zərurəti vardır. Firqənin MM-ə verəcəyi yeni nümayəndənin şəxsiyyətinə gəlincə, fırqədən olmayan bu və ya digər şəxslər ona öz münasibətlərini bildirmək hüququna malikdirlər. [217]

---

[212] Məktub G. Mamulianın şəxsi arxivindəndir.
[213] Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.
[214] Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.
[215] Mir Yaqub Mehdiyev nəzərdə tutulur.
[216] Əbdül Əli bəy Əmircanov nəzərdə tutulur.
[217] Məktubda X. Xasməmmədovla Ş. Rüstəmbəylinin "Müsavat" sıralarını tərk etmələrindən sonra Azərbaycan Milli Mərkəzində (AMM) yaranmış vəziyyət şərh olunur. Bundan sonra Xasməmmədov və Rüstəmbəyli AMM-dən geri çağırıldılar və "Müsavat" partiyasının digər üzvləri ilə əvəzləndilər. Lakin onlar AMM-ə partiyadan deyil, fərdi əsaslarla daxil olduqlarını iddia edərək, "Müsavat"ın onları AMM-dən çıxarmaq hüququnun olmadığını iddia edirdilər. Ə.M. Topçubaşovun X. Xasməmmədovla Ş. Rüstəmbəylini

Davamlı olaraq, Mir Yaqub və Əkpər bəylərin İstanbula gəlişini təqdir edir və intizarla gözləyirik, əfəndim.

MM Baş katibi M.Ə. Rəsulzadə

P.S. 12 noyabr məktubunun bir nüsxəsinin göndərilməsini ayrıca rica edirəm, əfəndim. Məmməd Əmin

---

dəstəkləməsi vəziyyəti daha da çətinləşdirdi və AMM-nin fəaliyyətini iflic etdi. Yalnız M.Ə. Rəsulzadə və polşalıların səyləri nəticəsində vəziyyəti normallaşdırmaq mümkün oldu. Bu barədə daha ətraflı məlumat almaq üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). S. 255-261.

**№ 31**

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[218]

11 fevral 1929-cu il
İstanbul

Milli Azərbaycan Mərkəzi üzvlərindən Topçubaşov Əli Mərdan bəy əfəndiyə!

Milli Azərbaycan Mərkəzinin 10 fevral tarixli iclasında müzakirə olunan Milli Azərbaycan Mərkəzinin nizamnamə layihəsinin bir surətini zati-alilərinə göndərərək, aldığınız tarixdən etibarən bir həftədən artıq təxirə salmadan öz mülahizələrinizi bildirməyi rica edirəm. Layihənin müzakirəsi gedişində Milli Azərbaycan Mərkəzinin İstanbuldakı qurumu tərəfindən aşağıdakı formulun birlikdə qəbul edildiyini də məlumat üçün qeyd edirəm.

Formul:

"Milli Mərkəzin nizamnamə layihəsini təşkil edən əsas maddələri qəbul üçün münasib bilməklə bərabər, Milli Mərkəz göstərilən məsələ haqqında son qərarın verilməsini xaricdəki üzvlərin bu məsələ barəsindəki mülahizələrinin yazılı şəkildə alınmasına qədər təxirə salır. Bununla bərabər, sizin məlumatlı olmağınız üçün Milli Mərkəzin fəaliyyəti barədə bəzi iştirakları da göndərirəm.

Böyük ehtiramlarımın qəbulunu rica edirəm.

Milli Mərkəzin Baş katibi

M.Ə. Rəsulzadə

Ünvan: İstanbul, Yerebatan, Şengül sokak, Yalcusu noktası.

---

[218] Məktub G. Mamulia tərəfindən təqdim olunub.

## № 32

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

9 mart 1929-cu il
İstanbul

Əzizim Ceyhun bəy!

Milli Mərkəzin 3 martda qəbul etdiyi qərara əsasən, nümayəndə heyəti üzvlərindən ən çox ehtiyacı olanlardan Sizə, Miryaqub və Əkbər bəylərə yardım olaraq, keçən aylar da hesablanmaqla, 12000 frank (960 lirə) miqdarında vəsait verilməsi imkanı yaranmışdır. Bu məbləğdən hissənizə düşən 320 lirənin adınıza həvalə ilə yetişməsinin xəbərini mənə çatdırmağınızı rica edirəm.

Hələlik bu qədər. Əzəli böyük hörmətlərimin qəbulunu və Zöhrə xanım əfəndiyə salamlarımın çatdırılmasını ayrıca rica ilə uşaqların gözlərindən öpürəm, əzizim.

İki gün sonra "Odlu Yurt" məcmuəsi[219] nəşr olunacaqdır.

Hələlik bu qədər.

Məmməd Əmin

P.S.

İnformasiya bürosu, daha doğrusu mətbuat bürosu nə haldadır? Büro fəaliyyət edə biləcək bir haldadırsa, Sizə informasiyalar göndərim.

Məmməd Əmin

Quzum, Sizdən bir rica edəcəyəm. Üzeyir bəyin bəstələdiyi Azərbaycan himnini keçən 18 mayda orada olarkən dinlədik. Sizdəki notunun bir surətini mənə göndərmənizi rica edirəm.

Məmməd Əmin

Göndərdiyim yardımın frankla miqdarı - 4016 frankdır. Köçürmə nömrəsi: Osmanlı bankı 5287 və tarixi 5/3-1929-dur.

---

[219] M.Ə. Rəsulzadə tərəfindən 1929-1931-ci illərdə İstanbulda nəşr olunan ictimai-siyasi toplu. Əsas məramı Azərbaycan istiqlalı ideyasının təbliği olub. Daha ətraflı məlumat üçün bax: *Sebahattin Şimşir*. Azerbaycanın İstiklal Mücadelesi. İstanbul, 2006. S. 60-65.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 313. Məktubun əslinin faksimilesi.*

## № 33

*M.Ə. Rəsulzadənin Ə.M. Topçubaşova məktubu*[220]

18 mart 1929-cu il
İstanbul

Parisdəki Azərbaycan nümayəndə heyətinin (ANH) rəhbəri Əli Mərdan bəy əfəndiyə,

ANH-nin rəyasət heyətinə

M. Yaqub[221], M. Məhərrəm[222] və Abbas[223] bəylər tərəfindən 9 mart 1929-cu il tarixdə göndərilən müştərək müraciəti muzakirə edərək, AMM[224] 17 mart 1929-cu il tarixli iclasında aşağıdakı qərarı qəbul etmişdir:

"M. Yaqub, Məmməd Məhərrəm ve Abbas bəylərin 09.03.1929 tarixli hesabatlarını dinlədikdən və bu münasibətlə verilən izahatı nəzərə aldıqdan sonra, AMM nümayəndə heyətinin rəhbəri Əli Mərdan bəyə bir məktub yazılması qərarına gəlmişdir. 21 iyul 1928-ci il tarixli heyətə qəbul haqqında sənədin, eləcə də AMM tərəfindən təsdiq olunmuş nümayəndə heyəti nizamnaməsinin 8-ci maddəsinin tələblərinin icrasını təmin etmək məqsədilə, bütün maliyyə hesabatının mövcud kassir M. Məhərrəm bəyə təslim edilməsi tələb olunsun. Həmçinin, Damman[225] ilə bağlanmış opsion müqaviləsinin

---

[220] Məktub G. Mamulia tərəfindən təqdim olunub.

[221] Mir Yaqub Mehdiyev nəzərdə tutulur.

[222] Məmməd Məhərrəmov nəzərdə tutulur.

[223] Abbas Atamalıbəyov nəzərdə tutulur.

[224] Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

[225] 1926-cı il noyabrın 18-də Parisdə Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.M. Topçubaşovla "Royal Datç Şell" şirkətinin qeyri-rəsmi nümayəndəsi Raymon Damman arasında bağlanan opsion müqaviləsi nəzərdə tutulur. Müqavilənin şərtlərinə görə, Azərbaycan tərəfi Bakıdakı 25 desyatin neftli torpaq üzərində 48 illik konsessiya hüququnu Dammana güzəştə gedirdi. Əvəzində isə Topçubaşova mütəmadi olaraq Damman tərəfindən müəyyən məbləğdə vəsait ödənilirdi. Bu məktubda konkret olaraq Topşubaşovun 1929-cu ilin fevral və mart aylarında aldığı 75 min frankdan

müddətinin, hesabatda göstərildiyi kimi, uzadılması baş vermişsə, 26 iyun 1928-ci il tarixli anlaşmanın 6-cı fəslinə müvafiq olaraq, bu haqda AMM-nin məlumatlandırılması zərurəti bir daha tələb edilsin".

Buna görə də, Dammandan alındığı xəbər verilən vəsait haqqında məlumat verməniizin, eləcə də artıq alınmış və alınacaq məbləğin kassirə təslim edilməsinin təbii olduğunu qeyd etməklə bərabər, "uzadılma" məsələsi xüsusumda da izahat verməniizi rica ile, ehtiramlarımı bildirirəm, əfəndim.

AMM Baş katibi,

M.Ə. Rəsulzadə

---

söhbət gedir. Həmin vəsaitin hara xərclənməsi haqqında AMM-nin məlumatlandırılması tələb olunur. Bu barədə daha ətraflı məlumat üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). Bakı, 2015. S. 222-228.

## № 34

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

7 may 1929-cu il
İstanbul

Əzizim Ceyhun bəy!

Göndərdiyiniz notu[226] aldım. Çox təşəkkür edirəm. Mümkünsə, onun sözlərini də göndərin.

31 mart tarixli məktubunuza vaxtında cavab vermək mümkün olmadı. İndi artıq bu məsələ həll edilmişdir. Nə əla ki, bunun həllində Siz də şəxsən iştirak etmisiniz.

"Əl-Xeyr fi mavəqə" deyirlər.

Tərcüməsi: Hadisə baş verMədən xeyir olmaz.

İndi artıq fəaliyyətə başlanmalıdır. İşlər intizama gətirilməlidir.

Məcmuəni[227] Sizə göndəririk. Yəqin ki, alırsınız. Ara-sıra yazsanız məmnun olarıq.

Quzum, yeri gəlmişkən bir şeyi qeyd etməliyəm. Mən burada bəzi yazılarıma əvvəldən bəri "Azəri" imzasını qoyuram. Siz də orada "Azəri" imzası ilə yazırsınız. Bu isə dolaşığa səbəb ola bilər. Bunu tənzim edəməzmisiniz?

Hələlik bu qədər. Öz salamlarımı yetirirəm. Zöhrə xanıma ərzi-hörmət. Uşaqların gözlərindən öpürəm.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 239. Məktubun əslinin faksimilesi.*

---

[226] Azərbaycan himninin notları nəzərdə tutulur. Bax: 30 №-li sənəd.

[227] M.Ə. Rəsulzadə tərəfindən 1929-1931-ci illərdə İstanbulda nəşr olunan "Odlu Yurt" ictimai-siyasi toplusu nəzərdə tutulur. Onun əsas məramı Azərbaycan istiqlalı ideyalarının təbliğindən ibarət olub.

## № 35

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

17 fevral 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Sizin məktubunuza bir az təxirlə cavab verirəm. Qüsura baxmayın. Bu günlər çox məşğul idm. Bilmədiyim bir dildə bir kitabça çapı ilə məşğul idim. Eyni zamanda, bu kitabçanı həmin dili bilməyən bir yerdə nəşr etdirirdim. Çətinlikləri və məşğulluğumu artıq təsəvvür ediniz. İşin içində tələsiklik də var idi. Millətlər Liqasının yeni sessiyasına çatdırmaq zərurəti. Nə qədər müvəffəq olmuşamsa, hökm etmək mənə çətindir. Hər-halda nöqsansız deyildir. Mətləb anlaşılarsa yetər, deyə təsəlli tapıram.

Sizin haqqınızda dərhal İstanbula yazdım. Mümkün olanı edəcəklərinə ümid edirəm. Əvvəlki məsələləri həll etmək üçün görüşüləcək şəxs burada deyildir. Cenevrəyə getmişdir. Bu günlərdə qayıdacaqdır. Görüşərik, nəticəsini Sizə söylərəm.

Miralay [228] vəzifəsinə görə bugünlərdə çox məşğuldur. Onunla görüşəndə işarə eydiyiniz cəhəti anladım.

Zənn edirəm ki, qalın bir məcmuə nəşri haqqında buğunlərdə bunlardan[229] vəsait ummaq mümkün olmayacaq. Bütün imkanlarını seçkilərə toplayırlar. [230]

İmkan olarsa, nə əla!

Sizə İstanbuldan Bakı qəzetlərini göndərməyi nəzərdə tutmuşam. Mümkün olsa.

Mirzə isə bu xüsusda çox qısqancdır. Mənbələri saxlayır. Onları ondan istəmək çətindir. Mənim imkanım olsa, ara-sıra Sizə qəzetlər göndərərəm. Sizə vaxtı ilə gəlirdi, nə oldu?

---

[228] Polşa orusunda xidmət edən polkovnik İsrafil bəy İsrafilbəyov (1886-1945) nəzərdə tutulur.

[229] Polşalılar nəzərdə tutulur.

[230] Söhbət 1930-cu ildə Polşada Seym və Senata keçirilən seçkilərdən gedir.

Mən burada Azərbaycan haqqında bir kitabça hazırlayıram.[231] Əlyazması hazır kimidir. Ancaq onu fransızca və türkcəyə[232] çevirmək lazımdır. Bilmirəm, fransızcasının tərcüməsini öz öhdənə götürərsənmi? Bu tərcümədən gözüm çox qorxmuşdur. İstanbulda çox yaxşı bir mütərcimim vardır.

Göndərdiyiniz məqalələri aldım. Azərbaycan haqqında çıxan məqalələrinizi dərhal mənə göndərin.

Məncə, Sizin sahəniz "Frans oryan" məcmuəsi[233] olmalıdır. Azərbaycan hissəsinin istədiyiniz şəkildə tənzimi az iş deyildir. Burada çalışmanızın ehtiyaclarını təmin etməyi Sizə söz verirəm. Bu məsələ burada hal-hazırda müzakirədədir. Üzvlük parası da məcmuənin nəşri üçün hissəmizə düşər. Təmin etmək mümkün olur.

Hələlik bu qədər. Mənim salamlarımı yetirin. Uşaqların gözlərindən öpürəm. Zöhrə xanım əfəndiyə də salamım vardır.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 326-327. Məktubun əslinin faksimilesi.*

---

[231] Çox güman ki, M.Ə. Rəsulzadənin 1930-cu ildə Parisdə fransız dilində nəşr olunmuş "l' Azerbaidjan en lutte pour lindependance" (Azərbaycan müstəqillik uğrunda mübarizədə) kitabı nəzərdə tutulur. Həmin kitab daha sonra, 1938-ci ildə Varşavada polyak dilində də çap olunub.

[232] Türkiyə türkcəsi nəzərdə tutulur.

[233] "Fransa-Şərq" komitəsinin (Comité "France-Orient) rəsmi bülleteni nəzərdə tutulur. Fransızca "Bulletin officiel du Comité "France-Orient" adlanır. 1913-cü ildə Fransanın baş naziri R. Puankarenin təşəbbüsü ilə yaradılan və Fransa Xarici işlər nazirliyinin himayəsi altında fəaliyyət göstərən Komitənin əsas məqsədi Fransa ilə Yaxın Şərq, Şərqi Avropa və Şimali Afrika ölkələri arasında siyasi və iqtisadi əlaqələrin inkişafına dəstək verməkdən ibarət olub. 1918-ci ildə keçmiş Rusiya imperiyası ərazisində yeni müstəqil dövlətlər yarandıqdan sonra Komitənin tərkibində Ukrayna və Qafqaz bölmələri təsis olunub. Azərbaycanı bu təşkilatda Abbas Atamalıbəyov təmsil edib. Komitə müntəzəm olaraq konkret ölkələrə həsr olunmuş konfranslar təşkil edib və nəşriyyat fəaliyyətilə məşğul olub.

## № 36

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

14 iyun 1930-cu il
Varşava

Əziz və möhtərəm Ceyhun bəy!

7 iyun 1930-cu tarixli məktubunuzu aldım. "Əlimərdan bəyin artıq ixtiyarlaşmış (qocalmış) və iradə cəhətdən də çox müstəqil olmadığı" qənaətinə gələrək, idarə etdiyim Milli Mərkəzlə səmimi-qəlbdən ortaq çalışmalara hazır olduğunuzu təsdiq edən bu məktubunuz məmnunluğuma səbəb oldu. Ə.M.[234] xüsusunda Mir Yaqub bəy ilə bir şəkil əldə etmək haqda danışırsınız. Yəqin ki, bir formul əldə edərsiniz. Hər halda əldə edilmiş formulun bundan sonra "tarixi bir daha əvvəldən başlamaq imkanlarını" indidən qeyri-mümkün edəcək bir məna və mahiyyətdə olmasına əhəmiyyət verilməsini rica edirəm.

Bunu biliniz ki, Ə.M. bəyin şəxsiyyətinə qarşı bir hissi-layiq və ya bir tədbir düşünən yoxdur. Məsələ indi Sizin də gəldiyiniz qənaətdədir. İradə süstlüyü və ya yoxluğu məsələsidir.

Tarixin bu kimi xüsuslarda tətbiq etdiyi formullar bəllidir. Ə.M. bəy üçün işin içindən böyük hörmətlə çıxmaq imkanları yaradıldı. Fəqət o özü bu imkanları qiymətləndirmədi. İndi Sizin də təsirinizlə yolun çıxarına gedərsə, əla!

Bu xüsusda şəxsən Sizin konkret olaraq nə düşündüyünüzü bilmək istərdim.

Hələlik bu qədər. Hörmətlə əllərinizi sıxır, Zöhrə xanımın əllərindən və uşaqların gözlərindən öpürəm, əzizim, əfəndim.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 315. Məktubun*

[234] Əli Mərdan bəy Topçubaşov nəzərdə tutulur.

*əslinin faksimilesi.*

**№ 37**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

7 iyul 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Özümü müqəssir hesab edirəm. 21 iyun tarixli məktubunuza ancaq indi cavab yaza bilirəm. Rica edirəm, bunu başqa yerə yozmayasınız. Xəstə idim. Dişim şişmişdi. Əməliyyata ehtiyac hasil oldu. Bir həftə onunla məşğul oldum. Sonra o keçər-keçməz qulağım şiddətlə ağrımağa başladı. Beş gün də onunla əlləşdim. İndi də üç gündür qripə düçar olmuşam. Buna görə heç yerə çıxa bilmirəm. Bu məktubu da havanın isti vaxtında qapalı otağda yazıram. Nə isə, buraya gəlib-gələli heç bir rahatlıq görmədim. Bu günə qədər mədəm belə normal olmamışdır. Parisdə olarkən iki kilo arıqladım. Buranın iqlimi bataqlıq!

Əli Mərdan bəy haqqında Sizin yazdıqlarınızdan artıq elə bir məlumata malik deyiləm. Vəziyyəti həqiqətən də elədirsə, bu təəssüfə layiqdir. Bu gün söylədiyini iki il əvvəl söyləsəydi, haqqınız vardı.

Sizin Əli Mərdan bəylə əlaqədar olmayıb, öz müqəddaratınızı şəxsən təyin edərək, bundan sonra tam səmimiyyətlə bizimlə əməkdaşlığa hazır olduğunuz haqqındakı bəyanatınıza məmnun oldum. [235] Bizimlə həmrəy olduğunuza təşəkkür edirəm.

---

[235] Ə.M. Topçubaşovun rəhbərlik etdiyi Parisdəki Azərbaycan nümayəndə heyətilə Milli Mərkəz arasındakı qarşıdurmada C. Hacıbəyli Əli Mərdan bəyi sonadək müdafiə edən faktiki olaraq yeganə şəxs olub. Lakin 1930-cu il yayın əvvəlində Ə.M. Topşubaşovun Ankaradakı Türkiyə rəsmilərinə göndərdiyi donos xarakterli məktubun üzə çıxması ilə vəziyyət kökündən dəyişib. Həmin məktubda M.Ə. Rəsulzadə, "Müsavat" partiyası və Polşa nümayəndələri haqqında böhtan xarakterli məlumatlat yer almışdı. Bundan sonra C. Hacıbəyli Ə.M. Topçubaşovu müdafiə etmək üçün son arqument-

Yəqin ki, bu mövqeyinizdən Mir Yaqub bəyin də xəbəri vardır. Ona da xəstə olandan bəri məktub yazmadım. Ondan da bugünlərdə az-az xəbər alıram. Hər halda zərurət yaranarsa, bu bəyanatınızı rəsmi surətdə də M.M.[236] adına göndərməkdən imtina etməssiniz, zənn edirəm. Şəxsən mənim üçün bu məktubunuz da kifayətdir.

Təcili məsələ həddi-zatında mühümdür. İyulun 14-də London konfransına getmək fikirindəydim. Lakin indiki vəziyyətimdə buna qətiyyən imkan yoxdur. Bəlkə bir məruzə göndərməklə kifayətləndim.

Digər məsələni, İstanbulda olan əhvali-ruhiyyəni aradan qaldırmaq üçün, lazım bilsəm, təşəbbüsə hazır olduğunuzu, düzü, anlamadım. Bunu lütfən daha aydın yazarsınız.

Sizə yardım məsələsinə gəlincə, bu məsələnin köklü həlli təbiətən təşkilat ilə münasibətinizin qəti surətdə aydınlaşmasına bağlı olmaqla bərabər, təsvir etdiyiniz vəziyyəti nəzərə alaraq, Sizə dərhal şəxsən yardım etmək istərdim. Təəssüflər olsun ki, bugünlərdə buna qətiyyən imkanım yoxdur. Hər halda bu məsələni İstanbula yazaram. Şübhəsiz, bir həll yolu tapmağa çalışaram.

Məktubunuzu gözləyirəm. Mir Yaqubla müzakirəniz nə yerdə qalmışdır?

Hələlik bu qədər. Uşaqların gözlərindən, Zöhrə xanımın əllərindən öpür, sənə də salamlar göndərirəm, əzizim.

Məmməd Əmin

P.S. “Frans-oryanı” da aldım. Yaxşı materialdır. “Odlu Yurt”-un son nüsxəsində yeni bir məlumat olacaq. Onlardan istifadə edə bilərsiniz.

---

lərdən də məhrum olaraq, Milli Mərkəzlə münasibətlərini normallaşdırmaq xəttini tutub. Həmin hadisələr haqqında daha ətraflı məlumat almaq üçün bax: *G. Mamulia, R. Abutalıbov*. Odlar Yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə. Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945). S. 272-274.

[236] Mir Yaqub Mehdiyev nəzərdə tutulur.

*M.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 316-317. Məktubun əslinin faksimilesi.*

## № 38

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

21 iyul 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Məktublarınıza bir-iki gün gec cavab verməyimin səbəbi Sizə az da olsa bir miqdar pul göndərmək imkanı əldə etmək ehtiyacı olmuşdur. Uşaqların xəstəliyindən dolayı duyduğunuz ailəvi acılarda candan iştirak edirəm. Bu xüsusdakı kədərinizi azaltmaq üçün istədiyiniz maddi yardımı tam həcmdə əldə etməyə, həqiqətən də, aciz olduğuma əmin ola bilərsiniz. Bununla belə, 500 frank göndərdim. Mir Yaqub bəyə müraciətlə ala bilərsiniz. Nə etməli? Bu qədər bacara bildim.

Siyasi məsələlərə gəlincə;

Əzizim, doğrudur. Siz söyləyir, mən də inanıram. İş ikimizin işi olsaydı bu kifayət edərdi. Halbuki iş müştərək, kollektiv və təşkilatıdır. Siz Parisdəki heyətin bir üzvüsünüz. Şübhəsiz ki, kollektivin əksəriyyətinin çıxardığı qərarları qəbul edərsiniz. Sonra Əli Mərdan bəy gərək heyətin və gərək də Milli Mərkəzin səlahiyyət və göstərişlərinə itaətsizlik göstərir. Onun siyasi və maliyyə xarakterli demarşlar etmək səlahiyyətinin olmadığını, əlbəttə, etiraf və bəyan edirsiniz. Sonra mənə yazdığınızdan anladığım qədər, Milli Mərkəzin rəhbər bir müəssisə sifəti ilə bütün təşkilatın, o cümlədən də heyətin üstündə səlahiyyət sahibi olduğunu qəbul edirsiniz. Bunda kimsənin lənət və yaxud ehtimadsızlığını görmək doğru olmaz. Bu cəhətləri açıqlasanız, o zaman təşkilat ilə münasibətləriniz aydın olar. Bu aydınlıq nəticəsində digər xırda məsələr də öz-özünə həll olunar. O zaman Milli Mərkəz də, arxadaşların ortaq səyləri ilə birlikdə, büdcəsini ona uyğun tənzim edər.

Əli Mərdan bəy haqqında yeni direktivlər almadım. Siz, onun əhvalına baxmadan, ona söylənəcək sözləri söyləməli

idiniz. Bəlkə Əli Mərdan bəy yeni direktivlər almış və postdan[237] çıxmışdır? Hər halda onun bir dəstə "dəllal"lar və "baqqallar"la etdiyi "alış-veriş" xəbərləri gəlir ki, bu xəbərlər də, zənn edirəm, ona qarşı qəbul olanacaq tədbirləri onun lehinə çevirməyəcək. [238]

Bilirsiz ki, biz Qafqaz İstiqlal Komitəsinə daxilik və onu təşkil edən zümrələrlə hazırda ittifaqdayıq. Buna görə də bu təşkilata zidd və ya oxşar təşkilata iştirakımız qətiyyən mümkün deyil. Sizin də bu tip təkliflər qarşısında bu cür hökm verməniz təbiidir.

Zənn edirəm ki, məktubunuzda nəzərdə tutulan məsələlərə cavab verdim.

Sizə tövsiyəm budur ki, Mir Yaqub ilə görüşüb, bütün formal məsələləri bitirin.

Hələlik bu qədər. Gözlərindən öpür, uşağa afiyət təmənna edirəm, əzizim.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 319-320. Məktubun əslinin faksimilesi.*

---

[237] Parisdəki Azərbaycan nümayəndə heyətinin rəhbəri postu nəzərdə tutulur.

[238] Burada Ə.M. Topçubaşovun X. Sultanov, H. Bammat, A.Asatiani ilə birlikdə Qafqaz İstiqlal Komitəsi və "Prometey" hərəkatına qarşı paralel strukturlar yaratmaq cəhdindən gedir. Bu haqda daha ətraflı məlumat almaq üçün bax: *А. Балаев*. Мамед Эмин Расулзаде. На чужих берегах (1922-1943). М., 2013. С. 128.

**№ 39**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

8 avqust 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Sizin məktubunuza bir az gec cavab verirəm. Düşündüm ki, bəlkə Mir Yaqub[239] mənlə görüşər, Siz də qəti bir nəticəyə gələrsiniz və məsələnin bütün formal tərəflərini elə birdən həll edərik. Fəqət görünür ki, bizi gözləmək çox sürəcək. Onun üçün Sizə yazıram.

26 iyul tarixli məktubunuzda deyirsiniz ki, "nə formal məsələ varsa, mənə dərhal bildirin, mən yerinə yetirim. Dəxi nə edəcəyinizin sıxıntısını çəkməyin."

Heyət üzvləri[240] mənə yazdıqları rəsmi məktubda Sizin məsələyə aid arzularını olduqca aydın şəkildə belə bildirilmişlər:

"İçimizdəki hər növ münaqişə və ixtilafları birdəfəlik aradan qaldırmaq üçün bircə lazımdır ki, Ceyhun bəy özü qəti surətdə Əli Mərdan bəy ilə hal-hazırda əlaqədar olmadığını və gələcəkdə də heç bir vəchlə onunla getməyəcəyini, eyni zamanda, onun, yəni Əli Mərdan bəyin heyət adından siyasi və maliyyə xarakterli demarşlarda iştirak etmək hüququnun olmadığını bəyan etsin. Habelə, heyətin əksəriyyətinin qərarlarına tabe olacağını, aparıcı bir təşkilat olmaq üçün Milli Mərkəzin də bu heyətə rəhbərlik etmək səlahiyyətinin olduğunu qəbul etdiyini açıq şəkildə bildirsin. Eyni-zamanda, Əli Mərdan bəyin əməli fəaliyyətinin milli işlərə yönəldilməsinə dəstək versin və müxalifətlə hər növ rabitəsini də söyləsin".

Xüsusi məktubunuzda bütün bunları qəbul edirsiniz. Yalnız Əli Mərdan bəyin demarş yapmaq haqqındakı səlahiyyətinə

---

[239] Mir Yaqub Mehdiyev nəzərdə tutulur.

[240] Parisdəki Azərbaycan nümayəndə heyətinin üzvləri nəzərdə tutulur.

münasibətdə bir az tərəddüd etdiyiniz nəzərə çarpır. Çünki "heyət və ya bir hissəsinin" deyirsiz. Bu "bir hissəsi" qeydi məncə artıqdır və Sizin işinizə yaxşı bir təsir göstərməz.

Məncə, Siz indi yuxarıda qeyd olunan mahiyyətdə bir bəyannamə ilə Milli Mərkəzin sədri kimi mənə müraciət etsəniz, artıq məsələ həll olunar və o zaman mən də təkrar İstanbula yazaraq, Sizə yenidən budcədə maaş nəzərdə tutulmasını qəti şəkildə tövsiyə edərəm.

Əvvəlki məktublarımda Sizin mənə yazdığınız xüsusi məktubların da mənim üçün gəldiyini qeyd etmişdim. Fəqət iş arxadaşlıq işi olduğundan və Sizin üçün də elə bir fərqi olmadığından, bu formallıqları icra etmənizi tövsiyə edirəm.

Hələlik bununla kifayətlənir, cavabınızı gözləyirəm.

Əzizim, əfəndim, uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma salam edirəm.

Məmməd Əmin

P.S. Bu məktubu Sizə göndərmək üzrə ikən Parisdən heyətin bir protokolunu aldım. Orada Əkbər ağanın[241] məlumatından bəhs olunur. Mən Parisdə konfransda olarkən heyətin polisə müraciətlə mənim konfransımın qarşısını almaq üçün bir təşəbbüsü olmuşdur. Bu təşəbbüslə Siz çıxış etmiş və onun icrasını da öz boynunuza götürmüşsünüz. Əkbər ağa bunu məclisdə söyləmiş və qeydiyyatdan keçirmişdir.

Bu mənim son dərəcə heyrətimə səbəb oldu. Əcəba, daxili mücadilədə əcnəbi polisə müraciət edəcək qədər Sizdə mücadilə hərarətimi vardır?

Heyrət! Bu məsələni izah edə bilərsinizmi?

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 321-322. Məktubun əslinin faksimilesi.*

---

241 Əkbər ağa Şeyxülislamov nəzərdə tutulur.

**№ 40**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

14 avqust 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Son məktubumu göndərdikdən sonra son məktubunuzu aldım. Bütün şikayətlərinizi diqqət və hörmətlə oxudum. Haqlı-haqsız olduğunuzu müzakirə etmək istəmirəm. Fəqət Sizi anladığıma ümid edə bilərsiniz. Son məktubumda yazdığım formallıqların icrasına etinasızlıq etməyin.

Hələlik ərzi-salam və hörmət.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 347. Məktubun əslinin faksimilesi.*

## № 41

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

27 avqust 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

25 avqust tarixli məktubunuzu və bükülmüş bəyannamə surətini aldım. Bəyannamənin məzmunu məni xatircəm edir. Eynisini həmən imza ilə göndəriniz. Yəqin ki, Sizdə bir surəti vardır. Gecikdirməyiniz ki, bugünlərdə gedəcək adamla göndərəcəyəm. Məktubda o xüsusda və ondan doğan cəhətləri də yaza bilək.

Hər halda bundan sonra razılıq və müvazinət daxilində çalışmana ümid etməyə dəyər. Məncə Siz "Frans-oryan"dakı[242] nəşriyyat və çalışma işlərində fəaliyyət göstərməlisiniz.

Keçən məktubunuzda "Bülleten"in[243] fransızcasını tənqid etmişdiniz. Bu tərcüməyə dostlarımız diqqət yetirmişdilər. Mən şəxsən tərcümənin nə dərəcədə müvəffəq olub-olmadığı haqqında hökm vermək imkanında deyiləm. Hər halda bizdən səlis ədəbi dildə yazmaq tələb olunmur, yetər ki, cümlə düzgün oxunmuş olsun. "Bülleten"in içindəki yazılar haqqında bir şey söyləməmisiniz.

İstanbuldakı nəşriyyat yaxşıdır. Fəqət o nəşriyyat Avropada olsaydı daha çox səmərə verəcəkdi.

Türkiyədə ciddi dəyişiklik yoxdur. İndi bəlkə bir yenilik oldu. Münaqişələr başlayır. Yeni firqənin[244] Qafqaz məsələləri

---

[242] "Fransa-Şərq" komitəsinin (Comité "France-Orient) rəsmi mətbu orqanı olan "France-Orient" bülleteni nəzərdə tutulur. Komitə bülleten buraxmaqla yanaşı, geniş nəşriyyat fəaliyyətilə də məşğul olub.

[243] Burada Qafqaz İstiqlal Komitəsinin Parisdə mütəmadi olaraq fransız dilində nəşr etdirdiyi "Bülleten"inindən söhbət gedir.

[244] 1930-cu ilin avqustunda Atatürkün təşəbbüsü ilə yaradılmış Sərbəst Firqəsi (rəsmi adı: Sərbəst Cümhuriyyət Firqəsi) nəzərdə tutulur. Sərbəst Firqə Türkiyənin birpartiyalı sistemdən çoxpartiyalı sistemə keçidini təmin etmək məqsədilə yaradılmışdı. Sərbəst Firqənin liderlərindən biri Əhməd

ilə daha əlaqəli olacağı söylənilir. Baxalım. Hələlik ki, mübarizə meydanında təkdir.

Cavabınızı gözləyirəm. Bu qədər. Ərzi-salam.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 324. Məktubun əslinin faksimilesi.*

---

bəy Ağaoğlu olduğu üçün M.Ə. Rəsulzadə ümid edirdi ki, yeni partiya Qafqaz məsələlərində daha həssas mövqe tutacaq. Lakin qısa bir zaman kəsiyində Sərbəst Firqənin böyük populyarlıq qazanması və hakim Xalq Cümhuriyyət partiyasını kəskin tənqid etməsi rəsmi dairələrin ciddi narahatlığına səbəb oldu. Buna görə də, artıq 1930-cu ilin noyabrında, yəni cəmi üç aylıq fəaliyyətdən sonra Sərbəst Firqənin mövcudluğuna son qoyuldu.

## № 42

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

23 oktyabr 1930-cu il
Varşava

Əzizim Ceyhun bəy!

Sonuncu məktubunuza bu vaxta qədər cavab verə bilmədim. Məqsəd İstanbuldan Sizinlə əlaqədar olan məsələdən müəyyən bir cavab almaq idi. Çox təəssüflər olsun ki, Xəlil bəydən[245] aldığım məktubda, İstanbul bir formal nöqsanı əsas gətirərək, Sizin maaşınızın budcəyə daxil ediıməsi məsələsinin təxirə salındığını bildirilir. Nümayəndə heyətindən[246] Sizin təkrar heyətə daxil edildiyiniz haqqında qərarın surətinin gəlməsini gözləyirlər.

Bununla belə, mən bu formal məsələnin başa çatmasını gözləmədən, Sizə verilmək üçün Miryaqub bəylə hələlik 500 frank göndərdim. Ümid edirəm ki, gələn ay üçün məsələ tamamilə aydınlaşar. Sizin alacağınız da təsdiq olunar.

Məktubunuzda "mənə hə, və ya yox, aydın cavab veriniz!" deyə bir ton vardır. "Beş aydır gözləyirəm, filan" deyirsiniz. Bu xüsusda qismən özünüz də günahkarsınız. Sonra nəzərə almaq lazımdır ki, məsələnin həlli xeyli dərəcədə məndən və ya Mir Yaqub bəydən deyil, onun həlli ilə əlaqədar müəssisələr və onlardakı prosseduralardan asılıdır.

Hər halda "dilimdən iltizam aldılar da, sonra əhəmiyyət vermədilər" misalındakı münasibətiniz hadisəyə qətiyyən uyğun deyildir. Bu doğru olmaz.

Bununla bərabər, Sizə rusca nəşr olunan bir broşurumu (kitabçamı)[247] göndərirəm.

Hələlik hörmət və salamlarla.

Məmməd Əmin

---

[245] Xəlil Xasməmmədov nəzərdə tutulur.

[246] Burada söhbət Parisdəki Azərbaycan nümayəndə heyətindən gedir.

[247] M.Ə. Rəsulzadənin 1930-cu ildə Varşavada rus dilində nəşr olunmuş "Пантуранизм и проблема Кавказа" (Panturanizm və Qafqaz məsələsi) kitabçası nəzərdə tutulur.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 328. Məktubun əslinin faksimilesi.*

## № 43

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

17 fevral 1931-ci il
Varşava

Xüsusidir.

Əzizim Ceyhun bəy!

7 fevral tarixli məktubunuzu aldım. Məktubunuza müsbət bir cavab verə bilmək fikri ilə bir neçə gün düşündüm və sonra həll yolunu axtardım. Təəssüflər olsun ki, bir çarə tapmadığımı yazmaq məcburiyyətində qaldığımdan dolayı utanıram. Hər halda burada haraya müraciət etdimsə, apreldən əvvəl vəsait əldə etmək imkanının olmadığını bildirdilər. Hətta məktəbə qəbul etdikləri və özlərinin dəvəti ilə gələn üç tələbəmizin də nə ilə dolanacağı məni karıxdıran məsələlərdən biri olmuşdur. Bununla belə, ilk imkanda Sizə yardımı əsirgəməyəcəyimi bilirsiniz. Fəqət Siz də orada şəxsən təşəbbüs və axtarmaqdan kənarda qalmayın. Buraya ümidvar olmaq olmaz.

Məktubunuzla bərabər göndərdiyinizi qeyd etdiyiniz "Asiat"[248] gəlməmişdir.

Orada Sizinlə görüşdüyümüz, xüsusdan həllini də ancaq apreldən sonra gözləmək qabil olacağı ümidindəyəm.

Sizə bu anda yardım imkanında olmadığımı təkrar etməkdən doğan kədər hissi ilə uğur diləryir, hörmət və salamlarımı göndərirəm, əzizim.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 330. Məktubun əslinin faksimilesi.*

---

[248] Fransanın Asiya cəmiyyətinin mətbu orqanı olan "Jurnal Aziatik" nəzərdə tutulur.

## № 44

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

30 yanvar 1932-ci il
Berlin

Əzizim Ceyhun bəy!

Məktubunuzu aldım. Haqqınız var. Bura [249] gələli Sizə məktub yazammadım. Fəqət başım çox qarışıq idi. Qəzet nəşri [250] bir iş. Fasilədə redaksiya əngəllərinin nizama salınması. Həmçinin digər işlər. Fəqət indi qəzet işi yoluna düşübdü. İşlər yaxşı gedir. Müntəzəm çıxacaq. Yəqin Siz də aldınız. Necə gördüyünüzü yazmırsınız. Yardımınızı da gözləyirik. Xüsusilə Avropa mətbuatında bizimlə əlaqəli məsələləri izah etməkdə yardımçı olsaz və yaxud xəbər göndərsəniz idarə Sizdən məmnun olar.

Nəzərdə tutduğunuz məsələlər mühümdür. Onları nəzərə almıram. Fəqət...

Bugünlərdə oraya gəlmək ehtimalı vardır. İnşaallah görüşərik.

Əli Mərdan bəy məsələsində mövqeyimiz məlumdu, nə deyir. Əli Mərdan bəy aktiv fəaliyyətdən çəkildiyinə dair müraciət edəcəkdi. Nə oldu? Hələlik bu qədər. Zöhrə xanıma salam və hörmət. Uşaqların gözlərindən öpürəm.

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 322. Məktubun əslinin faksimilesi.*

---

[249] Berlin nəzərdə tutulur.

[250] İlk sayı 1932-ci il yanvarın 10-da Berlində işıq üzü görmüş "İstiqlal" qəzeti nəzərdə tutulur. Cəmi 64 sayı nəşr olunmuş qəzetin sonuncu nömrəsi 1934-cü ilin avqustunda çıxıb.

## № 45

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

3 mart 1932-ci il
Berlin

Əzizim Ceyhun bəy!

Miryaqub bəy daima deyir ki, Ceyhun bəylə yaxın olmaq lazımdır. Doğrusu bunu anlamıram. Əcəba, biz yaxın deyilikmi?

Uzun bir zamandan bəri mövcud olan dostluq bunun şahidi deyilmidir?

Quzum Ceyhun bəy, işlər pərişandır. Mustafa bəy[251] Xəlil bəy[252] ilə Əbdül Əli bəyləri[253] arxasından çəkərək M.M.-nin[254] hər nəyin bahasına olursa-olsun İstanbulda qalmasını tələb və israr edir. Hər növ kompromisi də rədd edir.[255]

Bu vəziyyətdən çıxmaq gərəkdir. Sizin yardımınıza ümid edirəm. Gərək bu məsələdə mənə yardımçı olasanız. Buna şübhə etmirəm. Çünki səmimi vətənpərvərliyinizə şübhəm yoxdur. Təşkilat yeni bir istiqamət almaq məcburəyyətindədir. Oradakı arxadaşlarla məşvərət etməklə qəti bir qərara gəlmək lazımdır. Əlbəttə ki, bu məsələdə də yardımınızı görəcəyimə tam əminəm.

Hələlik bu qədər. Hörmət və ehtiramla gözlərindən öpürəm

---

[251] Mustafa Vəkilli (Vəkilov) nəzərdə tutulur.

[252] Xəlil Xasməmmədov nəzərdə tutulur.

[253] Əbdül Əli bəy Əmircanov nəzərdə tutulu.

[254] Burada söhbət Azərbaycan Milli Mərkəzindən gedir.

[255] M.Ə. Rəsulzadənin Türkiyədən deportasiyasından, eləcə də Azərbaycan siyasi mühacirətinin bu ölkədəki bütün mətbu orqanlarının qapadılmasından sonra Azərbaycan Milli Mərkəzinin (AMM) İstanbuldan Avropaya köçürülməsi zərurətini yaranmışdı. Çünki Azərbaycan siyasi mühacirətinin Türkiyə ərazisindəki fəaliyyəti faktiki olaraq qadağan olunmuşdu. Lakin İstanbuldakı bəzi siyasi mühacirlər AMM üzərində nəzarəti ələ keçirmək məqsədilə bu köçürməyə hər vəchlə mane olmağa çalışırdılar. Məktubda məhz həmin qüvvələrin fəaliyyətindən bəhs olunur.

əzizim.

Məmməd Əmin

*M.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 333. Məktubun əslinin faksimilesi.*

**№ 46**

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

17 mart 1932-ci il
Berlin

Əzizim Ceyhun bəy!

Məktubunuzu aldım. Bu ayın sonlarında hərəkət etmək nəzərdə tutulmuşdur. Fəqət görürəm ki, bu çox da mümkün olacaq bir iş Konfransın mart ayının 11-dən sonra toplanacağı qəzetlərdə yazıldı. Burada bəzi işlər ortaya çıxır.

Buna görə də vəd etdiyiniz təfsilatı bir məktubla yazaraq məni məlumatlandırsanız, məmnun olaram.

Eyni zamanda, məqaləniz dərc olunmuş məcmuəni göndərməyinizi rica edirəm.

Əli Mərdan bəyin məsələsinin həll üçün təşəkkür edirsiniz. Bu xüsusda hisslərimiz qarşılıqlıdır. Fəqət bu arada düçar olduğunuz maddi çətinliklərinizi aradan qaldırmaq üçün avans olaraq hələlik ancaq 800 frank ayıra bildim.

Hələlik bununla kifayətlənirəm. Heydər bəyə [256] xüsusi salamımı görüşərkən söyləyiniz.

"İzaha möhtac" yazısını yəqin ki, görmüşlər.

Zöhrə xanıma hörmətlər. Uşaqların gözlərindən öpür, Sizin də əlinizi sıxıram.

Məmməd Əmin

P.S. Milyukovun[257] çıxışı münasibətilə "İstiqlal"ın çıxacaq

---

[256] Çox güman ki, Heydər Bammat nəzərdə tutulur.

[257] Rusiyanın tanınmış siyasi xadimi P.N. Milyukov (1859-1943) nəzərdə tutulur. Çar dövründə kadetlər partiyasının lideri olan Milyukov 1917-ci ildə Müvəqqəti hökumətdə xarici işlər naziri postunu tutmuşdur. Oktyabr çevrilişindən sonra ölkəni tərk edən Milyukov rus siyasi mühacirətinin liderlərindən biri olmuşdur. Bolşeviklərə olan tənqidi münasibətinə baxmayaraq, Stalinin ekspansionist xarici siyasətini dəstəkləmişdir. Mühacirətdə "vahid və bölünməz Rusiya" prinsipinə sadiq qalan Milyukov SSRİ-nin məhkum millətlərinin öz müqəddəratını təyin etmə hüququnu tanımaqdan imtina etmişdi. Bu səbəbdən də, onunla məhkum millətlərin, o cümlədən

nüsxəsində başqa məqaləm vardır. Bəyənəcəksiniz.

Məmməd Əmin

*M.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 334. Məktubun əslinin faksimilesi.*

---

Azərbaycan mühacirləri arasında kəskin konfliktlər və qarşıdurmalar zaman-zaman müşahidə olunmuşdur.

## № 47

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

12 aprel 1932-ci il
Berlin

Əzizim Ceyhun bəy!

Bu zəhrimar ixtilaflara[258] o qədər məşğul idim ki, Sizə vaxtında cavab verəmədim. Məqalənizin dərc olunduğu məcmuəni aldım. Sizi təbrik edirəm. Göndərdiyiniz məqaləni də aldım. Arzu etdiyiniz etimadnaməni ibtidai şəkildə olsa da Heydər bəyə[259] göndərdim. Səyahəti üçün 1000 frank da yolladım. Baxmayaraq ki, həzəratın bu xüsusda mənə hücum edəcəklərini bilirəm.

Çox təəssüf edirəm ki, Parisə gələ bilmədim. İndi M.M.[260] üzvlərinin ixtilafını bir tərəfli həll etmək üçün məşvərətlər olacaq. Ya bu yana, ya o yana. Mərkəz[261] İstanbulda qala bilməz və formaca yenidən qurulmalıdır.

Miryaqub bəydə təfsilatı var. Sizi məlumatlandırar.

Hələlik bu qədər. Uşaqların gözlərindən öpürəm. Zöhrə xanıma salam. Sizin də əllərinizi hərarətlə sıxıram.

Məmməd Əmin

P.S. Əfv ediniz ki, məktubu qurşun qələmlə yazdım. Bəhs etdiyimiz buletenləri almadım. Göndərsəniz məmnun olaram.

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 356. Məktubun əslinin faksimilesi.*

---

[258] Azərbaycan Milli Mərkəzinin İstanbulda saxlanması və ya Avropa ölkələrindən birinə köçürülməsi məsələsi ətrafında həmin dövrdə Azərbaycan siyasi mühacirəti daxilində davam edən ixtilaflar nəzərdə tutulur.

[259] Heydər Bammat nəzərdə tutulur.

[260] Azərbaycan Milli Mərkəzindən söhbət gedir.

[261] Milli Mərkəz nəzərdə tutulur.

## № 48

*M.Ə. Rəsulzadənin C. Hacıbəyliyə məktubu*

2 iyun 1932-ci il
Berlin

Əzizim Ceyhun bəy!

Göndərmiş olduğunuz məqalənin bugünə qədər nəşr olunmamasının səbəbi mətnin qarmaqarışıq vərəqlər arasında itməsi olmuşdur. Bu dəfə əlyazması tapıldı. Sizdən rica edirəm ki, bu yazının ardını da göndərəsiniz ki, hər iki hissə birlikdə dərc edilsin. Bu şəkildə çox qısa olacaq və on beş gündən bir nəşr olunan qəzetdə ardı çıxması yaxşı təsir verməyəcəkdir. Hər halda ardını göndərin və tələsin ki, növbəti nömrədə yerləşdirmək mümkün olsun.

Hələlik bu qədər. Uşaqların gözlərindən öpür, Zöhrə xanım əfəndiyə salam edirəm.

Hörmətlə,

Məmməd Əmin

*М.Э. Расулзаде. Сборник произведений и писем /Сост., предисл. и примеч. С. Исхаков. М., 2010. С. 336. Məktubun əslinin faksimilesi.*

## № 49

*M.Ə. Rəsulzadənin K. Kocatürkə*[262] *məktubu*

5 avqust 1946-cı il
Mittenvald[263]

Əzizim Kənan bəy!

İhsan bəyin yardımından istifadə edərək, bu məktubu göndərirəm.

Sizdən ayrılalı xeyli zaman ötdü; həm də nə kimi bir zaman. Başımızdan keçənlərin hekayətini qısa məktuba sıxışdırmaq mümkün deyildir. Görüşərkən, inşaallah, anlatarıq.

Vaxtı ilə yüksək məqama göndərdiyim yazıda, bilirsiniz, açıq hava altında nə təhlükədə qalan on minlərcə türkün müqəddəratına nəzəri-diqqəti cəlb etməyə səy etmişdim.[264] Bu minlərdən bir çoxu qorxduğumuz aqibətə uğradı; orada qalanların bir qismi indi Mittenvalda toplaşaraq, mümkün qədər tez Türkiyəyə getmək həsrətindədirlər. İhsan bəyin bu dəfəki dönüşü sonunda bu həsrətlərin tezliklə sona yetəcəyinə ümid edirlər. Bunların arasında biz də varıq. Yaxınlarda dostlarla görüşəcəyimizə ümid edirik.

Doğrusu, bu qışı da əmniyyətsizlik, işsizlik, mühitsizlik və evsizlik hissinin əzici basqısı altında keçirmək təsəvvürü qarşısında qorxu duyuruq. Nəhayət, öz mühitimizdə, öz işimiz

---

262 Kənan Kocatürk – peşəkar hərbçi, 1940-1946-cı illərdə Türkiyənin Rumıniyadakı hərbi attaşesi.

263 Almaniyanın qərbində, Yuxarı Bavariyada yaşayış məntəqəsi.

264 1945-ci ilin mayında Almaniyanın II dünya müharibəsində məğlubiyyətindən sonra Milli Legionun tərkibində vuruşmuş 28 minə yaxın azərbaycanlı Qərb müttəfiqlərinə əsir düşmüşdü. Azərbaycanlı hərbi əsirlərin ümumi sayı isə 150 minə çatırdı. Stalin bütün hərbi əsirləri "xalq düşməni" və "xain" elan etdiyindən onları vətəndə yeni təqiblər və işgəncələr gözləyirdi. Lakin onların Avropada qalması da mümkün deyildi, çünki Yaltada əldə olunan razılığa əsasən müttəfiqlər bütün sovet hərbi əsirlərini SSRİ-yə qaytarmalı idilər. Azərbaycanlı hərbi əsirlərin zorla sovet hökumətinə təhvil verilməsinin qarşısını almaq məqsədilə M.Ə. Rəsulzadə həmin dövrdə Türkiyə rəsmiləri və Misir kralı Fərruxa müraciət etmişdi.

və əməyimizlə yaşamaq və çalışmaq imkanı əldə edəcəyik!!...

Əzizim Kənan bəy! Leyla ilə[265] daima sizi xatırlayırıq. Sizinlə görüşmək, Suzan xanımın[266] əlini, kiçik Temuçinlə Minenin[267] gözlərini öpmək bizim üçün çox zövqlü bir iş olacaqdır.

Fəlakət görmüş bütün türklərin hərəkatı məsələsi, fərz etdiyimiz kimi, alovlanarsa, o zaman xüsusi təşəbbüslə hərəkat üçün səy edəcəyəm və bu xüsusda dostların vasitəçilik və yardımlarına ümid edəcəyəm.

H. Süphi bəy[268] əfəndiyə, Səadət xanım[269] əfəndiyə və bütün dostlara bizdən salamlar.

Candan sevgilərlə,

Məmməd Əmin Rəsulzadə

---

[265] Leyla (Vanda) xanım (1885-1974) – M.Ə. Rəsulzadənin ikinci həyat yoldaşı.

[266] Suzan xanım – K. Kocatürkün həyat yoldaşı.

[267] K. Kocatürkün övladları.

[268] Həmdullah Sübhi Tanrıövər (1885-1966) – türk yazarı və ictimai-siyasi xadimi. Türkçülük ideyalarının təşəkkülündə və yayılmasında aparıcı rol oynamış "Türk Ocağı"nın yaradıcılarından və rəhbərlərindən biri. Kurtuluş Savaşı və Türkiyə Cümhuriyyətinin ilk illərində yeni milli dövlətçiliyin formalaşmasında əvəzsiz xidmətləri var. İki dəfə Türkiyənin milli təhsil naziri postunu tutub. I, II, III, VII, VIII və IX çağırış Türkiyə Böyük Millət Məclisində millət vəkili olub. Diplomatik sahədə də fəaliyyət göstərib, 13 il ərzində Türkiyənin Rumıniyadakı böyük elçiliyinə başçılıq edib. M.Ə. Rəsulzadə ilə sıx dostluq münasibətləri olub.

[269] Səadət xanım – H. Sübhi bəyin həyat yoldaşı.

# ŞƏFİBƏYÇİLİK

# Fitnədən qorunmalı

## Başlanğıc yerinə

Son zamanlar Azərbaycan milli hərəkatına qarşı açılan şübhəli intriqaların başında duran Rüstəmbəyli Şəfi bəyin məlum nəşriyyat və "ifşaatı" dolayısıyla ictimai rəyi məlumatlandırmaq üçün qələmə aldığımız bu risalənin (kitabçanın – A.B.) yazılması səbəbini anlatmaq niyyətilə bir başlanğıc yazmağı düşünərkən, yuxarıdakı ünvan altında bundan iki il əvvəl "*İstiklal*"a[1] yazdığımız baş məqaləni eyniylə buraya köçürməyi münasib bildik.

Zənn edirik ki, oxucuların diqqət və mütaliəsinə təqdim olunan yazıların nə növ bir material olduğu haqqında müəyyən bir təsəvvür yaradan bu məqalə, məqsədi aydınlaşdırmağa tamamilə uyğun gəlir.

***

Mühacirəti dağıtmaq – budur bolşeviklərin gözə aldıqları əsas hədəflərdən biri.

Bakı və Tiflisdə çıxan mətbuata baxılarsa, bu məsələnin Qafqaz bolşevikləri üçün əsas problemlərdən biri olduğu aşkar olar.

Hürriyyət və istiqlal fikrini dəstəkləməklə daxildəki mücadilə ünsürlərini qüvvətləndirən mühacirətin nə kimi bir tarixi rol oyandığı məlumdur. Əslində bir mühacirət və inqilab qüvvəsi olan, hal-hazırda isə nəhəng Rusiyanın idarəsini ələ almış bolşeviklər, bu "əhəmiyyət"in nə olduğunu, əlbəttə ki,

---

[1] 1932-1934-cü illərdə M.Ə. Rəsulzadənin redaktorluğu ilə Berlində nəşr olunan ictimai-siyasi qəzet, Azərbaycan siyasi mühacirətinin əsas mətbu orqanlarından biri.

bilir, tədbir və təşəbbüslərində bu mühüm nöqtədən hərəkət edirlər.

Uzaq Şərqdəki hadisələrin sovet rejiminə mənfi təsirlərindən ötən nömrələrimizdə bəhs etmişdik. Məqalələrimizin birində mümkün müharibə ehtimalından bəhs edərək, sovetlərin öz qonşuları ilə bağlamaqda olduqları hücum etməmək haqqında müqavilələrdən daha çox, Mancuriyada inkişaf edən hadisələrə diqqət verilməlidir, demişdik.

Mühacirətdəki bu cür nəşrlər bolşevik mətbuatını özündən çıxarmış, sovet dövlət xadimləri ilə mətbuat rəhbərlərini bu mövzuya aid yazdıqları müxtəlif məqalələr və sütunlarda mümkün rus-yapon toqquşmasından ümidlənən "əksinqilabçılara" qarşı "qəti və ciddi" tədbirlər görmək lüzumunu isbata sövq etmişdir.

"Yeni Kafkasiya"dan başlayaraq "İstiklal"a qədər, nəşr etdiyimiz bütün dövri mətbuat kolleksiyalarını vərəqləyən Rayevski[2], "Bakinski raboçi" qəzetinin tam bir səhifəsini tutan məqaləsində Qafqaz mühacirətinin nə kimi ümid və planlarla yaşayıb çalışdığını təhlil edir. Onun fikrincə, bu "ümid" "İstiklal"ın 2-ci sayında çıxmış baş məqalədə özünü göstərir. Sovet hökumətinin öz qonşuları ilə bağladığı hücum etməmək haqqında müqavilələrdən daha çox, Uzaq Şərqdə inkişaf edən hadisələrə qiymət və əhəmiyyət verməyi tövsiyə edən bu məqalə Qafqazlı mühacirlərin əhval-ruhiyyəsini həqiqi surətdə əks etdirir.

Eyni mövzuda yazı yazan digər bolşevik rəhbərləri də zamanın həyəcanından, əhalinin narazılığından, kənddəki "qolçomaq" hərəkatından bəhs edərək, bu şərait daxilində "əksinqilabi hərəkatı" iflic etmək lüzumu üzərində təkid edib dururlar.

---

[2] Rayevski Aleksandr Mixayloviç (əsil adı – Levkov Mixail İzrailoviç) – jurnalist, müəllim, 1926-1935-ci illərdə Bakıdakı Şaumyan adına institutun əməkdaşı. 20-ci illərdə bolşeviklərin müsavatçılara qarşı apardığı təbliğatın əsas simalarından biri olub, "Müsavat" partiyası "ifşa" etmək məqsədilə yazılmış məqalə və kitabların müəllifidir.

Bolşevik sıralarına qədər nüfuz edən bu qüvvəyə qarşı amansız davranılmalı, *milliyətçilik şüarı ilə güc göstərən Müsavatçılıq, daxildə olduğu kimi, xaricdə də darmadağın edilməlidir.*

Qəzet məqalələrində ümumi şəkildə irəli sürülən bu tezis, keçən nömrələrimizdən birində göstərdiyimiz kimi, Azərbaycan kommunist partiyasının qəbul etdiyi qərarda bütün aydınlığı və ciddiyyətilə qeyd olunmuşdur. Bu qeydə görə, *Müsavat firqəsi ilə təkcə daxildə deyil, xaricdə də ciddiyyətlə mübarizə aparılmalıdır.*

Daxildəki mübarizənin nə şəkildə cərəyan etdiyi məlumunuzdur. Həbslər, sürgünlər, Çeka zindanları, Solovkinin qarlı çölləri, işgəncələr, edamlar – budur həmin mübarizənin şeytani vasitələri!.. Bütün bunlara mədəni hüquqlardan məhrumiyyət, daimi nəzarət, təqib və təxribatları da əlavə etsəniz, o zaman mənzərə aydınlaşar.

Xaricdə mücadiləyə gəlincə, düşmənin ən böyük istəyi mühacirəti çürütmək, istiqlalçılar cəbhəsini mənən dağıtmaq və siyasi cəhətdən nüfuzdan salmaqdır.

Bu məqsədə nail olmaq üçün düşmənin istifadə etdiyi vasitə bəsitdir. Bu bəsit vasitənin nədən ibarət olduğunu göstərən bir fikir olduğu kimi dərc olunur: Moskvadan Berlindəki İnternasional şöbəsinə təlimat göndərilir. Bu təlimatda deyilir ki, biz mühacirəti iflic etməyə çalışmalı və bunun üçün də: a) sovet diplomatiyasının əlində olan bütün imkanlardan istifadə edərək mühacirət liderlərini və hərəkatda nüfuz qazanmağa başlayan gənc şəxsləri yerli hökumətin gözündə etbardan salmağa çalışmalı; b) yerli mətbuata nüfuz edərək mühacirət əleyhinə yazılar nəşr etməli; c) və nəhayət, müxtəlif vasitələrlə mühacirətin içərisinə soxularaq, liderləri gözdən salan şayiələr və ittihamlar yaymaqla, onları qarşı-qarşıya qoymalıyıq.

Sovet mətbuatının həyəcanlı yazıları, kommunist partiyasının enerjili qərarı və nəhayət, Moskvanın xaricdəki casuslarına göndərdiyi təlimat – bu üç amilin mühacirətin

daxilindəki üzüntülü halların əsas səbəkarı olduğunu görmək üçün xüsusi diqqət tələb olunmur.

Siyasi həyat hər zaman münaqişə və qruplararası mübarizələrlə zəngin olur. Vətəndən uzaqda qalmaq bədbəxtliyi üzündən xüsusi bir hissiyyat nümayiş etdirən mühacirət həyatında bu münaqişə daha çox hiddət və şiddət göstərir. Adi mühacirətlə bolşevizm istilası üzündən doğan siyasi mühacirət arasındakı fərqi də gözdən qaçırmamaq lazımdır. Burada sadəcə hürriyyət və istiqlal məfkurəsinə bağlılıqdan başqa, dözülməz bir həyat üzündən vətənini tərk edənlərin sayı da əhəmiyyət kəsb edir. Təbii ki, belə bir mühitdə "münaqişə"lər daha mürəkkəb, daha qarışıq, daha prinsipsiz olur. Belə mühitdə yalnız fikir və əqidə sahibi olan siyasi xadimlərin nüfuz və etibarlarını mühafizə etməsi həddən ziyadə müşküldür. Təbii ki, daha səthi və daha əsəbi olan bu mühit içərisində çalışmaq, siyasi qayə və məfkurə bayrağını yüksək tutmaq daha çətindir.

Bolşevik rejiminə qarşı mücadilə edən mühacirətin bu kimi müşkül şəraitdə olduğunu yaxşı bilən düşmən, bundan maksimum faydalanmağı unutmayır. O dərəcədə ki, o təkcə mühacirət mühitini bulandıqmaq, liderləri etibardan salacaq vasitələrə baş vurmaqla kifayətlənmir; bu əsəbi mühitdən çıxan xəstə tiplərin əlilə istədiyi zaman ən çox əhəmiyyət verdiyi şəxsiyyətlərin fiziki cəhətdən də aradan qaldırılmasına müvəffəq olur. Gürcü liderlərindən Ramişvilinin[3] həyatdan bezmiş müvazinətsiz bir gürcü tərəfindən "səbəbsiz" öldürülməsi fikrimizi təsdiqləyir.

Bolşevik diktatorluğu, nə deyirlərsə-desinlər, kritik bir dövr yaşıyır. Eyni zamanda, beynəlmiləl dünya müvazinəti də laxlamaqdadır. Bu gün olmasa da, sabah digər gözlənilən bir sıra hadisələrin baş verməsi mümkündür.

---

[3] 1918-1921-ci illərdə müstəqil Gürcüstan Respublikasının baş naziri, bolşeviik işğalından sonra gürcü siyasi siyasi mühacirətinin liderlərindən biri olmuş Noy Ramişvili (1881-1930) nəzərdə tutulur. 1930-cu il dekabrında 7-də sovet casusu olan gürcü mühaciri P. Çanukvadze tərəfindən Parisdə qətlə yetirilib.

Zühur edəcək hər hansı bir böhranda sovet rejimi çox böyük bir imtahan keçirəcək və Sovetlər birliyi ən əvvəl zəif olduğu nöqtələrdən, heç şübhəsiz, çatlar verəcəkdir. Qafqaz bu zəif nöqtələrin birincisidir. Qafqaz mühacirətinin əcnəbi dövlətləri Qafqaz işlərinə müdaxiləyə sövq etdirmək məşğuliyyəti barədəki sovet mətbuatının yazıları, əlbəttə, mənasız deyildir. Bunun üçün də onlar var qüvvələrini bu mühacirəti dağıtmağa sərf edir, əllərindən gələn hər vasitə və hər dürlü fitnə ilə onu dost və rəqib yanında etibarsız, öz aralarında düşmən və hər cür fəaliyyətə aciz hala gətirmək istəyirlər.

Düşmən bunu istəyir. O istəyir ki, biz dağılaq, aramızda həmrəylik və birlik qalmasın. Nə kiçiklərin böyüklərə hörməti, nə də böyüklərin kiçiklərə nüfuzu olsun!

O, düşməndir, istər. Bu onun haqqıdır. Yetər ki, biz biri-birimizə düşmən olmayaq. Yetər ki, hürriyyət və istiqlal eşqi ilə yanan biz məfkurəçilər xeyirlə şəri ayırd edək.

Unutmayaq ki, yolumuz hürriyyət və istiqlal yolu, qayəmiz yüksək və müqəddəsdir! Şəhidlər karvanı ilə sərilmiş bir yolla gedirik. Düşməni sevindirmək haqqımız yoxdur. Fitnədən qorunmaq vəzifəmizdir.

Mühacirət üzvləri arasında nüfuzu olan vətəndaşların ən böyük vəzifəsi, fitnəni görmək və qafilləri oyadaraq, düşmən tələsini onlara göstərməkdir!..

# I. Diqqətəlayiq bir ünvan

*Oğru elə bağırdı ki,*
*Doğrunun bağrl çatladı.*
Atalar sözü

Rüstəmbəyli Şəfi bəy pozuculuq sahəsindəki çirkin rolunu tamamlamaq üçün bir risalə (kitabça – A.B.) nəşr etmişdir. Nəşr etdirdiyi bu risaləsinə o, "Yıxılan bütlər" adını vermişdir.

Diqqətəlayiq hesab etdiyimiz bu ad heç də Şəfi bəyə məxsus deyildir.

Bundan bir neçə il əvvəl III İnternasionalın Türkiyədəki nümayəndələri türk milliyətçiliyi sahəsindəki tanınmış şəxsiyyətləri aradan götürmək məqsədilə ərsəyə gətirdikləri yazıya eyni adı vermiş, "Bütləri qırırıq", demişlərdi!..

Biz heç bir zaman bütpərəst olmadıq, aramızdan büt olmaq istəyənlər də çıxmadı Fəqət millətimizin idealları üçün acizanə yapdığımız xidmətə hörmət olaraq vətəndaşlarımızdan və məsləkdaşlarımızdan gördüyümüz münasibəti məmləkətimizin düşmənləri təbii olaraq istehza ilə qarşıladılar. İstifadə etdikləri "büt" ifadəsilə bizi aşağılamağa qalxanlar, bununla ancaq özlərinin nə yuvanın quşu olduqlarını və kimlərdən ilham aldıqlarını göstərmiş olurlar.

Möhtərəm H. Sübhi bəy[4] Türkiyə milliyyətçiliyinin "bütlərini" qıranların nə kimi qeyri-milli bir məqsəd güddüklərini və "bolşevik qapısının muzdlu kölələri" olduqlarını vaxtı ilə nəşr etdirdiyi çox mühüm bir məqaləsində açıb-göstərmişdi.[5] Bizim vəzifəmiz isə, Şəfi bəylərin hansı növdən bir pozucu

---

[4] Həmdullah Sübhi Tanrıövər (1885-1966) – türk yazarı və ictimai-siyasi xadimi. Türkçülük ideyalarının təşəkkülündə və yayılmasında aparıcı rol oynamış "Türk Ocağı"nın yaradıcılarından və rəhbərlərindən biri. Azərbaycan siyasi mühacirətinə dəstək verib və M.Ə. Rəsulzadə ilə sıx dostluq münasibətləri olub.

[5] "İkdam" qəzetində çap olunan bu məqalə "Odlu Yurt"un birinci il, 6-cı sayında təkrar nəşr olunmuşdu.

olduqlarını təhlil edib, əsl mahiyyətlərini bütün aləmə faş etməkdir.

Şəfi bəy konkret bir ismə malik olsa da, sözün ictimai mənasında o, müəyyən bir tipdir. Başlanğıc yerinə dərc etdiyimiz məqalədə təhlil və təsvir olunan anormal şərait və mühitin yetişdirdiyi bir tip!.. Bu mənada deyə bilərik ki, biz, Şəfi bəyin şəxsində sadə bir fərdlə deyil, ümumi bir zehniyyətlə, başqa sözlə, *Şəfibəyçiliklə* qarşılaşırıq. Şəfi bəyi görmədən və etina etmədən, sükutla keçə bilərdik, lakin Şəfibəyçiliyə məhəl qoymamaq qeyri-mümkündür. Onunla mübarizə aparmaq bizim milli bir borcumuzdur.

Şəfibəyçiliyin nədən ibarət olduğunu, bu risaləni sona qədər oxuduğu zaman möhtərəm oxucu şəxsən görəcək və anlayacaqdır. İndilik biz yalnız onu qeyd edirik ki, Şəfibəyçiliyin psixologiyası ilə "ev sahibini hədələyən qəddar oğrunun" psixologiyası arasında çox böyük bir bənzəyiş vardır. Beləliklə, görürük ki, Şəfi bəy, təmsil etdiyi bu mənfur zehniyyətin mənəvi tələbatına tamamilə sadıq qalaraq, risaləsini "doğrunun bağrını yaran bir oğru" ifadəsilə yazmışdır. İrəlidə görüləcəyi kimi, boş yerə ona "namus oğrusu" deməmişlər ki!..

## II. İkiüzlü bir izah

Şəfi bəy həqiqətən də xarakterinə xas olan həyasızlığına rəğmən, girişdiyi təxribat işinin necə olsa da, ictimai fikir tərəfindən nifrətlə qarşılanacağını duyaraq, qələmə aldığı çirkin yazının bütün məsuliyyətini bizim üzərimizə atmaq üçün manevr edir.

Şəfi bəyin məqsədi guya bizimlə sırf daxildə mücadilə etmək imiş, biz isə məsələni mətbuat səhifəsinə keçirmiş və bununla da onu mətbuat yolu ilə özünümüdafiə məcburiyyətində qoymuşuq?!...

Bu iddianın doğru olub-olmadığını araşdıraq.

Bir kərə Şəfi bəy istefa ərizəsi deyə yazdığı cəfəngiyatı sırf təşkilata mənsub şəxsə göndərməklə kifayətlənməmiş, öz etirafına görə, bunu bütün "məsul" azərbaycanlı mühacirlərə yollamışdır. Halbuki, veriləcəkləri hökm və qərarlara öncədən, gözüyumulu tabe olacağını elan edən iki Azərbaycan miralayının (polkovnikinin – A.B.) imzaladıqları bir etiraz məktubu sübut edir ki, bu məktub "mühacirət üzvləri arasında olduğu kimi, qonşular və dostlar arasında da yayılmışdır" ki, bu işi də onlar (yəni miralaylar) "vətənpərvərliyə zidd, nifrət doğuran bir hərəkət" olaraq qəbul etmişlər.

Şəfi bəyin istefanamə adlandırdığı rəzalətnaməsini ətrafa yayması başqa fakt və sənədlərlə də təsdiqlənir. Şimali Qafqazlıların İstanbuldakı səlahiyyətli nümayəndəsi öz rəislərinə yazdığı bir məktubda Şəfi bəyin həmin istefanaməsinin bir nüsxəsinə malik olduğunu qeyd edərək, deyir ki, "izn verin, bu rəzil yazını sizə göndərməyim, çünki tərbiyəm buna imkan vermir".

Görünən budur ki, Şəfi ikiüzlülük edir və göz görə-görə yalan danışır. Zatən, forma və məzmununa görə təşkilatın daxilinə aid olan bir açıqlama və ya istefanamə mahiyyətində olmayan bu fəsadnaməni o, ta ilk gündən etibarən makinada çoxaldaraq, ora-bura yaymışdır ki, bu da həmin istefanamənin sonundakı "bu məktubumu ilk fürsətdə, istədiyim və bulacağım

imkan daxilində, mühacirlər üçün direktivə çevirəcəyimi də qeyd etməyi lazım bilirəm” cümləsindəki qəsdin icrasından başqa bir şey deyildir.

Fəqət, münaqişəni sözün tam mənasında ilk olaraq mətbuata çıxaran yenə biz deyil, onlar, şəxsən Şəfi bəy və ortaqlarıdır.

Şəfi bəy haqqındakı yazılar “İstiklal”ın 14 aprel tarixli sayında çap olunub ki, onu da Şəfi bəy İstanbulda 20-si və ya ən tezi 19-dan əvvəl ala bilməzdi. Halbuki, Şəfi bəy, arxadaşları Xəlil və Səlim bəylərlə birlikdə mənim xəyali bir qurultay tərəfindən firqə rəisliyindən çıxarıldığıma dair uydurduqları yalanı 24 mart tarixli bir məktubla Parisdə rus dilində çıxan “Qafqaz” qəzetində dərc etmişlər. Və həmin “Qafqaz” redaksiyasının qəzetin son nüsxəsindəki izahından görünür ki, bunlar bu yalanları mart deyil, hələ fevral ayında nəşr etmək təşəbbüsündə bulunmuşlar.

Məsələni rus dilində çıxan bir qəzet vasitəsilə beynəlxalq miqyasda yaymaq cəhdi və təkcə Azərbaycan deyil, digər dost-düşmən, qonşu və yadları əhatə edən geniş ictimai fikri aldatmaq faktı meydanda var ikən, Şəfi bəyin “mən məsələnin mətbuatda əks edilməsini arzu etmirdim və bu risalənin çıxmasının məsuliyyətini tamamilə Məmməd Əmin bəy daşımaqdadır” deməsi hər kəsin nəzərində ikiüzlülüyün həyasız bir hiyləsi olaraq qalır ki, buna Avropa ədəbiyyatında “timsahın göz yaşları” deyirlər.

Xeyr, təxribatçı əfəndi yalan deyir. İstifadə etdiyi hiylə də keçməz; etdiyi cinayət və xəyanətin bütün məsuliyyətini mənaca da, formaca da özü şəxsən çəkəcək, yaylığı öz xəstə başından açaraq, bizim sağlam başımıza bağlamayacaqdır!..

Biz onun kimi araqarışdıranları ifşa etmək və davam etdirdiyi fəsadı tamamilə aradan qaldırmaq məcburiyyətindən irəli gələn yazıların xoş bir şey olmamaqla bərabər, zərurətini də anlayırıq.

Ümumi mənfəət naminə nə zərurətlərə gedilməz, nə əməliyyatlar yapılmaz!.. Siyasi, ictimai və əxlaqi amillərin doğurduğu bu zəruri əməliyyatların bütün məsuliyyətini biz şüurlu olaraq

üzərimizə götürürük. Qəbahət bizcə hər zaman qəbahətdir. Yalandan bir manevr etməklə onun məsuliyyətini başqasının üzərinə atmaq cəhdi ancaq “pozulmuş vicdanlara” rahatlıq gətirə bilər.

## III. İstefanamə deyil, fəsadnamə

Bitərəf oxucu Şəfi bəyin göndərmiş olduğu məktubun ədəb-ərkana uyğun olmayan, hər cür tərbiyədən məhrum normal bir istefanamə olmadığını, şübhəsiz, görmüşdür. Bu bir istefa ərizəsi deyil, sözün tam mənası ilə zərərli fəsadı özündə ehtiva edən çirkin bir sənəddir.

Mahiyyəti etibarı ilə açıq fəaliyyət göstərməyən bir təşkilatın yalnız birgə razılıq əsasında elan oluna biləcək gizli qərar və müzakirələrini pis niyyət və intriqa məqsədilə ifşa və təhrif edən, Milli Mərkəzdən istefa üçün yazıldığı halda, firqə həyatına və məsələ ilə əlaqəsi olmayan digər şəxsi işlərə yersiz surətdə baş vuran və yazdığı məktubun hər sətirindən pis niyyətli bir pozğunçu olduğu bütün çılpaqlılığı ilə aşkar olan bu adamla məntiq, mühakimə, fakt və sənəd əsasında münaqişəyə girməyi təbii ki, özümə rəva görməzdim. Xüsusilə də ona görə ki, o, bu addımı ilə özünü təşkilat xaricində qoymuş, açıq-aşkar fəsad və dağıdıcılıq yolunu tutmuşdur.

Şəfi bəyi və onun ortaqlarını inandırmaq və bilgiləndirmək həm imkansız. həm də faydasızdır. Çünki fəsad sözlə deyil, işlə zərərsizləşdirilir, münaqişə ilə deyil, güclə aradan qaldırılır.

Bu səbəbdən də Şəfi bəyin göstərilən məktubuna cavab vermədim. Yalnız namus və heysiyyatıma təcavüzün nəticəsiz qalmayacğını ona bildirmək üçün, şahidlər vasitəsilə müraciət etdim. Sahidlər ona məktub yazdılar. Qaydaya uyğun olaraq cavab gözlədilər. Lakin günlər keçdi, cavab gəlmədi. Nəhayət, hər cür müddət və möhlət keçdikdən sonra, şahidlər qarşı tərəfin sükutunu təsdiq edən birtərəfli qərar çıxararaq, bir surətini ona, bir surətini də mənə göndərdilər. Bu qərarda şahidim olan miralaylar Heysiyyatımın mühafizə olunduğunu qeyd etdilər. Beləliklə, bu andan etibarən mənim üçün duel məsələsi əhəmiyyətini itirmiş, tamamilə qapanmışdır.

Fəqət, indi Şəfi bəyin göstərilən məktubu mətbuatda dərc olunmuş, məzmunu ictimaiyyətə bəyan edilmişdir. Bu hal təbii ki, məsələninin şəklini dəyişdirir. Şəfi bəylə münaqişə üçün

deyil, yalnız çaşdırmaq istədiyi ictimai fikri məlumatlandırmaq məqsədilə aşağıdakı yazı qələmə alınır.

1) Şəfi bəy məni sui-istifadə və milli kassaya aid pulları ələ keçirmək kimi şeylərdə ittiham etməyə qalxır. Bundan bir neçə il əvvəlki tarixlərə aid olan və hər cür konkret faktdan məhrum olan bu söz yığınına cavab vermək səviyyəsinə düşmək istəməzdim. Təkcə onu qeyd etmək istəyirəm ki, mən heç bir zaman milli kassanın yeganə müdiri olmamışam. Xəzinədar vardı. Pullar mövcud xəzinədarla rəisin müştərək nəzarəti altında idi.

İstanbuldan ayrılan zaman da milli kassa məndə deyiildi. Təşkilatın rəisi sifətilə əlaqədar olduğum işlərin hesabatını tamamilə verib ayrılmışdım. Nəşriyyata aid məsələlərin haqq-hesabını o zaman həmin sahənin maliyyə işlərini idarə edən Şəfi bəylə şəxsən etmişdik. Firqənin fəaliyyətinə dair isə Abbas bəylə görüşülərək, kassanın mövcud vəziyyəti qərarnamə ilə təsbit olunmuşdu. Ondan sonra məskun olduğum yerdə bir qisim işlərin icrası mənə həvalə edildiyindən, həmin işlərin yerinə yetirilməsinə dair hesabatlar hər ay İstanbula göndərilmiş və göndərilən hesabatların təsdiqinə aid cavab məktubları alınmışdır. Xəlil bəyin imzası ilə bu xüsusda alınan son məktubun tarixi isə 22.07.1931-ci ildir ki, buna da mənim tərəfimdən 05.12.1931-ci ildə cavab verilmişdir.

Bu tarixdən sonra araya düşən ixtilafdan dolayı İstanbul ilə yazışmamız kəsilmiş və bu ixtilafın həll olunma tarixi olan 1932-ci ilin iyununa qədər hər iki tərəfdən edilən xərclərin hesabı müstəqil şəkildə aparılışdır.

Bununla birlikdə, həmin müddət ərzində tərəfimdən edilən xərclərin hesabatı üçlər heyətinin tədqiqinə verilmək üçün hazırlanaraq, qarşı tərəfin də verəcəyi hesabatın surətini gözləyib durmaqdadır.

2) Yuxarıda qeyd etdiyimiz kimi, Şəfi bəyin bu boş və mənasız ittihamlarına istehza ilə yanaşır, onları nifrətlə qarşılayıram. Fəqət, işin içində olmayan, Azərbaycan şərait və reallıqları ilə yaxından tanış olmayan bitərəf oxucularda doğura

biləcək şübhəyə yer qoymamaq üçün bu ittihamlar arasında fakt qiyafəsində olan bir-iki fikir üzərində bir az dayanmaq istərdim.

Şəfi bəyin risaləsinin 11-ci səhifəsində nəql etdiyi 400 dollarla 350 lirə hekayəsi bundan ibarətdrir:

1928-ci ilin sonlarında yenə Şəfi bəyin intriqası ilə təşkilatda bir ixtilaf ortaya çıxmış, MM[6] ikiyə ayrılmışdı. Təfsilatını irəlidə söyləcəyimiz bu ixtilafın aradan qaldırılması məqsədilə xəzinədar Əbdül Əli bəylə [7] hesabat hazırlanmış, MM-ə verilmək üçün bir balans hesabatı tərtib olunmuşdu.

1929-cu il 5 oktaybr tarixli toplantının gündəliyində bu balans hesabatının təsdiqi məsələləsi də vardı.

Toplantı başladığı vaxt mühüm bir şəxslə görüşmək üçün mən Türk Ocağına[8] getməli oldum. Mənim yoxluğumda məsələni müzakirə etmişlər. Hesabatın müzakirəsi əsnasında 400 dollarlıq bir gəlirin diqqətdən yayındığı müəyyənləşib. Digər tərəfdən də, Almaniyada əski hərflərlə (ərəb əlifbası ilə - A.B.) çıxarılması planlaşdırılan "İstiqlal uğrunda" qəzeti üçün ayrılan 300 lirə ilə Ankarada təşkil olunacaq 28 May istiqlal mərasimi üçün göndərilmiş 50 lirənin məsrəflər siyahısında olması Mirzə Bala bəyin nəzəri-diqqətini cəlb etmişdir. Belə ki, həm o 300 lirə sərf olunmamış qalmış, həm də 50 lirə Ankara mərasimi keçirilmədiyindən geri qaytarılmışddı.

---

[6] İstanbulda 1927-ci ilin başlanğıcında siyasi mühacirətin rəhbər orqanı kimi yaradılmış Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

[7] Əbdül Əli bəy Əmircanov (1870-1948) – 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyini elan etmiş Milli Şuranın üzvü, AXC parlamentində millət vəkili. AXC-nin 2-ci hökumət kabinəsində əvvəl maliyyə naziri, sonra isə dövlət müfəttişi vəzifələrini tutmuşdur. Aprel işğalından (1920) sonra İstanbula mühacirət etmiş, Azərbaycan Milli Mərkəzinin üzvü olmuşdur.

[8] Türk Ocaqları – türkçülük ideologiyasının təbliği və yayılması məqsədilə yaradılmış cəmiyyət. "Türk Dərnəyi" (1908) və "Türk Yurdu" cəmiyyətlərinin (1911) davamı olaraq meydana gələn cəmiyyət rəsmi olaraq 1912-ci ilin martında fəaliyyətə başlayıb. Əhməd bəy Ağaoğlu onun təsisçilərindən biri olub. Türk Ocaqları 20-ci illərdə müasir Türkiyə dövlətinin təşəkkülündə fəal iştirak ediblər.

Türk Ocağındakı rəsmi görüşdən dönüşümdən sonra, bir tərəfi mənimlə əlaqədar olan həmin hesabatın mənsiz tez-tələsik müzakirə olunmasına heyrət etməklə bərabər, diqqəti cəlb edən cəhətləri izah etdim.

Müzakirə predmeti olan ixtilaf əsnasında mən təkcə Azərbaycan Milli Mərkəzinin deyil, həm də digər ümumi təşkilatların da xəzinədarlığını həyata keçirmək məcburiyyətində idim.

Həmin təşkilatların hesabatına aid qeydlərim, redaksiyadan müsadirə olunan sənədlər işərisində olduğundan[9], kassadakı artıq vəsaitləri dərhal müəyyən etmək müşkül bir məsələyə çevrilmişdi. Buna görə də toplantıdan möhlət istəyərək, kassalara aid gəlir-çıxarı hafizəmdəki məlumat əsasında təxmin və tədqiq etdikdən sonra, həqiqətən də 400 dollar artıq vəsaitin olduğunu müəyyən etdim. Xəzinədar Əbdül Əli bəylə birlikdə tərtib etdiyimiz balans hesabatında yanlışlıq olduğu üzə çıxdıqdan sonra həmin 400 dollar tərəfimdən dərhal kassaya təslim edildi.

350 lirəyə gəlincə isə, bunun 300 lirəsi Almaniyada nəşr ediləcək məcmuənin məsrəfi olmaq üzrə, xəzinədar tərəfindən depozit olaraq mənə verilmiş və aparılan araşdırma nəticəsində bu qəzetin nəşrinin bizim təsəvvür etdiyimizdən daha baha başa gələcəyi məlum olmuşdur. Bu səbəbdən də, onun nəşrindən vaz keçilmiş, 300 lirə isə kassaya geri qaytarılaraq, mühafizə edilmişdir. 28 May mərasiminin məsrəfi olaraq Ankaraya göndərilən 50 lirə də iyun ayında geri gəlmiş və iş arasında, sırf bir təsadüf olaraq iyulun 5-dək kassaya təhvil verilməsə də, elə ilk fürsətdə, Berlinə gedəcək 300 lirə ilə birlikdə təslim edilmişdir.

Bu toplantının "utandırcı" bir cəhəti varsa, o da mənə deyil, bu kimi düşüklüklərinə görə yaxın keçmişdə qapanan "ixtilaf" əsnasında yedikləri mənəvi sillənin "intiqamını" almaq niyyətilə "parlamento pozusu" quran rəzalət sahiblərinə aiddir. Əgər bu rəzaləti yapan əfəndilər protokola salmaq istədikləri

---

[9] Bax: 5-ci fəsil. "Milli evrak məsələsi".

düşüncələrini dərhal türkcə yazıb verəcək qədər milli bir vərdişə malik olsaydılar, şübhəsiz ki, o məclisin də protokolu digər protokollar kimi mövcud olardı. Fəqət, nə edəsən ki, "texniki katib" Mirzə Bala bəyin yoxluğunda (o, bu toplantıdan sonra İrana getdi) əfəndilərin rusca yazıb verdikləri fikirləri şəxsən türkcəyə tərcümə edərək protokola salmaq lazımdı. Mən isə həmin vaxt daha mühüm işlərlə məşğul idim, bütün səylərimi Millətlər Cəmiyyətinə memorandum yazaraq, həmin memorandumu fransızcaya tərcümə etdirmək və Zarevandın[10] məlum kitabına cavab hazırlamaq üzərində cəmləşdirmişdim.

Və o günlərdə yenə milli işlə əlaqədar Avropaya gedəsi olduğumdan, digər bir çox yazılar və materiallar kimi bu protokola aid qeydləri də orada qoydum. Mən olmayanda idarənin ləğvi ilə məşğul olan əfəndilər arxivdəki digər sənədlərlə birlikdə bu qeydləri də itirməyiblərsə, narahat olmasınlar, ilk fürsətdə çox əhəmiyyət verdikləri bu "tarixi düşüncələri"nin tərcüməsilə məşğul olacağıma onları əmin edirəm. Narahat olmasınlar.

Bu "məsələyə" aid intriqan Şəfi bəyin 6 ildən sonra nəql etdiyi pərdəarxası hekayətlər və "arsız" rəvayətlər isə məni qətiyyən maraqlandırmır. Necə ki. göstərilən toplantının səhərisi günü, Əbdül Əli bəyin yoxluğunda, yenə həmin Şəfi bəyin xəzinədar haqqında mənə söylədiyi sözlərə də elə bir əhəmiyyət verməmiş, dodaq büzərək keçmişdim.

İki şeydən biridir: ya hadisə qeyd etdiyimiz kimi, təbii idarə qüsurundan və hesab yanlışlığından ibarətdir ki, elə bir pozuntu

---

[10] Zarevand – Zaven və Vartui Nalbandyanların təxəllüsü. Bu təxəllüslə onlar 1930-cu ildə Parisdə rus dilində "Türkiyə və panturanizm" (Турция и пантуранизм) adlı kitab nəşr etdirmişdilər. Kitabın əsas qayəsi ondan ibarət idi ki, SSRİ-nin türk xalqlarının mühacirətdə olan nümayəndələri, o cümlədən M.Ə. Rəsulzadə öz vətənlərinin müstəqilliyi uğrunda deyil, Rusiyadan ayrılıb Türkiyəyə birləşmək üçün mübarizə aparırlar. Buna cavab olaraq M.Ə. Rəsulzadə elə həmin il Parisdə rus dilində "Panturanizm və Qafqaz məsələsi" (О пантуранизме. В связи с кавказской проблемой) kitabını çap etdirərək, Zaven və Vartui Nalbandyanların iddialarını konkret fakt və dəlillərlə alt-üst etmişdi.

təşkil etməz, yaxud da Əbdül Əli bəyə aid, küçə təbirincə desək, kriminal bir hərəkətdir. Bu təqdirdə, Şəfi bəylərin üzərinə düşən vəzifə tam altı il susmaq deyil, vicdan və namus əhlinə yaraşan şəkildə işə dərhal layiq olduğu reaksiyanı göstərmək və bir gün də gözləmədən belə bir rəisə həmin andaca etimadsızlıq bəyan edərək, onu vəzifəsindən düşürməkdi.

O zaman bu cəsarəti özlərində tapmayan alçaqların indi atdıqları daş topuğa belə dəyməz!..

3) Şəfi risaləsinin 12-ci səhifəsində yazır ki, "dostlarınızdan qızıl taciri olan Əlizadə qardaşlarını[11] yedirib-içirirdiniz".

Bu Əlizadə ismi ətrafında çox spekulyasiyalar yapılmışdır. Onun üçün də bu məsələ üzərində bir az durmaq istərdim.

Əvvəla, Əlzadəyə aid olunan qızıl taciri sifəti Şəfi bəylərə məxsus bir böhtandır. Bu "qızıl taciri"nin İran məhkəmələrində bolşeviklərə qarşı açdığı dava və bu dava dolayısı ilə bolşeviklər əleyhinə apardığı təbliğatı hər kəs bilir. Şəfi bəy "qızıl taciri" axtarırsa, uzağa deyil, öz ətrafına baxsın.

İkincisi, Əlizadə qardaşlarına maaş təyin edən mən deyildim. Onlara verilən maaşı mən Şəfi bəyin piri – Xəlil bəydən aldığım məktublar əsasında göndərirdim. Bunu MM-nin protolokolları da isbat edir. Buyurun, 19.02.1930-cü il tarixli MM protokolundan çıxarış:

"Xəlil bəy: M.Əli bəy[12] İrandan gəldiyi üçün oradakı MM işlərimiz rəhbərsiz qalmışdır. Ağabala Əlizadəyə yazılmalıdır ki, MM işlərinin idarəsini o öz öhdəsinə götürsün və ona *maddi müavinət ediləcəyi* də özünə bildirilsin. *Təklif qəbul olunur*.

---

[11] Ağabala və Əliağa Əlizadə qardaşları nəzərdə tutulur. Məmməd Əli Rəsulzadənin İrandan sürgün edilməsindən sonra "Müsavat"ın üzvü olan Ağabala Əlizadə Tehranda Azərbaycan Milli Mərkəzinin nümayəndəsi olub. Fars dilini əla bilən qardaşlar İranın hakim dairələrində yaxşı əlaqələrə malik olublar və Azərbaycan istiqlal mübarizəsində fəal iştirak ediblər. SSRİ-nin xarici ticarət təşkilatı olan "Neftesindikat"a qarşı İranda açılan məhkəmə davasından geniş antibolşevik təbliğat üçün istifadə edib.

[12] Məmməd Əli Rəsulzadə nəzərdə tutulur.

M. Əli bəy: Əlizadəyə müəyyən qədər pul göndərilməsi haqqında qərar verilincəyə qədər, ona poçt xərcləri üçün bir qədər vəsait göndərilməlidir. Poçt xərci olaraq 15 lirə göndərilməsi qərara alınır”.[13]

26.04.1930-cu il tarixli protokoldan:

“İstanbuldan pul göndərilməsinin müşkül olduğunu nəzərə alaraq, İrana pulun bundan sonra ...-dan göndərilməsinə qərar verilir”.

24.05.1930-cu il tarixli protokoldan:

“Xəlil bəy İranda son zamanlar mühacirətin artmasından və orada təşkilatımızın mövcud vəsaitlə çalışmasının mümkün olmamasından və bu vaxta qədər göndərilən pulların azlığından, oraya daha çox pul göndərmək lüzumundan bəhs edir.

Göstərilən məbləğin *may ayından etibarən İrana göndərilməsinə* qərar verilir”.

Bu protokolların yazıldığı anda mən İstanbulda deyildim və həmin günlərdə MM-in oradakı üzvləri Xəlil, Şəfi və Əbdül Əli bəylərdən ibarətdi. Deməк, Əlizadə qardaşlarına vəsait ayıran və İrana pul göndərən də mən deyildim.

Yalnız bu fakt Şəfi bəylərin nə kimi yollarla, nə kimi fəsadlı məqsədlər güddüyünü göstərməyə bəs edər.

Zahirən fakt təssüratı yaradan bu iki iddianın mahiyyəti anlaşıldıqdan sonra oxucuları boş yerə digər böhtanların təhlili və inkarı ilə yormağa dəyərmi?

Maliyyə sahəsindəki ittihamları bu şəkildə olan adamın indi də siyasi sahədəki ittihamlarına baxaq.

4) Şəfi bəy məni “rəisi olduğum MM təşkilatı əleyhinə xarici qüvvələrə arxalanaraq intriqalar qurmaqda” ittiham edir.

---

[13] Bundan sonrakı toplantıların birində Xəlil bəyin bu təklifinin gerçəkləş-məsi zəminində Əlizadəyə maaş təyin edilir.

Və bunun sübutu olaraq mənim onun haqqında Mirzə Bala vasitəsilə danos verdiyimi iddia edir.

İrəlidəki təfsilatdan görüləcəyi kimi, danosbazlığı artıq özünə peşə etmiş bir adamın bu xüsusdakı iddiaları həqiqətən də gülüncdür. Şəfi bəyin danosbazlıq etməsi iddiası vaxtı ilə Sadıq bəy[14] tərəfindən irəli sürülmüş və bu bilavasitə 1932-ci ildəki anlaşma əsnasında baş vermişdir. O əsnada bizim işlərlə yaxından əlaqədar olanlar bilirlər ki, fəsadın ən mühüm amili olaraq onu (Şəfi bəyi – A.B.) bildiyim halda, bu şayiə ilə bağlı verilən suallara daima ehtiyatla cavab vermişəm. Çünki Şəfi bəyə qarşı ittihamın, eyni zamanda, illərdən bəri onunla bərabər oturanların heysiyyat və etibarlarını da təsirləndirəcəyini heç bir zaman unutmamışam.

Sadıq bəyin ifşasını tamamilə qəbul edə bilmək üçün mənə bu qədər zaman ərzində səbr və dözümlə araşdırma aparmaq lazım gəldi. Daha ağır ittihamları qəbul etmək isə qeyri-mümkün idi. Hərçənd, bu kimi işlərdə təcrübələri olanlar mənə Şəfi bəyin hərəkətlərindən provokatorluq qoxusu gəldiyini israr edib dururdular.

Şəfi bəyin provokator olduğuna və yaxud evrakı ələ verdiyinə bu günkü dərəcədə qəti bir qənaətim o zaman olsaydı, əmin olun ki, onun daxil olduğu bir qrupla heç bir zaman və heç bir şərtlə anlaşmaya getməz, ondan indi olduğu kimi sadəcə felən deyil, rəsmən də ayrılar, onun tərəfindən gələn heç bir məsuliyyəti qətiyyən qəbul etməzdim. Necə ki, bu günkü arxadaşı Səlim bəyin o zaman yazmış olduğu məktubda d-r Xosrov bəyə istinad edərək, Şəfi bəyi azefçilikdə ittiham etməsinə psixoloji vəziyyətə rəğmən, qəti bir əhəmiyyət vermədim.

Mən, bu gün artıq kimliyi tamamilə meydana çıxmış Şəfi bəylə, düşmənə xidmət etdiyinə qail olduğum bir adamla, bəlkə

---

[14] Məmməd Sadıq Axundzadə (1895-1971) – Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü, yazışı. Aprel işğalından (1920) sonra mühacirət edib.

islah olur deyə, illərlə bərabər çalışıb, onunla iş ortaqlığı yapdım.

Şəfi bəy məni ittiham etmək məqsədilə irəli sürdüyü heç bir iddiasını isbat üçün tək bir sənəd də göstərə bilməz. Halbuki, mən onun fəsad və pozğunçuluq hərəkətlərini yazılı sənədlərlə isbat etmək niyyətindəyəm və oxucular bunları irəlidəki səhifələrdə görəcəklər.

Mirzə Bala bəyin Şəfi bəydən danos yazması iddiasının yeganə şahidi Mustafa bəydirsə, onun bu xüsusda bizə söylədikləri tamamilə başqadır. İxtilafın qızğın çağlarında Şəfi haqqında yayılan şayiənin mənbəyi bəlkə mücadilə yoldaşlarımızdır deyə maraqlandıqda, onlar qaziyənin əksinə olduğunu bildirilərək, bu xüsusda qəti təminat vermişdilər.

5) Məktubun pul mənbələrindən, əcnəbi dövlət nazirliklərindən və bu nazirlik məmurlarının söz-söhbətlərindən bəhs edən cümlələri üzərində durularsa, istefa ərizəsinin nə kimi bir provokasiya məqsədilə qələmə alındığı öz-özünə aşkar olar.

Bütün bunlar, bu uydurmalar, əcəba, kimə lazımdır? Şəfi bəy kimin və hansı qüvvənin təhrikilə münaqişəni bu dərəcəyə çatdırmaq istəyir?!...

Mətbuatda dərc etdiklərində bu qədərini söyləyən bir adam, nəşr üçün nəzərdə tutulmayan yazılarında, əcəba, nələr yazmaz, nə yalanlar uydurmaz!..

Məsuliyyət nə olduğunu anlamaqdan məhrum olan bu adamın xəyanət və ya axmaqlıq, daha doğrusu, həm axmaqlıq, həm də xəyanət səbəbindən qaldırdığı bu mövzunun arxasınca gedərək, dedi-qodulara, şayiə və rəvayətlərə əsaslanan mövzular üzərində kimsə ilə münaqişə etmərəm, hələ Şəfi bəy kimi məqsədi təhrik və fitnə olan bir adamcığaza bu vasitə ilə "rütbə" qazanmaq fürsətini isə heç vermərəm.

O indi, hansısa qaranlıq səbəbdən, zərəli bir yol tutub gedir. Bu gedişə haşa müxalifət deyilməz. Bu vəziyyətilə o, məsuliyyət hissini tamamilə itirərək və ya unudaraq, konspirasiya halında olan işlərin bütün təfərrüatlarını üzə çıxarmaq istəyir. Bu xüsusda onu işlərimizin küçələrə tökülməsi üçün təşviq

edən dostları qarşısında mümkün qədər uğursuz etmək bizim borcumuzdur. Çünki biz məsuluq!...

## IV. Şəfi bəyin fəsadları

Əvvəlki fəsildə təhlil etdiyimiz fəsadnamə Şəfi bəyin çoxdan bəri məşğul olduğu fəsadçılığın artıq hər cür səbr və dözümün fövqünə çıxan son dərəcəsi idi. Onun bu mərhələyə qədər yürütdüyü fəsad mənzillərini sizinlə bərabər izləyək. Bu xüsusda bizə yardımçı olmaq üçün Şəfi bəyin firqədən xaric edilməsini elan edən qətnaməni əsas tutaraq, oradakı dəlilləri birər-birər təhlil və isbat edək.

Şəfi bəyin firqədən qovulma qərarında deyilir:

"Bir çox illərdən bəri milli işləri pozan və firqənin təşkilatı əsalarını və nüfuz sahiblərini baltalayan təxribatçı hərəkət və intriqalarından dolayı müxtəlif zamanlarda, məsələn, 1927-ci ildə firqə təşkilatının yekdilliklə verilən ümumi qərarı ilə şiddətli töhmət və 1929-cu ildə isə İstanbul təşkilatından xaric edilməklə Divan üzvülüyündən çıxarılmaq kimi müxtəlif intizam cəzaları alaraq, bir müddətdən bəri əslində tədric halında olan Rüstəmbəyli Şəfi bəyin bugünlərdə firqə və milli mübarizə idealına sadiq bütün arxadaşların ümumi həyəcan və nifrətlərini cəlb edən çıxışı – yəni milli hərəkat rəisi və firqə lideri möhtərəm Rəsulzadə Məmməd Əmin bəyəfəndi haqqında bolşevik casuslarına və milli mücadilə düşmənlərinə məxsus tərzdə alçaq ittiham və böhtanlarla dolu sayğısız yazısı ilə, düşmənin qazancı üçün çalışdığını, pis niyyətli bir şəxs olduğuna artıq şək-şübhə qalmadığını nəzərə alaraq – Azərbaycan "Müsavat" Xalq Firqəsi rəhbərliyi – firqə üzvlərinin mənən "Müsavat" ailəsi xaricində gördüyü və yuxarıda da qeyd olduğu kimi, bir müddətdən bəri məsul vəzifələrdən felən uzaqlaşdırılmış bu adamın, bu andan etibarən rəsmən də firqədən çıxarıldığını hamıya elan edir.

5 aprel 1934-cü il".

1) 1927-ci ildəki hadisə belə olmuşdu: Mustafa bəy İstanbulda yoxdu. Şəfi bəylə Xəlil "M.M."-də firqə nümayəndəsi kimi bu müəssisədəki çalışmalarında firqə mərkəzindən alınan direktivlərə uyğun hərəkət etməli olduqları halda, buna zidd bir şəkildə, mövcud firqə mərkəzinin toplantılarını iqnor edərək,

müstəqil olaraq çalışmaq yoluna sapmış, onlara verilən nəsihət və tövsiyələri rədd edərək, nə firqə intizamına riayət etmiş, nə də MM nümayəndəliyindən istefa vermişlər.

Bu məsələ ilə bağlı rəhbərlik tərəfindən hər iki firqəçinin hərəkəti İstanbuldakı müsavatçıların müzakirəsinə verilmiş, sayları 25-ə çatan mövcud bütün arxadaşların çox həyəcanlı etirazlarına uyğun olaraq onlar haqqında şiddətli töhmət qərarı çıxarılmış və hər ikisi bundan sonra firqə mərkəzinin bütün qərarlarına sadiq qalacaqlarını və tutduqları işdən peşman olduqlarını bəyan edərək, hamının qarşısında əfv istəmişdilər.

Xəlil bəyə xüsusilə çox ağır gələn bu səhnəni, Şəfi bəy öxünəməxsus hiyləgərliklə qarşılamış, aşırı inadın daha ziyanlı olacağını dərhal dərk edərək, işi az zərərlə qapatmaq yolunu tutmuşdur. O, Xəlil bəyin "mən firqə üzvüyəm, fəqət firqəçi deyiləm" formulunda öz ifadəsini tapmış bu intizam bilməyən, prinsipsiz müxalifəti sözdə tərk etdiyini bildirərək, sadəcə "bağışlayın" deməklə vəziyyətdən çıxmağa müvəffəq olmuşdur.

2) 1928-ci ildə müxalifətin və o cümlədən Şəfi, Xəlil və Sadıq bəylrin təşkilatdan qovulmaları tarixi budur:

Parisdə Əli Mərdan bəyin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətilə AMM[15] arasındakı ixtilafı həll etmək üçün oraya göndərilmişdim. Nümayəndə heyətilə AMM arasındakı ixtilaf prinsipdən daha çox təşkilati məsələlərə və səlahiyyət davasına aid idi. Xəllil bəy əvvəl bu qarşıdurmanın sülh ilə bitməsinin əsas tərəfdarlarından idi. Lakin altı ay sürən uzun bir müzakirələrdən sonra əldə edilən nəticəyə qarşı Xəlil bəy şiddətli müxafilətə başladı. Nümayəndə heyətinin AMM-ə tabe olmasını təmin edən bu anlaşmaya qarşı çıxaraq və firqə toplantılarında Şəfi bəylə bərabər əldə olunmuş razılaşmanın səmimi olmadığını əsas gətirərək, olmazın tənqidlərə başladılar. Hələ Şəfi bəyin əldə olunmuş anlaşmadan məmnuniyyətsizliyi o dərəcədə böyük idi ki, bunu "Əmin bəyin Əli Mərdan

[15] Azərbaycan Milli Mərkəzi nəzərdə tutulur.

bəyə təslim olması" kimi qiymətləndirirdi. Halbuki, həmin anlaşmaya görə, əvvəlcə özünü tamamilə müstəqil hesab edən heyət, indi tabe bir qurum qismində MM-in hər cəhətdən ən böyük və hakim milli bir müəssisə olduğunu qəbul etmişdi.

Özlərinə məxsus gizli taktikanın təzahürü olan bu manevr ilə bərabər onlar firqə mərkəzinin üzvləri arasında da fikir ayrılıqlarını qızışdırmaq və həmrəyliyi pozmaq yolunu tutdular. Mənim yoxlluğumda Xəlil bəyin rəhbərliyi və Şəfi bəyin yaxından müdaxiləsilə Mirzə Bala ilə Sadıq bəylərin araları dəymiş, Abbas bəy işdən uzaqlaşmış, Mustafa bəylə bütün əlaqələr kəsilmişdi. İşlərin bu vəziyyətdə davamının mümkünsüz olduğu nəzərə alınaraq, firqə mərkəzinin toplantılarından birində yekdilliklə qəbul edilən qərara əsasən, bir rəis sifətilə mənə, mərkəzi yaşadığı böhrandan çıxarmaq üçün qəti vasitələrə əl atmaq səlahiyyəti verildi. Bu qərar üzərində düşünərək, müxtəlif vaxtlarda firqə mərkəzinin üzvü olmuş şəxslərin iştirakı ilə yeni firqə mərkəzi (Divan) təşkilatının münasib olacağı qərarına gəldim. Bütün firqə üzvləri bu təklifi məmnuniyyətlə qəbul etdikləri halda, Şəfi, Xəlil Və Sadıq bəylər ona qarşı çıxdılar. Şəfi bəylə Xəlil bəy, eyni zamanda, MM-də nümayəndə idilər. Həmin qurumda bir firqə nümayəndəsi kimi deyil, fərdi qaydada iştirak etdiklərini iddia edərək, firqə əleyhinə hərəkətə keçdilər. Özü də bu hərəkətlərində milli çərçivə daxilində də qalmayaraq, beynəlmiləl miqyasda intriqalara baş vurdular. Bu itaətsizliyin cəzası olaraq İstanbul təşkilatı onları öz sıralarından xaric etdi. Bu intriqalarin təhrikçisi şəxsən xəbis ruhlu Şəfi bəy idi. Şəfi bəy müəllim Şərif bəyin evində barışdığından bəhs edir. Fəqət ondan öncə, milli işi kökündən baltalayan təşəbbüslərindən, bu təşəbbüslərin uğursuzluğa düçar olmasından, müraciət etdiyi əcnəbilərdən nəsihətlər və töhmətlər dinləməsindən təbii ki, danışmır. Unudur ki, onlara - *siz necə tərəfdaşsınız ki, aranızda çıxan bir ixtilafa görə başqalarına müraciət edərək, bizim işə yardım edin deyirsiniz* – cavabı verilmişdi.

Şəfi bəy onu da unutmasın ki, arxadaşı Xəlil bəy, MM-in fəaliyyətini bitərəf şəxslərdən birinə yazdırdığı firqə əleyhinə bir bəyannamə səbəbindən dayandırmaq istəmişdi. Müəllim Şərif bəyin vasitəçiliyi, hər yerə baş vurub, çarəsiz qalan Şəfi bəy üçün yaxşı bir geri çəkilmək fürsətindən başqa bir şey deyildi.

Sonradan anlaşıldığı kimi, bu sırada Şəfi bəyin təşkilatdan qisas almaq üçün baş vurduğu "çarə"lərdən biri də çuğulçuluq (danosbazlıq - A.B.) olmuşdur. M. Sadıq bəy tərəfindən ifşa olunan və zaman keçdikcə digər mənbələrdən verilən məlumatlarla da təsdiqlənən bu hərəkətilə o, təşkilata qarşı çox fəna bir sui-qəsddə bulunmuşdur ki, məlum "evrak məsələsini" izah edərkən bunu anladacağıq.

3) 1932-ci ildəki "böyük ixtilaf" əsnasında Şəfi bəyin oynadığı mənfi rolun izahına keçməzdən əvvəl, onun 1929-cu ildə də qeyri-səmimi olaraq barışdığını və keçici bir zaman üçün daşı cibində gizlədib, fürsət düşdükcə əl altından, gizli-gizli fəsad və intriqalara davam etməkdə olduğunu göstərən bir faktı da qeyd və isbat edirəm.

Şəfi bəylə Xəlil bəy sözdə bizimlə barışdıqları halda, işdə təşkilata qarşı intriqalardan geri qalmırdılar. O sırada İstanbul mühitində MM ətrafında namünasib bir hava əsir və əsdirilirdi. Müxtəlif imzalarla mühacirlər arasında bir sıra bəyannamələr yayılır, onlarda "milli paraların (pulların – A.B.) nəzarətsiz sərf olunduğundan" bəhs edilirdi. Bir neçə imza ilə MM üzvlərinə kollektiv məktublar yazılır, "mühacirət adından hesab" istənilirdi.

Belə bir vəziyyətdə öz quruluşu, nizamnaməsi və konspirativ müəssisə olması hesabı ilə geniş mühacirət mühitinə təşkilati cəhətdən heç bir münasibəti olmayan bir quruma mənsub üzvlərin görəcəyi iş nə idi? Hər şeydən öncə, müştərək bir qərar ilə bu təklifə mənfi və ya müsbət bir cavab vermək, yaxud da bu və ya digər mülahizə ilə müəyyən bir mövqe sərgiləmək, deyilmi?

Halbuki, nə görürük: Şəfi bəylə Xəlil bəy hər cür etikadan kənara çıxaraq və öz arxadaşlarını fakt qarşısında qoyaraq, bu iş bizə deyil, Əmin bəylə Əbdül Əli bəylərə aiddir fikrinə əsaslnan məktublarla müxaliflərə cavab göndərmişdilər ki, onların bu cavablarını da o zaman müxalifət orqanı olan "Azeri Türk" məcmuəsinin 3-cü ilinin 30-cu sayında görürük. Çox xarakterik olan bu məktubları söylədiklərimizin təsdiqi üçün olduğu kimi aşağıda veririk:

a) "Bitərəf təmsilçilərin diqqətinə: 28 oktyabr 1929-cu il tarixli məktubunuzu aldım. Şəxsimə aid olmadığından adı keçən məktubunuzu aidiyyəti müəssisəyə göndərdim. Dərin hörmətlərlə,
Xəlil".

b) "Sultan bəyəfəndiyə,
Çox möhtərəm əfəndim, 28 oktaybr tarixli məktubunuzu və 51 imzalı məktubun surətini aldım.
Yuxarıda xatırlanan məktubun içindəkilər və orada verilən suallar mənim şəxsimə aid olmadığından cavab verməyə nə yazıqlar ki, aciz olduğumu bəyan etməklə, sayğılarımı bildirirəm, əfəndim.
Şəfi".

Bu məktubların altında "bitərəflər"in müraciətlərinə Məmməd Əmin bəylə Əbdül Əli bəylərin cavab vermədikləri qeyd edilmişdir.

Bu surətlə Şəfi bəylə Xəlil bəy "görülən işlər haqqında məlumat və bütün məsələlərə aid hesabat verməyə" onların deyil, başqalarının, yəni Məmməd Əmin bəylə Əbdül Əli bəylərin məsul olduqlarını fəndgirliklə söyləməklə, mənsub olduqları təşkilatın nüfuzunu sarsıdır və bununla da bir ayağı ilə içəridə, digər ayağı isə bayırda duran ikiüzlü, qeyri-səmimi və intriqaçı olduqlarını isbat edirlər.

Buna bənzər nə qədər hadisələr, nə qədər intriqalar vardır ki, biz onlardan bəhs edərək oxucuları çox yormaq istəmirik.

4) İndi gələk 1932-ci ildə yaranan böyük ixtilafa.

Bu ixtilaf MM-in fəaliyyti və qərarlarının icrasını tənzimləmək məqsədilə irəli sürülən müəyyən bir təklif nəticəsində yaranmışdı. MM-nin ən məsul və fəal üzvləri İstanbul xaricində yaşamaq məcburiyyətində qalmışdılar. Təşkilatın rəisi də yaranmış vəziyyət nəticəsində xaricdə yaşamaq məcburiyyətində idi. Rəislə birlikdə MM heyətinin yarısını təşkil edən Avropadakı üzvlər bu fikirdə idilər ki, üç müxtəlif mərkəzdə[16] yaşayan üzvlərdən üç kişi icra heyəti kimi ayrılsın, milli işlərin felən idarəsi onlara verilsin. Yalnız Xəlil, Şəfi və Əbdül Əli bəylərdən ibarət olan İstanbuldakı üzvlərə MM adından qərarlar qəbul etmək hüququnun verilməsi, onların nəzarətinə tabe olunması əksəriyyətdən kimsəyə təbii gəlmirdi. Çünki bu halda bir müəssisənin ən passiv ünsürləri ən aktiv ünsürlər üzərinə direktiv vermək haqqını qazanmış olurdular ki, buna da uzun müddət qatlaşmaq mümkün deyildi. Yaranmış coğrafi-siyasi şəraitdən öz faydaları üçün yararlanan və məişətləri etibarı ilə İstanbula bağlı olan bu üzvlərin vəziyyətdən öz xeyirlərinə necə istifadə etdikləri haqda aşağıda göstərilən MM protokolları əsasında nəticə çıxarmaq olar.

15.02.1930 tarixli protokoldan:

“İştirak edənlər: Xəlil, Şəfi və Əbdül Əli bəylər.

3) Xəlil və Əbdül Əli bəylərə qaytarılmaq şərtilə yardım üçün hər birinə yüz (100) lirə borc verilməsi təkrar xahiş olunur”.

19.021930 tarixli MM protokolundan:

“Xəlil bəy təklif eir: Bugünlər Şəfi bəyin pula ehtiyacı vardır. Geri qaytarmaq şərtilə, borc olaraq ona 100 lirə verilsin. Təklif qəbul olunur”.

Əl əli yuyar, əl də üzü – deyilmi?

Ayın 15-də Şəfi bəy Xəlil bəylə Əbdül Əli bəyə 100 lirə verir ki, bir neçə gün sonra özü də 100 lirə alsın. Özü də elə bir zamanda ki, Şəfi bəy kimi 15 inək sahibi deyil, həqiqətən də

[16] İstanbul, Paris və Varşavada.

ehtiyacı olan vətəndaşlara, həmin MM çox haqlı olaraq borc verməyi dəfələrlə rədd etmişdi. Çünki siyasi fəaliyyətlə məşğul olan MM-in kassasını kiçik kredit müəssisəsi şəklində təsəvvür etmək doğru bir iş olmazdı.

Bu, Şəfi və Xəlil bəylərə məxsus maliyyə siyasətini nümayiş etdirən çoxsaylı faktlardan ancaq biridir və meydanın boş, sədrliyin Xəlil bəydə olduğu zamanlar, beş para almadan çalışdığı ilə öyünən Şəfi bəyin aldığı və bu günə kimi qaytarmadığı borcların miqdarı bir deyil, iki deyil, yüzlərlədir. MM-in İstanbulda saxlanması məsələsində bir vaxtlar Xəlil və Şəfi bəylərlə bərabər hərəkət edən Mustafa bəyin İstanbuldan hər ayrılışından sonra geri dönüşündə hansı qalmaqallar saldığını onun özündən soruşmaq lazımdır. Və şübhəsiz, bu yardımları ala bilmək üçün, yuxarıdakı misalda gördüyümüz kimi, "rəis vəkilinin" də xətri alınmamış deyildi.

MM-in məsul üzvləri belə bir mənzərə təşkil edən "İstanbul"a milli işlərin müqəddəratını necə əmanət edə bilərdilər?!.

Rəisin İstanbula dönüşü mümkün oluncaya qədər MM-in yenidən qurulmasını istəyənlərin əndişələlərinin mühüm səbəblərindən biri də məhz bu idi.

Bu yenidənqurma təklifinə qarşı müxalifətin xəbis ruhu olaraq yenə də Şəfi bəyi görürük. Hamı aldadılır, Əmin bəy nəzarət istəmir, Əmin bəy İrana gedən pulları özündə saxlayır və bununla da, İrandakı dostları zəif salır, - deyə o, təxribatlara başlayır.

Nəhayət, məsələ qalmaqallı bir şəkil alır. Şəfi bəy ondan yaşca böyük olsa da, daima sözünü dinləyən Xəlil bəyi bol maaş, çoxlu yol xərci və ayrıca ailə təminatı ilə Avropaya göndərir, arxasınca da 60 yaşlı bir adamın saç-saqqalına yaraşmayan direktivlər yollayır. Bu direktivə görə, Xəlil bəy gedəcək, lazım gələn mühüm yerlərə anladacaq ki, Əmin bəy İrana ayrılan pulları özündə saxlayır. Bu xüsusda o adamı inandırarsa, nəticə Əmin bəy üçün faciəli olacaq.

Beləliklə, Xəlil bəy "Əmin bəyin zəifliyini və dürüst adam olmadığını" hər tərəfdə söyləməli idi. Xəlil bəyə belə fitnə və

fəsad, ittiham və iftira dərsi verməsi Şəfi bəyin 25.12.1932-ci il tarixli məktubunda əks olunub.

Fəqət Xəlil bəy etdiyi təşəbbüsünə rəğmən, Şəfi bəyi sevindirmədi. Çünki mübahisə mövzusu olan həmin pulları Əmin bəy müntəzəm olaraq göndərirdi və məhz Əmin bəyə etimadsızlıq göstərilməsini tələb edən zat vasitəsilə göndərirdi. Bu pulların göndərilməsini təsdiqləyən və elə həmin adamın imzaladığı qəbzlər vardır. Şəfi bəyin mənhus məktublarından ilham alan Xəlil bəylə anlaşmak, getdikcə daha böyük bir qalmaqal şəklini alan ixtilaf fonunda imkansız olurdu. Xəlil bəy MM-in yenidən qurulmasi məsələsində heç bir kompromisə getmək istəmirdi. Nəhayət, firqə məsələsində anlaşmaya dəstək ola biləcək bir formul tapıldı.

Xəlil bəylə belə razılaşdıq ki, MM-in yenidən qurulması məsələsi MM konfransında adi səs çoxluğu ilə həll olunacaq (əvvəlcə əfəndilər buna razılaşmırdılar). Firqə Divanı firqə lideri Əmin bəy tərəfindən firqəçilər arasında keçiriləcək sorğu yolu ilə yenidən təşkil olunacaq və bu yeni təşəkkülə qədər Divanın səlahiyyətləri təbii ki, rəisdə qalacaq.

İşin həllinə bu qədər yaxınlaşdığımız halda, MM-də üç nəfərlik məsul bir icra heyəti yaratmaq təklifi məsələsində Xəlil bəylə heç cür anlaşa bilmədik. Hansı ki, belə bir qurumun yaradılması Parisdəki MM üzvlərinin də birgə tələbləri idi. Danışıqlar kəsildi. Bu kəsilmə "qəhrəmanlığını" da sözdə nəyin bahasına olursa-olsun anlaşmaq məqsədilə gəldiyini söyləyən Xəlil bəy öz üzərinə götürmüş oldu.

Ən son anda, Xəlil bəyi buraxaraq, M. Yaqub bəy və mən Mustafa bəylə görüşdük. Nəhayət, Xəlil bəyin də qəbul etmək məcburiyyətində qaldığı aşağıdakı formul qəbul olundu:

"Əsas vəzifəsi Azərbaycanın istiqlal davasını dəstəkləmək olan təşkilatın Türkiyə daxilində olmasını prinsipcə zəruri görməklə bərabər, konfrans hal-hazırda cərəyan edən siyasi vəziyyəti və MM üzvlərinin müxtəlif mərkəzlərdə dağınıq halda olduqlarını nəzərə alaraq, milli işlərin yaxşı getməsini

təmin etmək və müxtəlif nöqteyi-nəzərləri uzlaşdırmaq məqsədilə qərara alınır:

Milli Mərkəz İstanbulda qalmaqla bərabər, felən ümummilli işləri idarə etmək məqsədilə üç şəxsdən ibarət səlahiyyətli bir heyət seçiləcək. Bu heyət ........ –də yerləşəcək".

Xəlil bəy tərəfindən də qəbul olunan bu formul əsasında barışıq əldə edildi. Xəlil bəy mənə, M. Yaqub və Mustafa bəylərə uğurlar arzulayaraq, yardım edəcəyini vəd etdi, biz də ondan İstanbulda Mustafa bəyə yardım gözləməkdə olduğumuzu söyləyərək ayrıldıq.

Bundan sonra Mustafa bəy İstanbula dönür və vəziyyəti anladır. Oradakılar əldə olunan anlaşmanı qəbul etsələr də, Şəfi bəy yenə rahatlıq tapmır, Şəfibəyçilik təmin olunmur. 1929-cu ildə Paris ixtilafından sonra olduğu kimi, bu dəfə də razılaşmanın səmimi olmadığını, Əmin bəyin İstanbula qarşı gizli məqsədlər güddüyünü iddia edərək ora-bura yazmiş, bir düyün uydurmalarla aranı təkrar qarışdırmaq istəmişdir. Mustafa bəy həddini aşan faydasız müxalifətin milli mücadiləyə vurduğu zərəri gözü ilə görmüş, formula sadiq qalmaq əzmini nümayiş etdirmişdir. Amma dünənki partizanlar Şəfi bəy başda olmaqla heç cür sakit olmur, aramsız olaraq qızğınlıqla öz hisslərini göstərir, aranı qarışdıran bir düyün şayiələr və fitnələr oyadan xəbərlər yayırlar. "Bu icra heyətindən də bir şey çıxmadı, işlərimiz bərbaddır" – sözləri günün şüarı olur.

Daha sonra bütün hücum Mustafa bəyə yönəlir!

Bu hücumun nə formada və hansı motivlərlə edildiyini indi həm Şəfi bəyin, həm də Nağı bəyin yazıları ilə müəyyənləşdirmək mümkündür. Şəfi bəy pozğunçu mən deyil, Mustafa bəy olmuşdur deyə, səhifələr dolusu yazı yazır, amma bu dəfəki ən rəzil pozğunçuluqda onunla ortaq olmaq istəmədiyi üçün Mustafa bəyi heç cür bağışlaya bilmir.

Mustafa bəy firqə və MM rəhbərliyinə müxalifətdə olarkən qiymətli bir siyasi xadim idi[17], indi pozğunçulara qarşı çıxaraq,

---

[17] Nağı bəy Şeyxzamanlının M.Ə. Rəsulzadəyə yazdığı məktubdan.

milli və vətənpərvəlik mövqeyində durduğu üçün xaindir! “Arxadaşları topdan satmışdır!”[18] Fəqət bu satlıq mallara qiymət verən kim? Mustafa bəy nəyin xaindir, Şəfibəyçiliyinmi? Elə isə, əla! Bu “xəyanəti” o “sədaqətdən” hər zaman üstün tutduq, yenə də tutacağıq! Qızanlar bizə deyil, ozlərinə “satlıq” olduqları üçün qızsınlar!..

[18] N. Şeyxzamanlı. “Biz ve Onlar”. İstanbul, 1934. S. 33.

## V. Milli evrak məsələsi

Şəfi bəy tərəfindən çox üstüörtülü keçilən bu məsələnin tarixi belədir:

1929-cu ilin iyun ayında "Odlu Yurt" [19] redaksiyasında axtarış aparılaraq milli evrak (sənəd – A.B.) müsadirə olundu.

Bu olay Şəfi bəyin "böyük ixtilaf" adlandlrdığı hadisənin qapanmasından bir neçə ay sonra baş vermişdi. Bu əsnada təşkilat müxalifətin hücumlarına məruz qalırdı. O cümlədən, əvvəlcə Şəfi və Xəlil bəylə müştərək müxalifətdə olan Sadıq bəy, birincilərindən fərqli olaraq, müxalifətçiliyində davam edirdi. Bu sırada bir şayiə çıxdı: evrakı müsadirə etdirən Sadıq bəy imiş. Bu şayiəni eşidən Sadıq bəy, dərhal hərəkətə keçdi. Şayiənin namusuna ləkə olan həqarətini aradan qaldırmağa çalışaraq, təşkilata mənsub bir arxadaşın adına göndərdiyi 12 sentyabr 1929-cu il tarixli məktubunda deyirdi:

"...əvvəlcə şəxsən anlatdığım zaman, bu xüsusda yazılı bildirilməsini istədiyiniz üçün bu "sənədi" sizə öz əlimlə göndərirəm.

Olayın (yəni evrakın ələ keçəməsinin) səbəbi sizinlə bərabər çalışanlardan Şəfi bəydir. Plan belə qurulmuşdu ki, əvvəlcə redaksiyada axtarış aparılacaq, bundan sonra isə Şəfi bəy idarə heyəti daxilində bu hadisədən dolayı gurultu qoparacaq və Əmin bəyə hökumətin etimad etmədiyi əsas gətirilərək, ona erimadsızlıq göstəriləcək və rəhbərlikdən kənarlaşdırılacaq... Bəlkə də bu iş onun ölkədən sürgün edilməsilə nəticələnəcək ki, hadisələrin belə inkişafı "daha məntiqli" olardı. Bu xüsusda bəzilərini qorxudurmuş da. Qurulan bu oyun gözlənilən nəticəni verməyincə, Şəfi bəy bəzi təcili tədbirlərə baş vurur. Çünki o, üzərinə götürdüyü vəzifələri yaxşı yerinə yetirmədiyindən əlaqədar şəxslər qarşısında çətin vəziyyətə düşübmüş.

Bu məsələnin ardınca düşüb, bir təsadüf nəticəsində öyrəndiyim həmin xəyanəti Rəsulzadə Əli bəyə[20] açdım. O da Xəlil bəyə söylədi.

---

[19] 1929-1931-ci illərdə Azərbaycan siyasi mühacirətinin İstanbulda nəşr etdiyi ictimai-siyasi toplu.

[20] Məmməd Əli Rəsulzadə nəzərdə tutulur.

Xəlil bəydən də xəbər Şəfi bəyə yetişdiyi zaman başılovlu doktor Xosrov bəyin yanına qaçaraq, işin haradan sızdığını anlatmaq istəmiş və o cümlədən demişdir ki:

"Məmməd Sadığa söyləyin ki, mən onun dostuyam, xətrini çox istəyirəm... və 5 lirə də "Azeri Türk"[21] məcmuəsi namına pul göndərirəm. Hadisənin bütün təfsilatını bilən Xosrov bəy təffərrüatı mənə anladırkən heyrət etməkdən özümü saxlaya bilmədim...

...İndi bu oğru, özü də namus oğrusu ilə bir masada eyni qabdan yemək yeyirsiniz. Yenə o, sizin aranızda dolaşır.

...Siz istədyiniz qədər bu oğru dəstəsi ilə həmkasa olun... Onlar da sizin kökünüzü içəridən qaza-qaza dursunlar... Siz də onlara "inşaallah, xoş niyyət sahibi və realist adamlardır" deyə, millətin və firqənin namusu ilə oynayanlarla qucaqlaşın..."

Sadıq bəyin bu müraciəti arxadaşlar arasında müzakirə edildi. Fəqət bunun müxalifət tərəfindən bir manevr olması mülahizəsi o zaman daha qüvvətli bir ehtimal halında olduğuna görə, məsələnin doğruluğunu təsdiq edən yeni fakt və sənədlər peyda olmayınca, Şəfi bəyin təşkilati məsuliyyəti üzərində durulmaması taktikası qəbul olundu.

Fəqət Sadıq bəy bu məktubla kifayətlənmədi. Məsələni mətbuata çıxardı.O zaman əlində olan "Azeri Türk" məcmuəsinin 2-ci il, 6-7-ci saylarında "Paydos əfəndilər" adlı bir məqalə nəşr etdi. Sadıq bəy bu məqaləsində yazırdı:

"Hər bir vətənsevər azərbaycanlının utanc duyduğu hadisə budur: Doqquz ildən bəri qırmızı ruslara qarşı xaricdə Azərbaycan davasının müdafiəsi davam edir. Həmin davaya xaricdə olan bütün azərbaycanlılar əllərindən gəldiyi qədər maddi və mənəvi yardım etməkdə idilər. "Mill vəhdətdən səadət doğar" fikrinə etiqad edənlər, iş başına kimlərin fürsət tapıb keçdiklərinə əhəmiyyət vermirdilər. Hər kəsin uzaqdan-yaxından əlaqədar olduğu bu "fəaliyyət"in səmərəsi olaraq ortada yalnız

[21] «Azeri Turk» - 1928-1930-cu illərdə Azərbaycan mühacirlərinin İstanbulda nəşr etdirdiyi antibolşevik xarakterli siyasi jurnal. 1927-ci ilin oktyabrında bolşeviklərin təzyiqi nəticəsində Türkiyədə nəşri qadağan edilən «Yeni Kafkasya»nı əvəzləyib.

istiqlal davası tarixinin toplanmış sənəd və kağızları vardı. Təqribən beş ay əvvəl bu məxfi milli sənədlərin ələ keçməsi xəbərini aldıq. Sıx surətdə gizlədilməyə çalışılan bu məsələnin yenə maraqlı şəxslər tərəfindən ifşa olunmasına biz də laqeyd qalmadıq və təhqiqatımızı dərinləşdirdik. Şəfi bəyin pis niyyətlə həyata keçirdiyi bu cinayətin sırf öz "arxadaş" və "lideri" Rəsulzadə Məmməd Əmin bəyi yıxmaq məqsədilə etdiyi təsbit edilərək, məsələ bütün təfərrüatları ilə yazılı şəkildə Rəsulzadəyə bildirilmiş və "bu mənfur hərəkət ört-basdır edilərsə, mətbuata çıxarar, ədliyyəyə qədər gedər, bu namus oğrusu ilə həmkasa olduğunuzu bütün cahana elan edərik" deyilmişdi".

M. Sadıq bəy eyni nömrədə Şəfi bəyə göndərdiyi bir məktubu da dərc etmişdi. Bu məktubda Sadıq bəy, "milli evrakın ələ keçməsində" Şəfi bəyin "günahkar olduğunu" çoxdan bildiyini qeyd etdikdən sonra əlavə edir ki:

"Etdiyiniz bu xəyanət yalnız üzvü olduğunuz "Müsavat" firqəsinə aid deyil, eyni zamanda, vətən və millətə də aid bir hərəkətdir. Məsələ bütün çılpaqlığı ilə meydandadır. Məhkəmə qapısı da açıqdır. Fəqət, büsbütün rəzil olmamağınız üçün sizə bir fürsət də verirəm: davanın məhkəmə yolu ilə təsbitini arzu etsəniz, tərəfinizdən təyin edilən adamın adını iki günə qədər bildirin".

09.10.1929-cu il tarixində yazılan bu məktuba yuxarıda adı keçən nömrənin nəşr tarixi olan 2 noyabr 1929-cu ilədək cavab verilmədiyi məcmuə redaksiyası tərəfindən təsdiq olunmuşdur.

Bu yazıdan sonra M. Sadıq bəyin Şəfi bəyə qarşı ittihamı artıq adətən olduğu kimi bir müxalifət manevrindən çıxaraq, ciddi xarakter alır. Şəfi bəy açıq-aşkar ittiham və təhqir edilmiş, məhkəməyə çağırılmışdı.

Sadıq bəylə baş-başa gəlməyi çox da arzulamayan Şəfi bəy, arxadaşların rəy və israrından sonra Sadıq bəylə davaya sövq edildi. Bu xüsusda ona hər cür yardım və dəstək göstərildi. Hətta, öz xahişindən sonra, ona vəkil tutmaq üçün 100 lirə də maddi müavinət verildi.

Görək bu məhkəmədən nə çıxdı?

Şəfi bəy öz risaləsinin bu olaya həsr olunmuş çox sönük hissəsində yazır:

"Məmməd Sadıq bəyin mühakimə məsələsinə gəlincə, təşkilatın və nüfuzlu vətəndaşların israrı səbəbilə getdiyim məhkəmə çəkişməsindən M. Sadıq bəyin dərc etirdiyi bu bəyanatdan sonra vaz keçdim:

"Keçən nüsxəmizdə (28/29 saylı) "Paydos əfəndilər" adı altında nəşr etdirdiyimiz məqalədə bir məslək münaqişəsi yapılırkən, digər bəzi isimlərlə birlikdə Şəfi bəyin adı da çəkilmişdir. Bəhs olunan məsələnin Azərbaycan icması arasındakı şayiələrdən qaynaqlanan bir yanlışlıq olduğunu bəyan edərək, bu yazılardan və şərhlərdən az öncə anılan Şəfi bəy mütəəssir olmuş isə, bundan dolayı üzr istəməyə lüzum görürük. *Məmməd Sadıq*".

Şəfi bəyi bu formulla kifəyətlənməyə bəlkə də bəzi "nüfulu" vətəndaşlar inandırmışlar. Fəqət, təşkilatdan heç kəs Şəfi bəyə, təkcə onu kimi hüquqşünası deyil, hüquqdan az-çox başı çıxan bircə şəxsi belə təmin etmək iqtidarında olmayan bu formulu qəbul etməyi məsləhət bilməmişdir. Belə israr faktı qətiyyən olmamışdır. Əksinə, Şəfi bəy bu formulu qəbul etməklə təşkilatı fakt qarşısında qoymuşdur.

İndi məhkəmə məsələsinin necə bitdiyini bir də əks tərəfin özündən öyrənək.

"Azeri Türk" məcmuəsinin 3-cü il, 30 saylı (1 fevral 1930-cu il tarixli) nüsxəsində dərc olunmuş "Məcmuəmiz məhkəməyə verildi" başlıqlı məqalədə eynən bunları oxuyuruq:

"Keçən nüsxəmizdə "Paydos əfəndilər" adı altında dərc etdiyimiz məqalədən dolayı Şəfi bəy məhkəməyə müraciətlə bir şəxsi təhqir davası açmışdı. Məsələnin aydınlaşması üçün, davanın şəklini və nəticəsini oxuculara ərz edirik:

Şəfi bəy iddia ərizəsində yazmışdır:

İstanbul 6-cı müstəntiqliyinin məmuriyyəti-aliyəsinə!

Məmməd Sadıq bəy tərəfindən nəşr edilməkdə olan "Azeri Türk" məcmuəsinə məxsus 1929-cu il oktyabr tarixli 6/7 (28/29) saylı nüsxənin altıncı səhifəsində yer almış "Paydos əfəndilər və bir

rəzalət səhnəsi" ünvanlı və Məmməd Sadıq imzalı məqalədə açıq-aşkar ismimi söyləyərək, şəxsimə aid (cinayətkar, namus oğrusu, bic və s.) bir sıra ağır və çirkin söz və cümlələrlə məni söyüb təhqir etmişdir. Bununla da, xalqın həqarət və düşmənçiliyinə məruz qoyaraq, namus və etibarımı qırmışdır.

Bu hadisədən dolayı Məmməd Sadıq bəylə məhkəmə çəkişməsinə gedərək, qanuni hökmlərin tətbiqini, eləcə də məhkəmə məsrəfləri və vəkillik xərcləri də daxili olmaqla 5 min lirə mənəvi təzminat ödənilməsini Cəza Mühakimə üsulları qanununun (Cinayət Məcəlləsinin – A.B.) 350-ci maddəsinə müvafiq olaraq tələb və rica edirəm..."

İddia ərizəsindən göründüyü kimi, Şəfi bəy məqalənin əsil canını təşkil edən mövzudan (milli evrak məsələsindən – A.B.) qətiyyən bəhs etməyərək, mən bu işi görmədim demir. Sadəcə olaraq, xalqın ağzından alınıb, məqalədə dərc edilən bəzi kəlmələrə görə dava açır.Çəkişmə 01.01.1930-cu il tarixdə İstanbul ikinci cəza məhkəməsində araşdırıldı. İddiaçının vəkili, müvəkkilinin "namus oğrusu", "cinayətkar" və s. kəlmələrlə təhqir edildiyini irəli sürərək, məqalə müəllifinin cəzalandırılmasını istədi.

Biz, qanunun nəzərdə tutduğu şəxsi təhqir faktının mövcud olmadığını, məcmuənin Azərbaycan milli istiqlal davasını apardığını, şəxslərlə yalnız bu dava çərçivəsində məşğul olduğunu, göstərilən kəlmələrin xalqın ağzından alındığını və nəhayət, adı çəkilən məqalənin rəy və qənaətdən doğan bir məslək münaqişəsindən başqa bir şey olmadığını izah etdik. Bundan sonra prokuror, bu yazının şəxsi bir qərəzə əsaslanmadığı qənaətinə gələrək, bəraətimizi tələb etdi. Bu tələbdən sonra, başqa çarə qalmadığını görən Şəfi bəyin vəkili sülh təklif etdi. Məhkəmə sədrinin sualına cavab olaraq, iddiaçı sülh istədiyi təqdirdə, sülhə razı olduğumuzu bəyan etdik və çəkişmə 15.01.1930-cu il tarixinə keçirildi. İkinci məhkəmə iclasında isə Şəfi bəyin davasından vaz keşdiyini söyləməsi səbəbindən çəkişmə bitdi.

Milli davamıza qarşı həddən artıq həssaslıq və maraq göstərən Azərbaycan icması arasında ağızlarda dolaşan sözləri alaraq, adı çəkilən məqalədə yazdıq və milli-siyasi dərdlərimizi təhlil və işıqlandırmaq məqsədilə bir mübahisə yaranmış oldu. Bu məqalədə bir münasibətlə bəzi isimlər arasında Şəfi bəyin adı da çəkilmişdir. Azərbaycan icması arasında gəzən şayiələrdən qaynaqlandığını, bu yazılarda heç bir şəxsi düşmənçilik təqib edilməyini qeyd etməklə,

bundan Şəfi bəy şəxsən mütəəssir olmuşsa, üzr istəməyə lüzum görürük.

Biz, xəyanət qurbanı olmuş yurdumuzun qəsb olunan istiqlal davasını müdafiədən başqa heç bir məqsəd güdmədiyimizi bəyan edirik. Şəfi bəyin məsələsində də bu məfkurədən ilhamlanaraq yazı yazmışıq. Fəqət, Şəfi bəy məsələnin mahiyyətini bir kənara qoyaraq, ayrı-ayrı kəlmələr səbəbindən bizimlə dava etmişdir. Bizim bu xüsusdakı qənaətimiz əsla dəyişməmişdir. Zaman həqiqətlərin üzərindən pərdələri qaldıracaqdır".

Bu məqalə səbəbindən təşkilata mənsub arxadaşlar təkrar Şəfi bəyə təzyiq edirlər. O, görünür ki, çarəsiz qalaraq, ikinci dəfə M. Sadıq bəyə qarşı dava açır. O zaman mən artıq İstanbulda deyildim. Məsələnin təfərrüatlarını da bilmirəm. Yalnız belə bir xəbər almışdım ki, iddiaçı Şəfi bəyin nə özü, nə də vəkili məhkəmə çəkişməsinə hazır olmadıqlarından məhkəmə davanın dayandırılması haqqında qərar qəbul edib.

M. Sadıq bəyin məcmuəsi isə davanın yekun səhifəsini "Şəfi bəyin ikinci davası da sükut etdi" başlıqlı yazı ilə bu şəkildə təsvir edir:

"Məcmuəmizdə arxadaşımız Məmməd Sadıq bəy tərəfindən yazılan və 11 oktyabr 1929-cu il tarixli sayda nəşr edilən bir məqalədən dolayı, məcmuəmiz əleyhinə Şəfi bəy tərəfindən həqarət davası açıldığını qeyd etmişdik. İkinci cəza məhkəməsində araşdırılan bu davanın gedişində M.Sadıq bəyin heç bir şəxsi qərəzi olmadığı və yazının bir əqli nəticə nümunəsi olduğu müəyyən edildiyindən, Şəfi bəyin vəkilinin təklifi əsasında hakim bu məsələnin sülh yolu ilə həll edilməsini arzu etmişdi. Buna da hər iki tərəf razı olmuş və məcmuədə M. Sadıq bəy tərəfindən bu xüsusda bir izahnamə yayılmaqla dava qapadılmışdı. Arzu edilən izahnamə yazıldıqdan sonra yenə Şəfi bəy tərəfindən ötən mart ayında ikinci bir dava açıldığını heyrətlə gördük. Fəqət, qəribəsi budur ki, mart ayında başlayan bu ikinci çəkişmə ötən 9 sentyabr tarixinə qədər uzanmış, bu müddət ərzində məhkəmə tərəfindən təyin edilən iclas günlərinin heç birinə Şəfi bəy razı olmamişdir. Bu surətlə bu mənasız dava da sükut etmişdir.

Bu bir neçə kəlmə ilə bu məsələyə qayıdaraq, ictimai rəyin bu xüsusda hökm verəcəyini vurğulamaq istəyirik.

Süleyman".

M.Sadıq bəyin məhkəməsi belə cərəyan edib. Şəfi bəy həqiqi peşəsi olan vəkilliyi hər nə qədər tərk edib, öz təbirincə desək, heyvan bəsləməklə məşğul olsa da, zənn etməyin ki, bu surətin öz heysiyyət və günahsızlığının müdafiəsi üçün kifayət olduğunu düşünə biləcək qədər savadsızdır. Bu nəticə ilə barışmağın mənası, şübhəsiz, başqadır. Belə bir nəticəylə ancaq günahkar olduqlarını daxilən anlayanlar barışa bilərlər.

Rəsmi və qeyri-rəsmi məhkəmə çəkişmələrindən qaçdıqdan sonra, Şəfi bəy indi də bu ittiham qarşısında özünü bir məntiq oyunu ilə müdafiə etmək istəyir və deyir:

"təşkilat və səxsiyyətlərini hökumətin qarşısında ləkəli edəcək heç bir sənəd olmadığını bildiyim üçün, belə bir təşəbbüsdə bulunmağım yalnız hökumət nəzərində özümü gözdən salmaqdan başqa bir şeyə yaramayacağını hər kəsdən yaxşı bilənlərdənəm".

Etiraf edirəm ki, uzun bir zaman ərzində Şəfi bəyi qəti şəkildə ittiham etməkdə tərəddüd göstərməyimin səbəbi bu məntiq mülahizəsi olmuşdur. Fəqət son dəfə Finlandiyadan İstanbula dönərkən görüşümə gələn M. Sadıq bəy, "evrak məsələsi" haqqında verdiyi yeni bir sıra məlumatlarla bərabər bu tərəddüdümü də aradan qaldırdı. M. Sadıq bəy dedi ki, Şəfi bəy Biçeraxovun S. Şamil bəylə bərabər çalışdığını, sizin də Şamil bəyi tutmaqla həm də Biçeraxovu dəstəklədiyinizi bildirib. Bu fikir onun yazdığı danosun da mövzusunu təşkil edib və bu vasitə ilə sizin Biçeraxovun əlaqədar ola biləcəyi xaricilərlə münasibətdə olmağınızı göstərmək istəyib. Həmin görüşümüz zamanı M. Sadıq bəy, bu çəkişməsinin bəzi məqamlarını da bizə ayrıca açaraq, Şəfi bəyin nə səbəbdəən onunla qarşılaşmaq istəməməsini də anladmışdır.

"İstiklal"ın 56-cı sayında göstərildiyi kimi, M. Sadıq bəy bu ifşaları haqqında bizdən başqa digər vətəndaşları da

məlumatlandırmışdır. Şəfi bəyin "milli evrakı" ələ verdiyi Sadıq bəydən savayı, digərləri tərəfindən də təsdiq olunmuşdur. Bu gün Şəfi bəylə birlikdə hərəkət edən Ağasıbəyli Səlim bəy iki il əvvəl mənə göndərdiyi bir məktubda bunları yazmışdır:

"Birinci şöbədə[22] artıq qətiyyətlə və açıq şəkildə deyirlər ki, məlum danosun müəllifi şəxsən Divan üzvü Şəfi bəydir, başqa kimsə deyildir. Doktor Sultanov bunu mənə şəxsən söylədi və mən də ona inanıram. Firqədə sözün tam mənası ilə bir "azefçilik qoxusu gəlir".

Ağasıbəyli Səlim bəy kimi, başqaları da d-r Xosrov bəy Sultanovun bu xüsusdakı rəvayətini duymuş və eşitmişlər.

Şəfi bəy öz risaləsində oxucularına bəzi məsələlər haqqında məlumat almıq üçün arxadaşlarından Nağı bəyin "Biz və Onlar" adlı risaləsini tövsiyə edir. Bu o deməkdir ki, Nağı bəyin sözlərini bir həqiqət kimi qəbul edir.

Sözü həqiqət olan həmin müəllif isə Şəfi bəyin evrakı ələ verdiyini etiraf edərək, məlum risaləsinin 42-ci səhifəsində bunları yazmışdır:

"Şəfi bəyi xain göstərmək üçün, onu "mili evrakın" ələ keçməsinin səbəbkarı olmaqda ittiham edirsiz. Əmin bəyəfəndi, evrak düşmən əlinə keçməmiş, etibarlı bir yerdə qiymətli sənəd olaraq mühafizə edilir..."

Nağı bəyin zövqü və göstərilən əsərindəki çirkini gözəl göstərmək cəhdi, əlbəttə, özünə qalır. Hər kəsin eyni zövq və anlamda olmasını tələb etmək qeyri-mümkündür. Fəqət bir şey həqiqətdir ki, Şəfi bəy milli evrakı ələ vermişdir. Və bu hərəkəti şəxsən Şəfi bəy etmişdir. Vəkili Nağı bəy kimi, bu günkü silahdaşı Səlim bəy də onun hərəkətini vaxtı ilə azefçilik kimi qiymətləndirmişdi. Nağı bəyin öz risaləsində "vətən aşiqi" kimi təqdim etdiyi M. Sadıq bəy isə Şəfi bəyin artıq hər cəhətdən

---

[22] Türkiyənin təhlükəsizlik orqanlarında siyasi şöbə.

isbat edilmiş bu hərəkətini "milli cinayət" və "namus oğurluğu" adlandırmışdır.

Digər intriqa və fitnələrini nəzərə almadan, yalınız sonuncu pis hərəkətinə görə, biz Şəfi bəyin artıq milli işlərə qarışmaq səlahiyyətində olmadığını elan etsək, bütün zəka əhlinin tərəddüdsüz bizə haqq qazandıracağına qətiyyən şübhə etmirik!..

Şəfi bəy bu məsələdə daha bir məntiq oyununa sığınmaq istəyir: "Əgər belə idisə, nə üçün bunu məktub məsələsindən əvvəl elan etməyirdiniz?", - deyə soruşur.

Şəfi bəydən soruşun: əgər bu qənaətlər əməli fəaliyyətdən kənarda qalsaydı və siz əvvəlki kimi milli işlərdən uzaqda qalmayıb, keçmişdəki kimi etimada layiq görülsəydiniz – söyləyin, bu fəsadnaməni yazaraq, bütün çirkinliyinizlə meydana çıxardınızmı?..

## VI. Bu dəfəki fəsad

Bu, Şəfi bəyin həyata keçirdiyi fəsad silsiləsini tamamlayan mühüm bir halqadır. Bunu xüsusi fəsillə öncəkilərdən ayıraraq, üzərində bir az ətraflı durmaq və hadisəni sənədlər əsasında təsbit etmək lazımdır.

Şəfi, əvvəlcə yeni təşəkkül tapmış İcra Heyətinə qarşı hücuma keçdiyi halda, bir az sonra taktikanı dəyişdirir. Ümumi məhfi təbliğatı davam etdirməklə bərabər, digər tərəfdən, müxtəlif vasitələrlə İstanbulun Əmin bəyə deyil, şəxsən Müstafa bəyə müxalif olduğunu sezdirmək istəyir. Mustafa bəyə qarşı mövcud müxtəlif motivlərdən irəli gələn məmnuniyyətsizlik telləri səbəbindən spekuliasyon yapılır. Belə ki, onun İstanbulda olmadığı bir vaxtda bir qisim firqəçinin toplantısı keçirilir və burada beş şəxsdən ibarət bir şöbə komitəsi seçilir. İstanbul şöbə komitəsinin sədri Mir Əli bəy[23] 25.01.1933-cü il tarixli məktubu ilə bu barədə firqə lideri sifətilə mənə məlumat verir.

Bu məktubu alar-almaz, dərhal ona cavab verirəm. Arxadaşlara hissiyyat və təşəbbüslərinə görə təşəkkürümü bildirməklə bərabər, onları təbrik edir və təşkil olunan İstanbul şöbə komitəsiniin mövcudiyyatını təsdiqləyirəm. Bu təsdiq məsələsi mövcud nizamnaməyə görə Divanın səlahiyyətində olsa da, fövqəladə hallarda Divanın səlahiyyətini daşıyan rəis də bu hüququ icra edə bilər. Bu cəhət yuxarıda qeyd olunan Xəlil bəylə aramızda imzalanmış anlaşmaya da uyğundur.

İstanbul şöbəsinin bu şəkildə təşəkkülünü, boş olan firqə mərkəzinin yenidən qurulması xüsusunda gözlədiyim münasib zamanın gəlib çatması kimi qəbul etdim və bu mənə bir ümid verdi. Mücadilə əsnasında qızğınlaşan, təbii cığırından çıxmış hiss və əsəblərin sakitləşdiyinə artıq hökm verilə bilərdi.

Mir Əli bəylə bərabər, Xəlil bəyə də ayrıca bir məktub yazdım. Firqə mərkəzinin düzgün bir duruma gətirilməsi vaxtının

---

[23] Azərbaycan siyasi mühacirətinin fəal üzvlərindən biri, ixtisasca mühəndis olub.

çatdığı və bu məqsədlə tərəfimdən bir təşkilatı heyətin yaradılmasına təşəbbüs edildiyi barədə onlara bilgi verdim. Bu heyətin vəzifəsi yeni Mərkəzin formalaşdırılmasını təşkil etmək idi. Mərkəz rəis başda olmaqla üç şəxsdən ibarət olacaqdı. Rəisdən başqa iki üzvdən birisinin namizədliyini İstanbuldakılar, digərini isə Avropadakılar göstərəcəkdi.

Bu sırada Mir Əli bəydən 28.04.1933-cü il tarixli ikinci məktub alındı. Bu məktubunda Mir Əli bəy 21.04.1933-cü il tarixində keçirilən iclasın protokolunun surətini də göndərmiş və "arxadaşların söylədiklərinin hamısını sizə göndərməyə təəssüf ki, imkan yoxdur" deyərək, yazmışdı: "Aldığım təəssurata əsasən bunu demək istərdim ki, arxadaşlarda nifaq və şəxsi xudbinliyə qarşı böyük bir nifrət oyanmışdır. Vətən və millətin xilas və rifahı üçün firqə tərəfindən göstəriləcək xidmətdən kimsə qaçmayacaqdır. *Firqə arxadaşları lideri ətrafında birləşmişlərdir*".

Yuxarıda göstərilən məktuba əsasən, 21 aprel 1933-cü il iclasında Xəlil, Şamil, Əhməd[24], Əziz, Səlim[25], Hacızadə Mirzə[26], Şəfi, Məmməd Əli[27], Nağı[28], Mir Əli və İsmayıl bəylər iştirak etmişlər. Mir Əli bəyin təklifi ilə iclas iştirakçıları firqədə bir çox illərdən bəri davam edən qeyri-sağlam vəziyyətdən bezar olduqlarını qeyd və müzakirə etdikdən sonra,müştərək olaraq birliyə və İstanbul şöbə komitəsinin təsisinə qərar vermişlər.

Bundan sonra Mir Əli bəy, Məmməd Əmin bəyin firqənin lideri olaraq tanınıb-tanınması məsələsinə iclas iştirakçılarının

---

[24] Əhməd Cəfəroğlu (1899-1975) – tanınmış türkoloq, 20-30-cu illərdə Azərbaycan siyasi mühacirətinin fəal iştirakçılarından biri.

[25] Səlim bəy Ağasıbəyli nəzərdə tutulur.

[26] Hacızadə Mirzə (1897-1980) – Mlli hökumətin 1919-cu ul 1 sentyabr tarixli qərarı ilə xaricə təhsil almağa göndərilmiş azərbaycanlı tələbələrdən biri. 1926-cı ildə Berlində doktorluq dissertasiyası müdafi. etmiş, daha sonra Türkiyəyə köçərək, burada Nəsib bəy Yusifbəylinin qızı Zöhrə xanımla ailə həyatı qurmuşdur.

[27] Məmməd Əli Rəsulzadə nəzərdə tutulur.

[28] Nağı Şeyxzamanlı (1883-1967) nəzərdə tutulur.

münasibət bildirməsini təklif edir. Bu təkliflə əlaqədar çıxış edənlər arasında Xəlil bəy də vardır. O, öz çıxışında, "Mir Əli bəyin təklifini doğru hesab etdiyiyini, bəlkə bu son bir-iki ildə bəzi arxadaşların fikrində dəyişiklik baş verdiyini, bu günkü toplantının məqsədinin keçmiş birliyi bərpa etmək olduğunu və bu birliyin də təbii bir rəisi olduğunu və hər kəsin də ona olan münasibətini arxadaşlara izah etməsinin lazım gəldiyini" söyləyir. Xəlil bəyin sözlərinə görə, "hamının qənaətincə, bu birliyin rəisi Məmməd Əmin bəydir və bu fikrin rəyə qəbul etdirilməsinə lüzum belə olmadığından, yekdilliklə qəbul edilməsi doğru olardı".

Xəlil bəyin ardınca çıxış edən Şəfi bəy də, "*bundan daha aydın bir şey olmadığını və Adil xanın*[29] *bəzən oturub-durub "müsəlmançılıq yaxşı şeydir" deyə söyləməsinə bənzədiyini,vu səbəbdən də məsələnin mahiyyətcə həll edilmiş olduğunu*" bəyan edir.

Mir Əli bəyin bu məktubu mənə gec gəlmişdi. Bu zaman əsnasıında İstanbuldan xüsusi olaraq başqa məlumat gəlirdi. Yeni təşkil olunan İstanbul şöbəsini Şəfi bəy və ortaqları firqə mərkəzinin əvəzi olaraq qəbul edir və özlərini bu sifətlə ətrafdakılara təqdim edirdilər. Hətta bu yeni qurumun Mustafa bəyə etimadı olmadığını, onunla qətiyyən çalışmayacaqlarını və özünün də bir daha İstanbula dönməməsinin vacibliyini qeyd edirdilər. Eyni zamanda, bu şöbə komitəsi yalnız firqə mərkəzinin səlahiyyətində olan siyasi direktivlər vermək funksiyasını da öz üzərinə götürürdü.

Bu çox da sağlam olmayan tendensiyanın qarşısının alınması məqsədilə Mir Əli bəyə ikinci bir məktub yazaraq, hər cür sui-istifadə hallarını önləmək istədim. Dedim ki, firqə mərkəzinin yenidən təşkili hüququ bir lider kimi mənə məxsusdur. Bu xüsusda onlardan təşkilatı heyətə veriləcək namizədin müəyyənləşdirilməsini gözləyirəm. Yeni mərkəz yaradılana

---

[29] Adil xan Ziyadxanov (1877-1957) – Azərbaycan milli istiqlal hərəkatının görkəmli nümayəndələrindən biri.

qədər isə siyasi direktiv mahiyyətindəki səlahiyyətlər liderə, təşkilata aid funksiyalar isə təşkilatı heyətə aiddir. Eyni zamanda, nizamnamənin yerli və şöbə komitələrinin səlahiyyət və vəzifələrini göstərən müvafiq maddələrini məlumat üçün məktubuma əlavə etdim. Xəlil bəyə də bu məzmunda bir məktub yazaraq, mərkəzin təşkili səlahiyyətinin onunla bərabər imzaladığımız rasılaşmaya müvafiq olaraq rəisə aid olduğunu və bu işdə İstanbul xaricindəki arxadaşların rəylərinin də nəzərə alınmasının zəruriliyinin onun özünün də təbii qəbul edəcəyini əlavə etdim.

Mir Əli bəyin 28.04.1933-cü il tarixli məktubuna 24.05.1933-cü il tarixində verdiyim cavab isə bu məzmunda idi:

"21.04.1933-cü il tarixində İstanbuldakı firqəçi arxadaşların toplanaraq İstanbul komitəsini yenidən təşkil etmək üçün göstərdikləri birliyə zamin olmaqla bərabər, bildirməliyəm ki, 28.041933-cü il tarixli məktubu ancaq mayın 20-də aldım.

Məktubunuzda qeyd olunduğu kimi, nifaq və xüdbinliyə nifrət edən arxadaşların Vətənin xilas və rifahı naminə hər cür xidmət üçün firqə bayrağı altında birləşdiklərini göstərən bu təşəbbüslərindən ötrü onları təbrik edir və məmnuniyyətimi bəyan edirəm. Şəxsimə qarşı nümayiş etdirdikləri hisslərə görə də xüsusi təşəkkürümü bildirirəm.

Bundan öncəki məktubumda yeri boş qalan firqə mərkəzinin yenidən təşkili xüsusunda, ilk addım olmaq üzrə, tərəfimdən bir təşkilat komitəsinin yaradılmasına təşəbbüs olunduğu qeyd edilmişdi. Yazıldığı kimi, bu komitəyə daxil olacaq bir arxadaşı İstanbuldakı firqəçilərin göstərməsi zəruridir. Bu xüsusda sizdən yaxın zamanda müsbət bir cavab gözləməkdəyəm".

Bu müsbət cavabı gözləyə-gözləyə qaldıq. Xəlil bəydən "məktubunuzu arxadaşlara oxuyub, cavabını yollayaram" məzmununda qısa bir xəbər gəlsə də, Mir Əli bəydən bu günə kimi heç bir cavab alınmadı.

Şəxsi məktublardan isə təşkilat komitəsi yaratmaq təklifinin başlıca olaraq Şəfi bəy tərəfindən etiraza məruz qaldığı anla-

şıldı. Şəfi bəy heç bir mərkəzə lüzum olmayıb, hər şöbənin özbaşına müstəqil olaraq çalışması tezisini müdafiə edirmiş.

Bu tarixdən etibarən Şəfi bəylərin nə kimi bir mövqe tutduqları haqqında sonuncu rəzil çıxışlarına qədər heç bir məlumatımız yoxdur. Bu sırada adı çəkilən şöbədən istefa verən Məmməd Əli bəy, Mir Əli bəyə göndərdiyi istefa ərizəsinin bir surətini də bizə göndərmişdi. Bu istefa ərizəsindən görünür ki, Şəfi bəyin təsiri altında bir toplantı keçirilmiş və bu toplantıda bir qətnamə qəbul olunmuşdu.

Həmin qətnamədə "indilik firqə mərkəzi təşkilinin imkansızlığı və ona görə də təşkilat komitəsinə lüzum olmadığı" açıq-aşkar qeyd olunmuşdu.

Beləliklə, bir ay əvvəl seçilən yerli şöbə komitəsini firqə mərkəzinin əvəzi olaraq qəbul etdirmək cəhdinin keçmədiyini görən Şəfi bəy, dərhal dağıdıcılıq yolu tutmuş, təbii yolu ilə yaradılacaq Mərkəzin təşkilini demaqoqcasına çətinləşdirmişdi.

Bundan sonra Şəfi və Nağı bəylərin bir hərəkəti səbəbindən yuxarıdakı toplantıda iştirak edən üzvlərdən Mir Əziz firqədən çıxarılmışdır. Əhməd bəy də, Məmməd Əli bəy kimi istefa verərək, kənara çəkilmişdir. Rəis Mir Əli bəylə katib İsmayıl bəylər də bitərəf qalacaqlarını söyləmişlər.

Şəfi bəy bütün bu təfsilatı ötürərək, öz risaləsində deyir:

"Arxadaşların çox gözəl niyyətlərini Məmməd Əmin təqdir etməyərək, baltaladı... Öz əmrinə tabe olan tərəfdarlarını milli və firqə təşkilatlarından ayırıb yeni qrup təşkil etməklə, yeni ixtilafa yol açdı".

Hansı yeni qrup?!.

Belə bir qrup yoxdur. Belə bir düşüncəyə imkan verməmək üçün hətta firqə mərkəzinin təşkili işində bəlkə də həddindən artıq səbr, diqqət və dözümlülük göstərilmişdir.

Fəqət hər kəs qəbul edər ki, biz Firqə Mərkəzi təşkil edirik deyə, Şəfi bəylərin hiylə və yalanlarını görməmək haqqında deyiik!

## II. Qurultay əfsanəsi

Şəfi bəy və ortaqları tərəfindən uydurulan bu əfsanə haqqında oxuculara məlumat vermək üçün bu fəslə aid materialları aşağıda nəql edirəm.

Şəfi bəyin mənə yazdığı fəsadnamə ilə əlaqədar Avropada yaşayan arxadaşların bir qrupundan aldığı məktubdan, işin firqədən çıxarılmağa doğru getdiyini təxmin edincə, bir hiylə düşünmüş, hadisəni önləmək niyyətilə ictimai fikri çaşdırmağa qərar vermişdir. Bu qərarının tətbiqi üçün o, risaləsinin 23 və 24-cü səhifələrində "Müsavat firqəsinin rəsmi məlumatı" adı altında verdiyi bir yazını, yanına aldığı X. Xasməmmədli və S. Ağasıbəylilərlə birlikdə imza etdiyi 24 mart 1934-cü il tarixlı bir məktubla Parisdə rus dilində nəşr edilən "Qafqaz" məcmuəsinə[30] göndərmişdir. Həmin məcmuənin aprel sayında dərc edilən bu "rəsmi məlumat"da deyilirdi:

"1933-cü il dekabrın 18-də "Müsavat" firqəsi üzvlərinin mühüm bir ictimai tədbiri baş vermişdir. Müxtəlif yerlərdən olan firqə təmsilçilərinin də iştirak etdiyi bu izdihamlı toplantıda ümumi məsələlər arasında firqənin vəziyyəti də müzakirə edilmiş və bir çox mühüm qərarlar verilmişdir.

Toplantı firqə məsələsini araşdırarkən, ilk növbədə, bu cəhətləri müəyyənləşdirmişdir:

1) Əsas prinsip, taktika və təşkilat məsələlərində firqənin böyük əksəriyyəti ilə firqə rəisi Məmməd Əmin Rəsulzadə bəy arasında ciddi ixtilaf olması;

2) Rəisin özbaşına və eqoistik hərəkətləri;

3) İki il yarımdan bəri firqə mərkəzinin fəaliyyət göstərməməsi, firqənin təşkilatsız və formasız olması, eləcə də yuxarıda qeyd edilən səbəblərdən dolayı bir mərkəzin vücuda gətirilməsi;

---

[30] "Qafqaz" – 1934-1939-cu illərdə Heydər Bammatın rəhbərliyi altında Parisdə rus dilində nəşr olunan jurnal. Sağ təmayüllü Qafqaz siyasi mühacirətinin əsas mətbu orqanı olaraq "Prometey" hərəkatına qarşı müxalif mövqedə durub.

4) Bu şəkildəki üsuli-idarənin nəticəsi olaraq firqənin təcrid olunması.

Belə bir vəziyyətin mövcudluğunu nəzərə alaraq, toplantı bu qərarı vermişdir:

Məmməd Əmin Rəsulzadəni bundan sonra firqə rəisi olaraq tanımamaq və onunla bütün əlaqələri kəsmək, yerinə başqasını təyin etmək və yeni firqə Divanı seçmək.

Bu qərar əsasında toplantı yeni bir rəis və beş üzvdən ibarət bir Divan seçmişdir".

1933-cü ildə baş tutmuş, ancaq Şəfi bəyin firqədən qovulmasından sonra keçirildiyi məlum olan bu mahiyyəti bəlli olmayan toplantını şəfibəyçilər firqə qurultayı kimi təqdim edirlər. Bu "qurultay", ictimai rəyi aldatdım deyə Şəfi bəyə təskinlik verməklə bərabər, məni də təkcə firqə rəisliyindən deyil, həm də firqə ailəsindən (?) də uzaqlaşdırıbmış...

İlk dəfə olaraq bu "hadisəni" "Qafqaz"da oxuyar-oxumaz, həm rəis sifətilə mən, həm də firqənin çoxdan bəri məsul və fəal üzvlərindən olan bir qrup arxadaşlar, işin iç üzündən xəbəri olmayanların zehinlərinin çaşmasına imkan verməmək məqsədilə göstərilən məcmuədə dərc edilmək məqsədilə aşağıdakı məktubları göndərdik:

**I.**

**Möhtərəm Müdir Bəy!**

Məcmuənizin aprel nüsxəsində X. Xasməmmədli, Ş. Rüstəmbəyli və S. Ağasıbəyli imzası ilə bir məktub dərc olunmuşdu. Bu məktubda guya 18 dekabr 1933-cü ildə baş tutmuş "Müsavat" firqəsi qurultayından bəhs olunur.

Bunu bildirməliyəm ki, bu xəbər başdan-ayağa uydurmadır. Məcmuənizdə çıxan məktubda deyildiyinə rəğmən, "Müsavat" firqəsinin heç bir qurultayı keçirilməmiş və yuxarıda adı çəkilən şəxslər sizi doğrudan-doğruya aldatmışlar. Bu yalan və aldatma firqədən qovulan Şəfi Rüstəmbəylinin bir intriqasının məhsuludur və ictimai rəyi aldatmaq məqsədilə edilmişdir.

Həqiqətin meydana çıxması üçün bu məktubumun "Qafqaz"ın növbəti sayında dərcini rica ilə, hörmətlərimi bildirirəm, əfəndim.

**M.Ə. Rəsulzadə**

**"Müsavat" firqəsi rəisi**

**3 may 1934-cü il.**

## II.

**Möhtərəm Müdir Bəy!**

"Qafqaz"ın 4-cü sayında üç kişinin imzası ilə bir məktub dərc edilmişdi. Bu məktubda deyildiyinə görə, guya 1933-cü ilin dekabrıda "Müsavat" firqəsinin bir qurultayı keçirilmiş və bu qurultayda yeni rəis və Mərkəzi Komitə seçilmişdir. Seçilmiş yeni rəisin ismi nədənsə göstərilməmiş və Ağasıbəyli əfəndilərin göstərişi ilə qoca bir firqənin başına keçmək istəyən əsrarəngsiz zatın kim olduğu hər kəs üçün bir sirr olaraq qalmışdır.

Aşağıda imza edən bizlər, "Müsavat" firqəsinin məsul şəxsləri, bu münasibətlə bunları qeyd edirik:

1) "Müsavat" firqəsinin qətiyyən heç bir qurultayı keçirilməyib.

2) Qurultay keçirilmədiyi üçün göstərilən məktubda bəhs olunan məsuliyyəli qərarlar da qəbul oluna bilməz.

3) Göstərilən çıxışdan məqsəd ictimai rəyi aldatmaq və "Müsavat" fəaliyyətinə "öz aləmlərində" əngəl olmaqdır.

- Bu kimin işinə yarayır? – Hər kəs özü hökm versiin.

4) Göstərilən məktub firqədən qovulmuş Ş. Rüstəmbəyli və onun quyruğunda gedən məsuliyyətsiz şəxslərin vətənpərvərliklə heç bir əlaqəsi olmayan intriqasından başqa bir şey deyildir.

Həqiqətin ortaya çıxması üçün bu məktubumuzun məcmuənizin növbəti sayında dərcini rica ilə hörmətlərimizi bildiririk, əfəndim:

Mustafa Vəkilli, Mirzə Bala, Əli Azərtəkin, Əhməd Cəfər oğlu, Hilal Münşi, Məmməd Əli Rəsulzadə, Abbasqulu Kazımzadə.

"Qafqaz" məcmuəsi bizim bu təkzib məktublarını beşinci sayında nəşr etməklə bərabər, təəssüf ki, qəzetçilik etikasına və siyasi əxlaqa zidd bir hərəkət etməkdən də özünü saxlaya bilməmişdir. Məktublarımızı nəşr edilməzdən əvvəl qarşı tərəfə göstərmiş və eyni nömrədə onlardan aldığı "cavab" məktubunu da vermişdir. Halbuki, həmin məcmuə vaxtı ilə üç iftiraçının

məktubunu “Müsavat” firqəsinin məlumatı” adı altında nəşr edərkən kimsəyə məlumar vermək ehtiyacını qətiyyən hiss etməmişdi.

Bununla da “Qafqaz” redaksiyası bitərəfliyini bir kənara qoyaraq, güman ki, çox möhtac olduğu, “sensasiyalı” materiallar gətirən tərəfi özünə lazım bilmişdir.

Yuxarıdakı iki məktuba verilən “cavabı” Xasməmmədli Xəlil bəy imzalamışdır. Görünür ki, böyük qısqanclıqla adı doqquz pərdə altında gizli saxlanan əfsanəvi rəis də odur.

Yalnız hədsiz yalanları üzlərinə vurulan iftiraçıların göstərə biləcəkləri bir əsəbiliklə qələmə sarılan Xəlil bəy, uydurduqları yalan üzərində möhkəm dayanaraq, qurultayın keçirildiyində israr edir.

İctimai rəyi aldatmaq metodundan bir kərə siyasi mübarizə silahı kimi istifadə edənlər üçün təbii ki, uydurduqları yalan üzərində israr etməkdən başqa bir çarə qalmaz. Fəqət, bu yalançılar hamını özləri kimi saxta mal satan siyasət dəllalları hesab edirlərsə, aldanırlar.

Bir qurultay necə təşkil olunur? Bir rəis necə çıxarılır? Bir qrup indiyə kimi tərkibində olduğu firqədən və ya o firqə daxilindəki bu və ya digər qrupdan necə ayrılır?

Bütün bunlar məlum şeylərdir. Bu kimi xüsuslarda nə şəkildə hərəkət etmək lazım gəldiyini siyasi həyatdan ən az xəbəri olanlar da bilirlər.

Bu necə “qurultay”dır ki, çox mühüm məsələr üçün toplanır, 16 ildən bəri etirazsız firqə lideri olan bir şəxsi sərlikdən çıxarır, lakin bu toplantıdan nə çıxarılan rəisin, nə də firqədə çoxdan bəri mövqe tutan digər firqəçilərin xəbərləri belə olmur?!...

Bu necə “qurultay”dır ki, 1933-cü ildə baş tutsa da, bu qədər mühüm və məsuliyyətli qərarlar qəbul etdiyi halda, 1934-cü ilin aprelinədək ondan kimsənin xəbəri olmayır. Hətta sədrlikdən çıxarılan şəxs belə, qiyabi də olsa, qəbul olunan qərarlar haqqında məlumatlandırılmır, bundan sonra firqə adından hərəkət etmək haqqında deyilsən deyə, ona xəbərdarlıq belə edilmir?!..

Edilməzdi də, çünki bu qurultay əfsanəsi firqəçilərin rəhbərliyə müraciət edərək, Şəfi bəyin firqədən qovulması tələbini irəli sürmələrindən sonra başlamış zərərli intriqadan başqa bir şey deyildir.

Xəlil bəy öz hərəkətində sərbəstdir, Şəfi və Səlim bəylərlə qalmağı daha münasib hesab edə bilər. Bu seçimi ilə o, əmin olsun ki, təhqir etmək istədiyi arxadaşları ancaq sevindirmişdir.

Bu gün Şəfibəyçiliyi açıq şəkildə rədd və protest etmiş firqəçilərin sayı 60-a çatır. Onların hamısı, əcəba, Xəlil bəyin göstərmək istədiyi kimi, firqədən maaşmı alırlar?!... Xeyr, özü hər kəsdən daha yaxşı bilir ki, əvvəla biz zəngin deyilik, ikincisi də, zəngiz olsaq belə, pul ilə tərəfdar qazanmaq istəmərik. Bunu istəsəydik, Xəlil bəy həqiqətən də müxalifətə keçməz, qurultay əfsanəsi uydurmazdı. Guya ki, 1933-cü ildə toplanmış olan qurultay haqqında ancaq 24 mart 1934-cü il tarixində məlumat verilməsinin hikmətini Xəlil bəy lütfən izah edə bilərmi? Maaşının martdan etibarən kəsilməsilə bu addım arasında bir əlaqə yoxdurmu?

Hansı səbəbdən olursa-olsun, onlar üç-dörd kişi firqədən ayrıla, kənarda qala bilərlər. Bu onların haqqıdır. Onlar əmin olsunlar ki, bu haqqdan istifadə etməklə, hər kəsdən əvvəl bizi məmnun edir, zəhmətimizi azaldırlar.

Fəqət, seçdikləri metod – fəsad, yalan və saxtakarlıq metodudur. Bu xüsusdakı rəsmi rəhbərliyi də Xəlil bəy, arxadaşı və dostu, Səlim bəyin təbirincə desək, *Azərbaycan Azefi – Şəfi bəyə* güzəştə getsəydi, həm yaşına, həm də başına daha münasib olardı.

Xəlil bəyin məktubundan başqa, "Qafqaz" həmin nüsxəsində Şəfi bəyin daha bir məktubunu da nəşr etmişdir. Firqədən qovulması haqqında yazdığı bu məktubunda Şəfi bəy deyir:

**Möhtərəm Müdir Bəy!**

Rəsulzadə M. Əmin bəyin baş mühərrirliyilə çıxan "İstiklal" qəzetində "Müsavat" firqəsinin mövcud olmayan xarici məmləkətlər

nümayəndəliyi adından mənim göstərilən firqədən xaric edilməyimə dair bir məlumat nəşr edilmişdir.

Adı keçən qəzetin redaksiyasına tərəfimdən bu xüsusda bir təkzib göndərilmiş, fəqət dərci müvafiq görülməyərək rədd edilmişdir.

Bundan dolayı, müdir bəy, bu təkzibimin məcmuənizin növbəti nüsxəsində dərcini rica edirəm.

"Müsavat" firqəsi nizamnaməsinə görə, üzvləru firqədən xaric etmək hüququ Mərkəzi Komitəyə (Divana) məxsusdur və bu qurumun verəcəyi qərar da növbəti firqə qurultayının təsdiqinə verilməlidir.

"Qafqaz" məcmuəsinin 4-cü sayında çıxan "Müsavat"in məlumatından göründüyü kimi, M.Ə. Rəsulzadə tərəfindən idarə edilən "Müsavat" firqəsinin Mərkəzi Komitəsi (Divanı) iki il yarım bundan əvvəl fəaliyyətini dayandırmış və bu gün mövcud deyildir. Tabe olduğum yeni Mərkəzi Komitə (Divan) isə bu qəbildə bir qərar vermiş deyildir.

Ona görə də, qəzetin göstərilən məlumatı bir uydurmadan və məsuliyyətsiz şəxslərin intriqasından başqa bir şey deyildir.

Hörmətlə,
Rüstəmbəyli Şəfi
16.05.1934
İstanbul

Ş. Rüstəmbəylinin bu məktubuna "İstiklal" belə cavab vermişdi:

"Qafqaz" məcmuəsinin 5-ci nüsxəsində Şəfi Rüstəmbəylinin bir məktubu nəşr edilmişdir. Şəfi bəy bu məktubunun "İstiklal"a göndərildiyini və nəşr edilmədiyini bu yazısında qeyd etmişdir.

Bununla əlaqədar bəyan edirik ki, Şəfi bəy tərəfindən nəşr edilmək üçün bizə heç bir zaman və heç bir məktub göndərilməmişdir. Bizdən alacağı cavabı əvvəlcədən bildiyindən, Şəfi bəy özünün firqədən qovulduğuna aid məktubunu bir yalan əlavəsi ilə bu kimi matain (yaralamaq – A.B.) həvəskarı olan "Qafqaz" məcmuəsinə göndərməyi üstün tutmuşdur".

Şəfi bəyin istinad etdiyi uydurma "qurultay"ın mahiyyəti anlaşıldıqdan sonra, onun bu "qurultay" tərəfindən seçilmiş

“Divan”a istinadla özünü müdafiə etməsi üzərində durmağa belə dəyməz.

Fəqət, burada Şəfi bəyin düşdüyü bir ziddiyyəti qeyd etmək faydasız olmaz. Şəfi bəy nizamnaməyə görə bir üzvü firqədən ancaq Divanın çıxara biləcəyini söyləyir ki, bu da əslində doğrudur. Daha düzgün olmaq üçün deyim ki, bu hüquq ancaq qurultaya məxsusdur. Divan belə bu xüsusdakı qərarını toplanacaq ilk qurultaya təqdim və təsdiq etdirmək məcburiyyətindədir. Fəqət, Divanın fəaliyyət göstərmədiyi zamanlarda, onun səlahiyyəti firqə rəisi və liderinə keçir ki, bu xüsus 1933-cü ildə müxalifət adından Xəlil bəylə aramızda imzalanan anlaşmada da təsdiq olunmuşdur. Bundan əlavə, rəisin bu səlahiyyəti Mir Əziz Seyidovun firqədən çıxarılması məsələsində də təsdiq olunmuş, nə Şəfi bəy, nə də arxadaşları tərəfindən rəhbərliyin bu xüsusdakı səlahiyyəti o zaman şübhə altına alınmamışdır. Əksinə, Mir Əziz bəyin firqədən uzaqlaşdırılması hər kəs kimi onlar tərəfindən də qəbul edilmiş və müsbət qiymətləndirilmişdir.

# VIII. Şəfi bəyin özünümüdafiəsi

Risaləsinin yarıdan çoxunu Şəfi bəy özünün müdafiəsinə həsr etmişdir. Fakt, sənəd və həqiqətlərə söykənən çox bariz ittihamlara qarşı özünü müsbət fakt və inandırıcı izahlarla qorumaq imkanında olmayan, bu yolunu azmış adam özünümüdafiə üçün, əvvəlki fəsillərdə gördüyümüz kimi, məntiq oyunlarına baş vurmaqla dedi-qodulara sığınmaqdan başqa bir çarə tapmamış, bol-bol demaqogiya, bir miqdar da spekulyasiya ilə məşğul olmuşdur.

Əgər "dağıdıcı, pozğunçu idimsə, nə üçün bu zərərli şeyləri M. Əmin bəy mənim məktubumdan əvvəl ictimaiyyətə bildirmirdi?" – deyə Şəfi bəy sual edir və bu sualını bir də "nə üçün 1930-1931-ci illərdə Avropaya gedərkən firqə Divanı rəhbərliyini mənə etibar edirdi?" – sorğusu ilə tamamlayır.

Bu "ictimaiyyət" kəlməsinin gizli məqsədi nədir? Əgər söhbət firqə daxilindəki məsul arxadaşlardan gedirsə. onlar bu "zərərli şeyləri" bilməmiş deyillər və bu şeylər onlara az söylənilməmişdir...

Əgər belə olmasaydı, dörd bir tərəfdən gələn etirazlarda bu məsələ xüsusi olaraq vurğulanmazdı. Və "Şəfi bəyin fəsadları" adlı fəsildə göstərdiyimiz qərarnamədə qeyd olunduğu kimi, müxtəlif zamanlarda inzibati cəzalara məruz qalmazdı. Yox, məqsəd geniş ictimaiyyət isə, bunun üçün Şəfi bəy də təsdiq edər ki, bir fürsət və əlverişli imkan lazımdı. Bunu isə Şəfi bəy şəxsən özü vermiş oldu. Hamının gözü qarşısında etdiyi provokasyon hərəkətilə özünün ifşa olunması zərurətini doğurdu.

Avropaya gedərkən onu Divanda rəis vəkili təyin etməyimə gəlincə isə, o zaman Şəfinin bütün hərkətlərinin mahiyyətini tamamilə başqalaşdıran "evrak məsələsi" hələ aşkar olmamışdı və Şəfi də özünü reablitə etməklə məşğul olurdu.. Digər tərəfdən də, mən Avropaya gedərkən Divan üzvlərindən yalnız Abbas bəylə o özü İstanbulda qalırdı. Abbas bəy xəzinədar olduğundan, eyni zamanda, rəis vəkilliyini də icra edə bilməzdi. Belə bir zərurətdən doğan rəis vəkilliyinə təyinatı onun

üçün bir reablitasiya fürsətidirsə, demək, Şəfi bəy bir Azərbaycan zərbi-məsəlində dedildiyi kimi, "saman çöpündən" xilas umur.

Şəfi bəyin özünün müdafiəsinə həsr etdiyi səhifələr başlıca olaraq bir şeyi isbat etmək əzmindədir: "pozğunçu o deyil, Mustafa bəy imiş". Müxtəlif zamanlarda Mustafa bəyin küskün, soyuq və hətta ayrılmaq istəyən vaxtları olmuş və yalnız Şəfi bəy buna yol verməmiş, araya girərək, təşkilatın ahəng və birliyini təmin etmişdi.

Bəli biz bunu inkar etmirik ki, Şəfi bəyin ziqzaqlı fəaliyyətində bu kimi dolanbac yolları da olmamış deyildir. Bəli, zaman olmuş, Şəfi bəy gəlmiş, "Mustafa bəylə Xəlil bəy mənə Əmin bəydən ayrılmağı təklif etdilər, mən razı olmadım", demişdir. Fəqət buununla o, bir həqiqətimi ifadə etmiş, yoxsa özünün də iştirak etdiyi bir hərəkətdən məsafə saxlamaq üçün manevr etmişdir?.. Bu kimi pərdəarxası işlərin və taktiki hiylələrin əhəmiyyəti heçdir. Əhəmiyyətli olan isə hadisə təşkil edən işlər və hərəkətlərdir. Firqə və təşkilat həyatında baş verən məhz bu mənfi hadisə və hərəkətlər tədqiq olunarsa, pozğunçuluq sahəsindəki birincilik şərəfi başqa kimsə də deyil, yalnız Şəfi bəydə qalar.

İstər milli cəbhədəki ümumi birlik və anlaşmaya, istər 1928-ci ildə Parisdəki nümayəndə heyətilə əldə olunan razılaşmaya, istərsə də 1932-ci ildə İcra heyəti yaradılması üçün imzalanan anlaşmaya qarşı zərərli və gizli müxalifətdə olan kim olmuşdur? - Yalnız Şəfi bəy!

Firqə və təşkilata aid bir məcmuəni qəsb edərək, əvvəldən milli davanın mürəvvicləri olan istiqlalçı və milliyətçi yazarları məsuliyyətsiz və məchul adamlar elan edən kimdir? – Şəfi Bəy!

Firqə daxilindəki fraksiya mücadilələrində bitəraflərə arxalanan və onları öz təşkilatı əleyhinə hərəkətə gətirən kim olmuşdur? – Şəfi bəy!

Şəfi bəy "arxadaşların təzyiq və etirazlarına rəğmən", müəllim Şərif bəyin evində barışdığını oz xidməti hesab edir. Fəqət

bundan əvvəl davanı özgə qapılara daşıyaraq, dost bir əcnəbidən dinlədiyi nəsihətlər nəticəsində bütün ümidlərini itirdikdən sonra müəllim Şərif bəyin ona təklif etdiyi barışıq formulunu minnətdarlıqla qəbul edən kim olmuşdur? – Şəfi bəy!

Sözdə Xəlil bəyi mənimlə anlaşmağa göndərdikləri halda, işdə arxasınca təlimat yollayaraq, "hər tərəfdə Əmin bəyin zəif və oğru olduğunu ifşa et" deyə, göstəriş verən kimdir? – Şəfi bəy!

Pozğunçuluğun bütün qəbahətlərini simasında gördüyü Mustafa bəyi, Şəfi son günlərə qədər, Nağı bəyin yazdığı kimi, ən etimadlı və yeganə güvəndikləri qüvvə kimi qəbul edirdi. Bu qüvvənin xəyanətinə, "lodos-poyraz"[31] qəbilindən dəyişkən bir şey olduğuna isə, ancaq onun (Mustafa bəyin – A.B.) milli işlərimizi fəlakətə sürükləyən sonuncu ixtilafda sona qədər Şəfi bəyin mövqeyində qalmayaraq, vətənsevər bir vəziyyətə keçdiyindən sonra qəti bir hökm vermişdir.

Bəli, biz Mustafa bəyin məziyyətləri olduğu kimi, qüsurlarını da görməz və bilməz deyilik. Onun ən böyük qüsuru, bu gün özünün də etiraf etdiyi kimi, milli iş naminə şəfibəylərin vətənsevər müdrik bir ünsür olduqlarına həddən artıq əhəmiyyət verməsi olmuşdur. Şəfi bəy bütün bu etdiklərinə rəğmən, firqədən bu günüdək qovulmayıbssa, onun haqqında bu qədər dözüm göstərilibsə, bunun üçün,ilk növbədə, Mustafa bəyə minnətdar olmalıdır.

Əgər Şəfi bəy, Azərbaycan təbirincə desək, "papağını qabağına qoyub" bir az fikirləşsə görər ki, onun etdiyi hər açıq pozğunçuluq hərəkətindən sonra tərəfləri barışdırmaq üçün çalışan Mustafa bəy olmuşdur. Hətta əmin olsun ki, müəllim Şərif bəyin evindəki barışığı mümkün edən ən mühüm amillərdən biri də Mustafa bəyin bu xüsusdakı ricası olmuşdur.

Şəfi bəyin "milli evrak" məsələsindəki müdafiəsinin nə kimi bir müdafiə olduğunu yuxarıda anlatdıq.

---

[31] Türkiyə sahillərində əsən və tez-tez istiqamətini dəyişərək bir-birini əvəzləyərən cənub-şimal külələri nəzərdə tutulur.

Bolşevik məmurluğundakı qardaşının[32] ona, haydı "fermerlik" deməyək, "donuzçuluq" da deməyək, inəkçilik-südçülük sərmayəsi olaraq verdiyi pulların məsələsini təhlil edək.

Şəfi bəy deyir ki, əcəba, hansı mühacirin geri dönməsi təklif olunmuşdur?

Cavab verirəm: qardaşı, mən istisna olmaqla, bütün mühacirlərin geri qayıtmalarını təklif etdi. Buna isə yalnız bir şərt qoyurdu, "Yeni Kafkasya" qapanacaq və mən bolşeviklər əleyhinə təbliğatı dayandıracağam. Bu təklifi o, şəxsən mənə, Şəfi bəyin evində söylədi və məndən bu cavabı aldı:

- Mirzə Davudlara[33] söylərsən ki, son qırmızı rus əsgəri Poylu stansiyasını keçincə "Yeni Kafkasiya"nın da son nüsxəsi çıxacağına sizə təminat verirəm.

- Bu necə olur? -deyə Şəfi bəyin qardaşı heyrətini gizlətmədikdə, mən də ona:

- Bəs necə olur ki, siz mənə belə bir təkliflə müraciət edirsiniz, - dedim və qalxdım.

Şəfi xatırlayırsa, qardaşının bu gəlişindən sonra neçə illərdən bəri evli olan bir Azərbaycan siyasi mühacir ailəsi işlərini tamamlayaraq, Bakıya qayıtdı.

Bu qədər bir müvəffəqiyyətin "dəllallıq parası" olmaq üçün kafi olub-olmadığını artıq işin mütəxəssislləri həll etsin.

Şəfi bəy, bolşevik xidmətində olan və belə bir konkret missiya ilə gələn "qardaş"ından alınan para ilə Sovetlərə dönməyən A.H. Tağıyev kimi tacirdən kitab və məcmuə satışı müqabilində milli nəşriyyat kassasına alınan paranı eyni növdən olan bir şey kimi göstərməklə kimsənin gözünə kül üfürməsin.

---

[32] Şəfi bəy Rüstəmbəylinin böyük qardaşı Cəfər bəy nəzərdə tutulur. İxtisasca həkim olan Cəfər bəy Aprel işğalından (1920) sonra Azərbaycanda qalaraq, səhiyyə sistemində müxtəlif məsul vəzifələrdə çalışmış və 30-cu illər repressiyasının qurbanı olmuşdur.

[33] Mirzə Davud Hüseynov (1894-1938) – 1920-ci ilin aprelində Azərbaycanın ruslar tərəfindən işğalında xüsusi rol oynamış yerli kommunistlərin nümayəndəsi. Bu "xidmətinin" "mükafatı" olaraq 1920-30-cu illərdə Azərbaycan, Tacikistan və Moskvada yüksək vəzifələrə layiq görülüb.

Şəfi "İstiklal"da imzasız olaraq nəşr olunan Parisdən göndərilən bir məktuba cavab vermək istəmir. Anonim yazılara cavab verilməz deyir. Əla. Fəqət, bu yazı İstanbul müxbirinin orada yayılan bir şayiənin nəqlindən başqa bir şey deyildir. Həm də buradakı şayiələr Sadıq və sairələri tərəfindən dəlil və sübutlarla söylənənlərdən ibarətdir. Əgər imzasız məktubların əhəmiyyəti yoxdursa, o zaman şəxsən Şəfi bəy niyə bu üsula müraciət edərək, öz risaləsində İstanbul icması adından anonim bir məktub nəşr edir. Və eyni zamanda, "İrandakı istiqlalçı azərilər adından İskəndər" imzasının da anonim imzadan fərqi olmadığını görmür.

İranda yaşayan bütün istiqlalçı azərbaycanlılar adından söz söyləyən bu gərəksizin çıxışına etiraz edən yeddi şəxsin imzaladığı kollektiv məktub əlimizdədir.[34] Hər halda Paris məktubununun şaiyə şəklində nəql etdiyi hadisə İstanbul icması ilə "İran vəkili" İskəndərin məktublarındakı müdafiədən daha tutarlıdır, deyilmi? Parislilərin Şəfibəyçiliyinə gəlincə isə, bunu hər kəs bilir ki, Parisdəki Azərbaycan icması iki şəxslə məhdudlaşmır.

Şəfi bəy müdafiəsinin sonunda heç bir qüvvənin onu "milli işlərdən uzaqlaşdırmayacağını" köksünə vuraraq söyləyir.

Bu "milli işlər" də nədir? Mən, onun kiçik qafasına sığmayacaq bir tərzdə, Moskvada əsarət həyatı yaşayaraq, türkcə və farsca dərslər vermək kimi "mühüm məmur" vəzifəsi tutarkən, o, mühacirətdə "milli işlərlə məşğul" imiş. Xatırlayıram, Moskvada olarkən ondan, Türkiyədən gələn birisi vasitəsilə, bir məktub almışdım. Bu məktubda deyilirdi ki, "biz burada heyvani həyat yaşayırıq". Sonra da öyrəndim ki, bu məktubun yazıldığı günlərdə Şəfi bəyi Trabzonda mühacirlər döymək istəyirmiş və bundan ancaq polisin müdaxiləsi nəticəsində canını qurtara bilib.

---

[34] Məktutubu Tehranda yaşayan azərbaycanlı mühacirlərdən A. Babazadə, H.B. Qafarlı, S.A. Rzazadə. H. Kazımzadə, M.H. Əhmədzadə, K. Feyzullazadə və S.H. Rzazadə imzamışdılar.

Sonra Şəfi bəy deyir ki, mən Moskvadan qaçaraq İstanbula gəldikdə hazır təşkilatların başına keçmişəm. Həmin dövrü xatırlayanlar bilir ki, 1922-ci ilin sonunda İstanbula gəldiyim günlərdə oradakı Azərbaycan icmasında qarşılaşdığım mənzərə heç də gözləmədiyim bir fəlakət səviyyəsindəydi.

İcma daxilindəki ziddiyyətlərin nəticəsi olaraq, konsulluğumuz qapanmışdı. İcma üzvləri tökülərək skandalla konsul vəkili olan şəxsi qolundan tutub kənara atmışdılar.[35] Siyasi təmsilçi Xəlil bəy xanənişin (evdən bayıra çıxmayan – A.B.) idi. Əleyhinə nəşr olunmuş ittiham dolu qəzet yazılarına cavab verməkdə belə aciz idi.

İcma nümayəndələrinin üçü bir arada deyildi. Parisdəki nümayəndə heyətindən göndərilən bol maaşların kəsilməsindən sonra Xəlil bəy istefa verdiyi kimi, "dinclik haqqı" istəyən Azərbaycan informasiya bürosunun da fəaliyyəti dayanmışdı. Nə Azərbaycan davasını dəstəkləyən bir dövri mətbuat vardı, nə də milli davaya qarşı olan hücumlara cavab verəcək bir adam!

Sonra Şəfi bəyin məşğul olduğu "milli işlərdən" birisi ilə də təmasa gəldim. Mənim gəlişimdən əvvəl Şəfi bəy hansı bir mənbədənsə bir miqdar pul əldə edibmiş. Bu pullarla Anadoluya səyahətə çıxıbmış. Səyahət ticari bir səyahət olmuş. Səyahət gedişində o həm "..."-a qədər gedərək, oradan məmləkətlə (Azərbaycanla – A.B.) əlaqə qurmağa çalışacaq, həm də etdiyi ticarətdən gələcək qazancı sərmayə ilə bərabər təşkilatın kassasına verəcəkmiş. Əvvəlində iştirak etmədiyim bu əməliyyatın nəticəsinin şahidi oldum. Sərmayəsi 700 lirə olan

---

[35] Azərbaycan Xalq Cümhuriyyətinin İstanbuldakı diplomatik nümayəndəliyinə rəhbərlik uğrunda Y.V. Çəmənzəminli ilə X. Xasməmmədov və ona dəstək verən Ə.M. Topçubaşov arasında gedən uzunmüddətli qarşıdurmadan söhbət gedir. Bu mübarizə son nəticədə diplomatik nümayəndəliyin fəaliyyətinin iflic olmasına və birdəfəlik qapanmasına gətirib çıxarıb. Bu barədə daha ətraflı məlumat üçün bax: *Балаев А*. Мамед Эмин Расулзаде (1884-1955). Политический портрет. Баку, 2014. С. 222-224.

ticarətdən kassaya verilən pul ancaq 70 lirə oldu. Şəfi bəy həyatında yapdığı ticari işlərdə ilk dəfə olaraq ziyana düşmüşdü. O zaman dr. Musa bəy bu hala etiraz etdi. Xəlil bəyin münsifliyinə müraciət olunduqda isə, o, udqundu, udqundu və nəhayət, Şəfi bəyə haqq qazandıran bir-iki cümlə donquldanaraq məsələni qapatdı.

Bu Şəfi bəyin səyahətinin maddi nəticəsi idi. Mənəvi nəticəsinə gəlincə isə, Şəfi bəy əsas məqsəd olan nöqtəyə çatmadan geri dönmüşdü. Oraya qədər getməyi sərfəli hesab etməmişdi.

Yenə təkrar edirik: bu "milli işlər" nədir? Yazdığı risalə o işlərin bir göstəricisi isə, heç şübhəsiz ki, Şəfi bəy bu "işlərindən" ayrılmaz. Mühacirət illərində onunla çalışmaq bədbəxtliyinə düçar olanlar Şəfini "öz işlərindən" ayıraraq milli işə çəkməyin necə mümkünsüz bir şey olduğunu çox əla görmüş və sınamışlar. Şəfi unutmamışdır ki, inəkləri ləğv edərək məsul işə gedəcəyini təşkilata qəti olaraq vəd etdiyi halda, İstanbuldakı xüsusi və ticari əlaqəsini daha da genişləndirmək və qüvvətləndirmək səbəbindən bu sözünə əməl etməmişdir. Sözdə milli kassaya yuk olmuram deyə lovğalanan bu riyakardan soruşulmalıdır: qarışıq zamanlardan bir fürsət kimi istifadə edərək Xəlil bəyin təsdiqilə milli kassadan aldığın "borclar"in miqdarını söyləyə bilərsənmi?!

Özünün müdafiəsinə həsr etdiyi fəslin sonunda Şəfi "Azərbaycan münəvvərlərinin mənimlə (M.Ə. Rəsulzadə ilə - A.B.) hər cür əlaqəni" kəsdiklərini ucadan bildirərək, "bu məsələni gözü qapalı surətdə nüfuzlu hərb miralaylarımız olan iki şəxsin münsifliyinə verərək, davamı tərk edirəm" deyir.

Şəfi bəy gözlərini açsın və görsün ki, münsiflər nə söyləyir.

Bu miralay İsrafil bəyin [36] 28 may 1934-cü il tarixli "İstiklal"da nəşr olunan bir məktubu:

---

[36] Polşa orusunda xidmət edən polkovnik İsrafil bəy İsrafilbəyov (1886-1945) nəzərdə tutulur.

“Müsavat” firqəsi üzvlərindən miralay İsrafil bəy tərəfindən firqə rəhbərliyinə aşağıdakı bəyannamə verilmişdir:

A.T.F. “Müsavat” firqəsi rəisi

möhtərəm M. Əmin bəyəfəndi,

Rüstəmbəyli Şəfi bəyin məlum məktubunu 10.04.1934-cü il tarixli məktubumda zatən protesto etmiş və onun hərəkətlərini təqib etməkdə idim. Pozğunçuluq fəaliyyətinə, son çıxışı ilə həm firqənin, həm milli təşkilatın və həm də rəisin nüfuz və etimadını aşağılayan zərərli hərəkətinə görə firqə rəisliyi tərəfindən Şəfi bəyin firqədən çıxarılmasını yerində və haqlı olaraq qəbul edilmiş bir qərar kimi gördüyümü ərz etməklə, hörmətlərimi bildirirəm, əfəndim”.

22.05.1934. İsrafil

Bu isə miralay Cahangir bəyin[37] məktubu:

“Milli Azərbaycan Mərkəzi rəisi möhtərəm

Rəsulzadə M. Əmin bəyəfəndiyə

Pək möhtərəm Əmin bəy!

Milli iş ətrafında bulunan adamlarımız arasında son zamanlarda özünü göstərən naxoş hallar dolayısı ilə bir müddət əvvəl miralay İsrafil bəylə birlikdə sizə və digər milli iş üzərində bulunan şəxslərə bir məktubla müraciət etmişdik. Bizi bu işə sövq edən amil, heç şübhəsiz, milli və vətəni əndişə idi.

Bizcə, Milli Azərbaycan Mərkəzimiz beynəlxalq vəziyyətin xüsusilə lehimizə olduğu indiki zamanda siyasi fəaliyyətinə daha çox aktiv bir şəkil verməli və sarsılmaz nüfuz ilə milli işi uğurla yürütməlidir. Bu nöqteyi-nəzərdən, son zamanlarda daxildə özünü göstərən bəzi naxoş hallar bizi bir qədər mütəəssir etmiş və əndişəmizi artırmışdı.

Bununla əlaqədar müraciətimizə sizdən və Azərbaycan Milli Mərkəzinin digər üzvlərindən aldığımız inandırıcı cavab və izahat, məni təmamən təmin edərək, təskinlik verdi.

Məktubumu bitirərkən, işimizin vəziyyəti haqqında vermiş olduğunuz kafi izahat və məlumatdan dolayı, sizə və digər Milli Mərkəz üzvlərinə dərin təşəkkürlərimi izhar edir və Azərbaycanın sağlam, vətənsevər qüvvələrinin yaşadığımız məsul bir dövrdə, Azərbaycan

[37] Kazımbəyli Cahangir bəy (1888-1955) nəzərdə tutulur.

Milli Mərkəzi ətrafında birləşəcəklərinə və bütün mövcudiyyətləri ilə bu təşkilatın nüfuzunu və milli siyasi fəaliyəti müdafiə edəcəklərinə ümid edirəm.

Dərin hörmətlərlə,

Miralay Cahangir Kazım bəy

25 may 1934-cü il.

## IX. Şəfibəyçilik nədir?

Şəfibəyçiliyə "İstiklal" üçün yazdığım bir məqalədə belə tərif vermişdim: "*Bu, siyasi həyatda misli görünməmiş fəsadçılığın Azərbaycan mühitindəku adıdır*".

Ağasıbəyli Səlim bəyin, Şəfi bəyin bugünkü yoldaşının, bu Şəfibəyçiliyi "azefçilik"[38] ilə müqayisə etdiyini bilirik. Rusiya inqilab tarixi ilə yaxından tanış olanlar "azefçiliyin" nə olduğunu bilirlər.

Azef, inqilabçı sosialistlərin (eserlərin – A.B.) terror təşkilatını idarə edən bir mərkəz üzvü ikən, eyni zamanda, gizli çar polisinin də casusu idi. Bir inqilabçı sifətilə o, böyük hökumət məmurlarını öldütdürür, siyasi xəfiyyənin gizli casusu sifətilə isə inqilabi təşkilatları ələ verirdi.

Azefçilik deyilincə, belə iki tərəfə çalışan fitnəçi anılır ki, onun da əsil adı provokatordur.

Şəfi bəy provokatormudur?

Mənsub olduğu təşkilat haqqında müsafiri bulunduğu hökumətə çuğulluq etdiyi müxtəlif mənbələrdən və saysız etiraflardan anlaşılan bir adamın provokatorluğuna artıq şübhə qalırmı? (evrak məsələsi).

Belə bir adam illərdən bəri rəhbərliyi altında çalışdığı və rəis deyə yüksəltdiyi bir şəxsin arxasında intriqalar qurub, onu qonşular və özgələr yanında etibardan salmaq üçün hərəkətlər edirsə, beləsinə fitnəçi deyilməzmi? (Xəlil bəyə təlimat məktubu).

Bu səciyyədə olan birisinin pulgirliyi nəzərə alınarsa, bolşevik məmuru olan qardaşının məlum təkliflər və hədiyyələrlə ona qonaq gəlməsinin mənası şübhəli bir mahiyyət almazmı? ("Yeni Kafkasya"nın qapadılması ilə mühacirlərin geri dönməsi təklifi).

---

[38] Azefçilik bir qayda olaraq iri siyasi provokasiya anlamında işlənir. Termin həm eserlər partiyasının liderlərindən biri, həm də çar xəfiyyəsinin agenti olmuş Evno (Yona) Azefin (1869-1918) adından götürülüb.

Əhəmiyyətsiz məsələlərdə "təxribatçı" maskası taxdığı halda, böyük ixtilafların həlli məsələsində bu ixtilaflara qarşı mənfi mövqe tutan şəxsiyyət, iş üçün məsul olanlara həqiqi bir əmniyyət təlqin edə bilərmi? (Paris və Varşava ixtilaflarına qarşı müxalifət məsələsi).

Bir il əvvəl firqənin təşkilati məsələlərini həll etmək məqsədilə çağrılan yığıncaqda firqə rəisinə ən qəti şəkildə etimadını bəyan edən bir adamın, bir il sonra qəflətən ortaya atılaraq, eyni adamı olmazın cinayətlərdə ittiham etməsi, bir provokator işi deyilmidir?

Nəhayət, firqə qurultayı haqqında edilən saxtakarlıq nədir? – Ən qatı bir provokatorluq deyilmidir?..

Bütün bunları bir kənara qoyaq, Şəfi bəyin, təşkilatın müxtəlif müxaliflərlə təmas halında olduğunu ifşaya qalxmasını provokatordan başqa birisi edərmi?..

Fəqət, Şəfibəyçiliyin əsil mahiyyəti və sifəti bunlarla da tamam təyin olunmur. Bunun nə mahiyyətdə bir fəsad olduğunu, möhtərəm oxucular, Şəfi bəyin demaqoqcasına hücumları ilə tanış olarkən görürlər.

Yaxşı, deyək ki, Şəfi bəy, Əmin bəyi islah məqsədilə onun "özbaşına hərəkətlərinə və inzibati sui-istifadələrinə" bir çox hallarda "bəlkə islah olundu" deyə səs çıxarmamış, susmuş, bəzən də hətta "əmniyyəti təlqin etmək üçün" başqa cür düşündüyü halda, ona etimad göstərmişdir. Fəqət, bu insanın hələ Azərbaycandan "qılaflı adam" olduğunu və "Stalinin adamı olaraq xaricə çıxdığını" bildiyi halda, hansı əsasla buna dözmüşdür?.. – Bu sifətlərdəmi zaman keçdikcə islah olunacaqdı?..

Şəfi bəy və ortaqları bu nöqtədə nə qədər gülünc olduqlarının fərqində deyillərmi, yoxsa bir kərə təxribatçılığı üzərlərinə götürdükdən sonra hər cür həya və namus hissini itirmişlər?!...

Şəfibəyçiliyin bu hüdud bilməyən sükutu qarşısında duşunərkən, istər-istəməz, bolşeviklərin mühacirəti dağıtmaq üçün xaricdəki casuslarına göndərdikləri təlimatı xatırladıq. Vaxtı ilə

Berlində çıxan "Naş Vek"[39] qəzetində ifşa olunan bu təlimata görə, G.P.U. casusları:

"1) Mövcud bütün mühacir təşkilatlarına soxularaq, daxildə nifaq yaratmaq məqsədilə ya təşkilatı tamamən pozmalı, yaxud da müxtəlif hissələrə parçalamağa çalışılmalıdır.

2) Avtoritet sahibi və kütlə üzərində təsiri olan və olmağa başlayan, eyni zamanda, bu xüsusda fəaliyyət göstərən tanınmış şəxsiyyətləri nüfuzdan salmaq üçün bütün gücü sərf etmək; çeşidli üsullardan istifadə etməklə, bu adamlara ləkə vuraraq, onları həm mühacirət içərisində və həm də yerli ictimaiyyətin, xüsusilə də hökumət dairələrinin nəzərində nüfuzdan salmaq lazımdır".

Bu maddələrdəki əmrləri göz önünə almaqla bərabər, həm də bolşevik mətbuatının "Müsavat" əleyhinə təbliğatını, o cümlədən Azərbaycan kommunist partiyasının "müsavatçılıqla təkcə daxildə deyil, xaricdə də ciddiyətlə mübarizə" qərarı vermiş olduğunu unutmamalıyıq.

Şəfi bəyin əvvəlki hərəkətləri ilə bu dəfəki yazısı tədqiq olunduqda görünür ki, mühacirətdəki milli Azərbaycan davası uğrunda vuruşan bütün fəallara bu və ya başqa dərəcədə qara yaxılır, sovet mətbuatının rahatlığığını pozan tanınmış yazarların, sınanmış işçilərin şəxsi həyatlarına varıncaya qədər soxularaq min bir dürlü yalanlarla bu adamları ləkələməyə cəhdlər olunur.

Sonra saxtakarlıq edilərək, zehinlərdə "Müsavat" firqəsi rəhbərliyində dəyişiklik edildiyi barədə yanlış düşüncələr oyadıldığı kimi, "Müsavat" firqəsinin parçalanaraq, bir tərəfdə "Müsavat", digər tərəfdə də "Ədəmi Mərkəziyyət"in qaldığı elan olunur (Nağı bəyin risaləsi).

Şəfi bəy çoxsaylı kinayələri ilə, Nağı bəy isə açıq şəkildə Əmin bəyin Türkiyə xaricində qalmasına kommunist mətbuatı və bolşevikyönlü qəzetçilər qədər sevinir, bunu Azərbaycan

[39] 1931-ci ildən Berlində rus mühacirləri tərəfindən nəşr edilən həftəlik qəzet.

davasının böyük uğuru hesab edir. Bu iş Sovet Azərbaycanında hakimiyyətdə olan qırmızı rus qüvvəsi tərəfindən eyni şəkildə qəbul edilməmiş, milli mətbuatımızın İstanbuldan Berlinə köçmək məcburiyyətində qalmasına qırmızı Bakıda sevinməmişlərmi?

İşləri G.P.U. təlimatına və Azərbaycan komminist partiyasının qərarnaməsinə uyğun gələn Şəfibəyçiliyin istifadə etdiyi dil və istilahlar da, düşmənlərimizin istifadə etdikləri dil və ifadələrlə eynidir.

Moskva uşağı Ə.H. Qarayevə görə, biz imperialist hökumətlərin uşağıyıq, Şəfi bəyin fikrincə isə, əcnəbi dövlətdən maaş alan məmurlarıq. Eyni ittihamı biz ara-sıra ümumi mətbuatda milli Azərbaycan davası əleyhinə məqalələr yazan bolşevikyönlülərdən də eşidirik.

Bolşevik M.D. Hüseynov çox zəhmət çəkərək bir risalə yazmış, orada özü qədər cahil olan Şeyxzamanlı Nağı bəy kimi, Rəsulzadə Əmin bəyin heç bir zaman istiqlalçı olmadığını "isbat" etmişdi. Yalnız bir fərq var ki, M. Davuda görə Əmin bəy çar yanlısı, Nağı bəyə görə isə - bolşevikdir.

*Şəfibəyçilik hər cür ideyadan və yaradıcılıqdan məhrum, pis niyyətli dağıdıcıdır*. Bu bir xəstəılik, ictimai xəstəlikdir. Elə bir xəstəlik ki, ona mübtəla olanları çox asanlıqla üzü aşağı yuvarladaraq, hər cür pislik və xəyanətə qədər sürükləyir.

Bu xəstəliyin ən əsas əlaməti ümumi sahədə ən geniş hüquqlar tələb edərək, ən kiçik məsuliyyətdən belə qaçmaqdır. Bu xəstələr öz şəxsi işlərini, istirahət və qazanclarını, ailə və səadətlərini zərrə qədər də qurban vermədikləri halda, bütün vaxt və bacarıqlarını yalnız milli işə həsr edənləri öz nəzarətləri altında saxlamaq, onlara əmr etmək istəyirlər. Bir vətəndaşımızın Şəfi bəyin dostu Xəlil bəyə söylədiyi kimi, "bunlar milli vəzifə uğrunda çalışanların özləri qarşısında dik durmalarını tələb edənlərdir. Çünki Azərbaycanın dağlarını, dərələrini bunlar yaratmışlar".

*Şəfibəyçiliyin az-çox müvəffəq olduğu mühit, Azərbaycan milliyətçiliyinə, türk kültür və özəlliklərinə yabançı qalmış*

*ünsürlərdən təşəkkül edər*. Nə Şəfi bəy, nə Xəlil bəy, nə də Səlim bəy, 14 ildən bəri Türkiyədə yaşadıqlarına rəğmən, fikirlərini türkcə yaza bilməyən insanlardır. Bu zümrəyə rəhbərliyi boynuna götürən Şəfi bəy vaxtı ilə idarə etdiyi rusdilli bir qəzetdə Azərbaycanın böyük şairi Füzulidən bəhs edən məqaləsində "Fiskuli adında birisi" kəlməsini işlətmişdi.

Məmməd Ağaoğlunun bir toplantıda söylədiyi məşhur ifadəyə görə, bunlar "milli imandan məhrum insanlardır".

Şəfi bəy daha ziyadə bolşevik düşməni olduğunu babasının edamı və özünün də edama məhkum olunması ilə sübut etməyə çalışır. Unudur ki, bolşeviklərin edam etdiklləri adamlar arasında elələri vardır ki, Azərbaycanda Denikin və ya Vrangelin hakimiyyəti qurulmuş olsaydı, qətiyyən edam edilməz, bəlkə də vəzifə sahibi olardılar. Sadəcə olaraq bolşeviklərə qarşı düşmənçiliklə həqiqi istiqlalçılıq və mütləq rus istilasına qarşı düşmənçilik arasında fərq böyükdür.

*Şəfibəyçiliyin bir xisləti də bu fərq xüsusundakı qayğısızlığıdır*. Şəxsən Şəfi bəy bu qayğısızlığı göstərmişdir. Fəqət biz, tarixi zamanda olduğumuzu nəzər alaraq, ümumi davamıza zərər verə biləcək bu təfsilatın üstündən indilik keçirik. Üzrlü bilin.

*Şəfibəyçilik –prinsipsizdir*. Görürsünüz ki, bu qədər yazı və ifşalar arasında Şəfi bəyin prinsipə söykənən tək bir kəlməsi də yoxdur. Mücadilə nə üçündür? Baxin: "özünüzü reklam edirsiniz". "Kurortlarda su içirsiniz", başqa təbirlə desək, "xəstəliyinizi müalicə edirsiniz". "Doğum gününüzü bayram edirsiniz". "Ailənizə yardım edirsiniz". Bu bir yığın "qəbahətlər" "dünyanın altını üstünə çevirməyə" əsas vermişdir.

Gözlənirdi ki, Şəfi bəy madam ki, bu qədər bir gurultu ilə meydana atılmışdır, desin: "Siz Azərbaycan istiqlalını istəyirsiniz – Biz buna razı deyilik; siz Qafqaz konfederasiyası fikrindəsiniz. – Biz buna inanmırıq. Siz türk xalqlarının kültür birliyi tərəfdarısınız. – Biz bunu qəbul etmirik. Siz Rusiyanın məhkum millətlərilə birlikdə getmək istəyirsiniz. – Biz bunda fayda görmürük. Siz rus firqələrilə anlaşmaq imkanı axtarırsınız. –

Biz isə bu qənaətdə deyilik. Siz hakimiyyət millətindir, müstəqil Azərbaycan cümhuriyyətinin rejimi xalq rejimi olmalıdır, deyirsiniz. – Biz isə xalqçı deyilik. Siz həmrəylik prinsipinə əsaslanan ictimai bir nizam istəyirsiniz. – Bu isə bizim işimizə yaramır. Siz xilas yolunu aktiv mücadilədə görürsünüz. – Biz bunda təhlükə görürük. Siz bolşeviklərlə münaqişə edirsiniz. – Biz bu münaqişədən bezarıq.

Buna bənzər bir şey söyləmiş olsaydı, o zaman həm qurultay qərarı kimi bizə uddurmaq istədiyi təbliğin bir mənası olar, həm də kənardan baxan bitərəf bir şəxs aparılan mücadiləni münasib saymasa da, bəlkə də anlardı.

Halbuki, gerçəklikdə nə görürük. Danosbazlıqda ittiham olunduğu, özünün isə"namus oğrusu" və "bic" adlandırıldığı səbəbindən ictimai rəyin təzyiqi altında dava açdığı halda, məhkəmədən arsızcasına qaçdığını unudan bir adam utanmadan çıxıb yenə namusdan, əxlaqdan, məhkəmədən bəhs edir!

*Şəfibəyçiliyin bir xisləti də budur – həyasızlıq*!

Onu təhdid edən hərb təhlükəsi qarşısında, rəqibləri arasında ən zəif gördüyü milli mühacirəti qabaqcadan sıradan çıxarmaq əzmilə hərəkətə keçən düşmən, bu ideyasız, xain, eqoist, qeyri-milli, qeyri-səmimi, prinsipsiz, fitnəkar və pozğunçu *Şəfibəyçilikdən* maksimum yararlanaraq, digər cəbhələr kimi, milli Azərbaycan mühacirətini də dağıtmaq təşəbbüsündə bulunur.

Fəqət yanılır. Nəhəng bir qüvvəyə, qırmızı rus qüvvəsinə qarşı hərb açan böyük, müqəddəs və haqlı bir davanın, yəni Azərbaycançılığın mücahidləri bu əngəli də yenər, Şəfibəyçiliyi də devirərlər.

*Çünki, haqq yüksələr - yenilməz*!

# X. Son söz

Yuxarıdakı fəsilləri gözdən keçirən oxucu, ümid edirik ki, Şəfibəyçiliyin nə olduğu haqqında müəyyən bir təsəvvür əldə etmişdir.

Bu mənfi zehniyyət özünü Azərbaycançılığı ortadan qaldırmaq istəyən böyük düşmənin istifadəsinə verərək, çox çirkin bir rol oynayır.

Azərbaycançılıq nədir? Onu ortadan qaldırmaq istəyən böyük düşmən hansıdır?

*Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Elə bir istiqlalçılıq ki, tarixin ən böyük müəssisəsi olan milliyyətin dövlət olması məqsədilə müzəffər yürüşü deməkdir.*

*Azərbaycançılıq demək, böyük türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üçün başlanmış şanlı bir mücadilə deməkdir.*

*Azərbaycançılıq, eyni zamanda, bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır.*

Bu müqəddəs hərəkata qarşı duran, onu ortadan qaldırmaq istəyən düşmən hansıdır?

Bu, istiqlalın da, milliyətin də, hürriyyət və milli hakimiyyətin də düşməni bulunan qara bir qüvvədir. Elə bir qüvvə ki, ona əvvəllər Rusiya imperatorluğu deyilərdi və bütün Şərq, İslam dünyası, xüsusilə də Türk dünyası o qara qüvvənin əsiri idi. Yalnız bunlarmı? Hürriyyət istəyən bütün mədəni dünya ona beynəlxalq jandarm adını verməmişdimi? Elə bir qüvvə ki, bu gün həm rəngini, həm də ünvanını dəyişmişdir. İndi ona "Sovetlər İttifaqı" deyirlər. Qırmızı Moskvanın süngüsü üzərində duran bu "İttifaq" içərisindəki millətlər müstəmləkə tarixində misli görünməyən bir şəkildə istismar olunurlar.

*Azərbaycançılıq işdə bu istismara, bu istilaya – bu qırmızı imperializmə qarşı vuruşan bir qüvvədir.*

Tarixin ən haqlı davasını təmsil edən bu cərəyanın siyasi nümayəndəsi Azərbaycan "Müsavat" Xalq Firqəsidir. Azərbay-

canda cərəyan edən milli mücadilə bu firqənin bayrağı altında gedir. Bu bayraq altında vuruşaraq, canlarını vətən mehrabına fəda edən nə qədər şəhidlərimiz vardır? Şairimizin "Buzlu cəhənnəm" adlandırdığı Solovki sürgünündə əziyyətlərə qatlaşan nə qədər mücahidlərimiz vardır?

Məmləkətimizi qanlı istilası altında saxlayan qırmızı rusluğun siyasi təmsilçisi olan kommunist partiyasının özünə qarşı tanıdığı qüvvə bu firqədir. Sovet mətbuatının bütün tənqidləri bu firqəyə, bu quruma qarşı çevrilmişdir.

Kommunizmin hürriyyət, milliyyət və mülkiyyət əsaslarını rədd edən, hər cür müstəbid tədbir və təcrübələrə qarşı üsyan edən xalq kütlələri, vətənimizin düşmənləri tərəfindən müsavatçılığın təbii ardıcılları kimi qəbul olunurlar.

*Bir sözlə, bu günkü işğalçı rusluğun təmsilçisi – kommunistlik, Azərbaycançılığın təmsilçisi isə - müsavatçılıqdır.*

Müsavatçılıq – işdə milli Azərbaycan hərəkatının bayrağıdır!

Bu bayraq müqəddəratları vətənimiz Azərbaycana sıx bağlı olan, Qafqaz konfederasiyası şüarı altında birləşən qonşu millətlərin bayraqları ilə yanaşı yürüyür.

Eyni zamanda, bu bayraq Sovetlər İttifaqında əksəriyyət təşkil edən qeyri-rus millətlərin istiqlal üçün yüksəltdikləri bayraqlarla birlikdə dalğalanır.

Sonra müsavatçılıq – türkçülük bayrağıdır. Bütün türk ellərinin kültür birliyini mühafizə etməyi öz qayəsi hesab edən bir cərəyanı təmsil edir.

Bütün bu bayraqları endirməyə can atan böyük düşmənin Azərbaycanda məhv etməyə qərar verdiyi qüvvə - "Müsavat" qüvvəsidir. Bu qüvvənin bayraqdarları uzun müddətdən bəri mühacirətdə bulunaraq, mətbuat və siyasi fəaliyyətlərilə Azərbaycan davasını dəstəkləyən insanlardır. Düşmən mətbuatı və casuslarının bu kadrlara qarşı nə cür mübarizə apardığını milli Azərbaycan mətbuatını dəstəkləyənlər bilirlər.

Düşmənin çoxdan məlum olan mübarizə metodlarına indi biri də əlavə olunub ki, bu da mühacirəti içindən dağıtmaq, onu

demoralizə etmək silahıdır. Bu məqsədlə o yaxşı silah bir silah kimi Azərbaycan mühacirəti daxilində "Şəfibəyçiliyi" tapmışdır.

Düşmənin Çekası, G.P.U.-su, həbsxanası, sürgünü, "Buzlu cəhənnəmi", min bir işgəncə və zülmü təmsil etdiyimiz hərəkatı yürüşündən əngəlləyə bilmədiyi kimi, Şəfibəyçilik də bizi yolumuzdan edə bilməz. "Müsavatçılıq" bu maneəni də aşar, vücüduna daraşan bu tüfeyliləri də kökündən təmizləyib atar.

*Qırmızı rusluğun rəsmi qüvvələri önündə boyun əyməyən bir davanın, bu kimi məkrli hərəkətlərlə sarsılacağını düşünən düşmənlər və onlara xidmətdən zövq alan riyakarlar özlərinin yaramaz adlandıqlarını indidən bilsinlər*.

Nəsibləri məhrumiyyət və lənətdir. *Milli hərəkat durmaz – yürür*!

# BƏLƏDÇİ

*Məktublar* ........................................................................................ 3
*Şəfibəyçilik* ................................................................................... 124

**Məmməd Əmin Rəsulzadə**
**Məktublar. Şəfibəyçilik**

*Tərtib edən, ön sözün və izahların müəllifi*
*t.e.d. Aydın Balayev.*

Yığılmağa verilib: 05.09.2017
Çapa imzalanıb: 07.11.2017
Formatı 60x84 1/16,
Fiziki çap vərəqi 12
Tiraj 300

Bakı, Azərbaycan